RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 94 (9839) 9 may 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Uzaqgörənliyi ilə fərqlənən lider

## Azərbaycanın özü qədər əbədi



Heydər Əliyev xalqını özünün dahilik səviyyəsində görmək istəyirdi. Sovet dövründə Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanın minlərlə vətəndaşı SSRİ-nin tanınmış ali təhsil məktəblərində elmə-peşəyə yiyələndilər. Tanınmış təsərrüfat işçiləri, elm və mədəniyyət xadimləri yüksək ordenlərlə təltif olundular. Azərbaycanın məşhur dirijoru SSRİ-nin Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Maestro Niyazi Sovet İttifaqında bu yüksək ordenə layiq görülmüş yeganə insan idi və bu məsələ müzakirə olunanda Ukraynanın odövrkü rəhbəri qısqanclıqla iddia edirdi ki, necə ola bilər SSRİ-də və o cümlədən Ukraynada tanınmış dirijorlar var, lakin onların heç biri belə yüksək mükafata layiq görülməyiblər. O zaman həmin dövlət başçısı Heydər Əliyevdən vəzifəcə yuxarı idi. Lakin Heydər Əliyev bu məsələdə də təmkinlik göstərərək izah etmişdi ki, o, heç elə demək istəmir ki, SSRİ-də bu yüksək ada layiq olan dirijor yoxdur.

Heydər Əliyevin ən ağır məqamlarda çıxış yolu tapmaq, qarşı tərəflə razılıq əldə etmək qabiliyyəti xüsusi qeyd edilməlidir. 1993-cü ildə ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdanda qonşu ölkələrlə münasibət gərgin vəziyyətdə idi. Neft müqavilələrinin müzakirəsi ərəfəsində Rusiya xarici işlər nazirinin müavini mətbuatda çıxış edərək demişdir: "Azərbaycan Xəzər dənizinin özünün hesab etdiyi sektorunda Rusiya müvafiq qurğu qoyub neft hasil etsə, məgər Azərbaycan Rusiya ilə müharibə aparacaq?" Bu, açıq şəkildə Azərbaycana qarşı olan düşmənçilik mövqeyi idi. Ancaq Heydər Əliyevin səyləri sayəsində bu gərginlik aradan götürüldü və neft müqaviləsi imzalandı. Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində qonşu ölkələrlə olan gərginlik aradan qaldırıldı.

Ulu Öndərin ən böyük nailiyyətlərindən biri ondan ibarətdir ki, müəllifi olduğu siyasi, iqtisadi və sosial kursun səmərəli davamlılığına özündən sonra da nail olundu. Bu kursun Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi xalqımızı möhtəşəm qələbəyə gətirdi.

→ 9

# Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında qarşılıqlı etimad və dostluğa əsaslanan münasibətlər uğurla inkişaf edir

**Mayın 8-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Telefon danışığı zamanı dövlətimizin başçısının Birləşmiş Ərəb Əmirliklərinə səfəri zamanı Əbu-Dabidə keçirilmiş görüşlərdə aparılmış müzakirələrdən məmnunluq ifadə olunub.

Ölkələrimiz arasında qarşılıqlı etimad və dostluğa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi bildirilib, mövcud siyasi dialoqun ruhuna uyğun olaraq iqtisadi-ticarət əlaqələrinin genişləndiyi, müxtəlif sahələr üzrə nümayəndə heyətlərinin qarşılıqlı səfərlər həyata keçirdikləri vurğulanıb.

Dövlət başçıları ikitərəfli və regional gündəliyə aid məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan ilə Türkiyə arasındakı birlik, qardaşlıq və həmrəylik bütün Türk dünyası üçün böyük töhfədir

## XXVIII Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarına

Hörmətli Zirvə Toplantısının iştirakçıları!

Sizi Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə keçirilən XXVIII Avrasiya İqtisadi Zirvə Toplantısının açılışı münasibətilə səmimiyyətlə salamlayıram.

Builki Zirvə Toplantısı əlamətdar hadisə - Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin qurulmasının 40-cı ildönümünə təsadüf edir. Bu münasibətlə Vəqfin bütün üzvlərini ürəkdən təbrik edirəm. 1985-ci ildə sülh və dialoq təşəbbüsü olaraq təsis olunmuş Vəqf bu gün öz sıralarında nüfuzlu siyasətçiləri, politoloqları, iqtisadçıları, akademik dairələrin nümayəndələrini və iş insanlarını birləşdirərək qlobal və regional əməkdaşlığın genişləndirilməsinə, sülhün, sabitliyin qorunmasına, mədəniyyətlərarası dialoqun təşviqinə böyük töhfə verən mühüm platformalardan birinə çevrilmişdir.

Mərmərə Qrupu Vəqfinin və onun rəhbəri hörmətli Akkan Suverin Azərbaycan və Türkiyə arasında əlaqələrin genişlənməsində xidmətlərini xüsusi vurğulamaq istərdim.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Mərmərə Qrupu Vəqfinin fəaliyyətini daim yüksək qiymətləndirmiş və təşəbbüslərini dəstəkləmişdir. Qeyd etmək lazımdır ki, məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildən Avrasiya İqtisadi Zirvə Toplantıları keçirilməyə başlamış və həmin ildə Heydər Əliyev Mərmərə Qrupu Vəqfinin fəxri sədri seçilmişdir.

Mərmərə Qrupu Vəqfinin qurulmasının 40 illiyi münasibətilə təsis edilən 16 mükafat arasında Ulu Öndər Heydər Əliyevin xatirəsinə "Türk Dünyası Mükafatı"nın yer alması bizim üçün böyük şərəfdir. Ümummilli Liderin adına ithaf edilən mükafata dünyaşöhrətli alim, Nobel mükafatı laureatı və Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü Əziz Sancarın layiq görülməsi xüsusi məmnunluq doğurur.

Bu gün Azərbaycan ilə Türkiyə arasındakı birlik, qardaşlıq və həmrəylik bütün Türk dünyası üçün böyük töhfədir. Azərbaycan-Türkiyə qardaşlığının möhkəmlənməsində, strateji müttəfiqliyimizin gücləndirilməsində əziz Qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın misilsiz xidmətləri vardır. Ortaq tariximizdən, zəngin milli-mənəvi dəyərlərimizdən, xalqlarımızın birliyindən qaynaqlanan və hazırda dinamik inkişaf edən müstəsna dövlətlərarası əlaqələrimiz bölgədə rifaha, sülhə və təhlükəsizliyə töhfə verməklə yanaşı, bütün Avrasiya üçün önəmli amil rolunu oynayır.

Avrasiya İqtisadi Zirvə Toplantısının builki iclası *"Yaşana bilən bir dünya üçün dialoq"* mövzusuna həsr olunub. Hansı sahədə olursa-olsun, istər dövlətlərarası münasibətlərdə, istərsə də insanlararası təmaslarda dialoq mühüm sabitləşdirici faktor və körpü olaraq çıxış edir. Şərqlə Qərbin, Şimalla Cənubun qovuşduğu məkanda yerləşən Azərbaycanda əsrlər boyu ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələri dostluq, qardaşlıq, qarşılıqlı etimad və anlaşma şəraitində birgə yaşayırlar. Xalqlararası dostluğun, dinlərarası dialoqun, multikulturalizm və tolerantlıq ənənələrinin qorunması bizim yaşam tərzimiz olmaqla yanaşı, dövlət siyasətimizin prioritet istiqamətlərindəndir. Ölkəmiz eyni zamanda qlobal müstəvidə də mədəniyyətlər arasında ahəngdar münasibətləri dəstəkləyir, qarşılıqlı anlaşmaya nail olunması naminə sivilizasiyalararası dialoq zəminində təşəbbüslərlə çıxış edir.

Azərbaycan Cənubi Qafqazda davamlı sülhün bərqərar olması, sosial-iqtisadi rifahın təmin edilməsi üçün var qüvvəsi ilə çalışır. Hesab edirəm ki, hazırda bu bölgənin sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün tarixi şərait yaranmışdır.

Bəşəriyyətin üzləşdiyi yeni çağırışlar, beynəlxalq münasibətlər sistemində artan parçalanma və gərginlik dövründə dünyada sülh, əmin-amanlıq və dinc birgəyaşayışın təmin olunmasında dialoqun rolu danılmazdır. Azərbaycan 4 il ərzində Qoşulmama Hərəkatına, keçən ilin noyabrından etibarən isə COP29-a sədrlik edərək Qlobal Cənub ilə Qlobal Şimal arasında uzun illərdən bəri formalaşmış etimadsızlıq mühitinin aradan qaldırılması, onlar arasında dialoq körpüsünün qurulması və qarşılıqlı anlaşmanın bərqərar olması uğrunda səylərini əsirgəmirdi. Məhz Azərbaycanın tutduğu balanslaşdırılmış mövqe COP29-da qlobal iqlim fəaliyyətinə müsbət təkan verən və çoxtərəfliliyin təntənəsi olan "Bakı sıçrayışı"nın əldə edilməsini şərtləndirdi.

İnanıram ki, builki Avrasiya İqtisadi Zirvə Toplantısı iqtisadiyyat, enerji, rəqəmsallaşma, süni intellekt, səhiyyə, ətraf mühit və digər aktual mövzular və yeni əməkdaşlıq imkanları ətrafında faydalı müzakirələrin aparılması, ideyaların və təcrübələrin mübadiləsi, səylərin əlaqələndirilməsi üçün əhəmiyyətli platforma olacaqdır.

Bir daha Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin bütün üzvlərini yubiley münasibətilə təbrik edir, Vəqfin fəaliyyətinə bundan sonra da müvəffəqiyyətlər və yeni-yeni nailiyyətlər, Zirvə Toplantısının işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 may 2025-ci il*

# Prezident İlham Əliyev faşizm üzərində qələbə münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 9 May - faşizm üzərində Qələbə Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.




# Alman faşizmini diz çökdürən Bakı nefti



Bakı nefti olmadan 1941-1945-ci illər müharibəsində SSRİ faşizmə qalib gələ birlərdimi? Cavab bütün dünyaya aydındır. Bu sualı dünyanın görkəmli şəxsiyyətləri öz güclü məntiqlərinin süzgəcindən keçirərək, demək olar ki, eyni cür cavablandırıblar. Məsələn, uzun illər SSRİ neft və qaz sənayesinə başçılıq etmiş Nikolay Baybakov təsdiq edib ki, SSRİ-nin neft balansında Azərbaycanın iştirakı olmasaydı, Sovetlər İttifaqının faşizm üzərində qələbəsi sual altında qala bilərdi.

→ 14

# A.İ.Babayevə Heydər Əliyev Mükafatının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Arif İmran oğlu Babayevə Heydər Əliyev Mükafatı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2025-ci il*

# Fikrət Qocanın 90 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2025-ci ilin avqust ayında Azərbaycanın Xalq şairi, Dövlət mükafatı laureatı Fikrət Qocanın (Fikrət Göyüş oğlu Qocayevin) anadan olmasının 90 ili tamam olur.

Fikrət Qoca milli şeir ənənələrindən və dünya bədii fikrinin nailiyyətlərindən uğurla bəhrələnərək orijinal dəst-xətini formalaşdırmış söz ustalarındandır. Novator şair kimi o, fəal vətəndaşlıq mövqeyinin ifadəsi olan, dərin humanist məzmuna malik əsərləri ilə ötən əsrin 60-cı illərində Azərbaycan poeziyasına yeni ovqat gətirmişdir. Sənətkarın həyat və zaman haqqında lirik-fəlsəfi ümumiləşdirmələrlə zəngin yaradıcılığında müasir insanın mənəvi-əxlaqi kamillik axtarışları özünün dolğun poetik əksini tapmışdır. Fikrət Qoca ədəbi fəaliyyəti boyunca yüksək ictimai amala sadiq qalmış, doğma xalqının azadlıq ideallarının tərənnümünü daim diqqətdə saxlamış, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işinə öz töhfəsini vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərini nəzərə alaraq, Xalq şairi Fikrət Qocanın 90 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq şairi Fikrət Qocanın 90 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2025-ci il*

# Azərbaycan Respublikasının mədəniyyət və elm xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında mədəniyyətin və elmin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Axundov Elçin Əbdül oğlu
Amənzadə Raihə Barxudar qızı
Fərəcov Sərdar Fərəculla oğlu
Göyüşov Nəsib Cümşüd oğlu
Məmmədov Sabir Novruz oğlu
Rövşən Ramiz Məmmədəli oğlu
Yaqubova Ella İsmayıl qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2025-ci il*

# Balakən rayonunun Heydər Əliyev parkında sərnişin kanat yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Balakən rayonunun Heydər Əliyev parkında sərnişin kanat yolunun layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə 5 (beş) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən sərnişin kanat yolunun tikintisinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2025-ci il*

# İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002 ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev Mətləb Fətəli oğlu
Abdullayeva Xurşud Lütvəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağasiyev Tural Aydın oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Ağayeva Aygül Asəf qızı
Allahverdiyeva Naibə Siyavuş qızı
Amanova Almaz Hüseyn
Aşurov Mustafa Əhməd oğlu
Atakişiyev Firdovsi Nurəddin oğlu
Babayev Allahverən Hacı oğlu
Babayeva İnarə Əhməd qızı
Bayramov Səyyad Məmiş oğlu
Bəxtiyarov Rəşad Bəhram oğlu
Cəfərov Samir Qadir oğlu
Dadaşov Ceyhun Arif oğlu
Eyvazov Anar Əli oğlu
Eyyubov Musa Eyyub oğlu
Əhmədli Bəhruz Vaqif oğlu
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov Elşad Eldar oğlu
Əkbərov Mir Qabil Qafil oğlu
Ələkbərzadə Mehriban Zaur qızı
Əliyev Fərid Fərhad oğlu
Əliyev Samir Asəf oğlu
Əliyeva Arzu Qurban qızı
Əliyeva Münəvvər Sabir qızı
Əliyeva Nərgiz Arzu qızı
Əliyeva Ülviyyə Fərhad qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əmirbəyova Rita Cəmil qızı
Əsədov İlham Əsəd oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Ferştandt Anton Sergeyeviç
Gözəlova İradə Vaqif qızı
Hacıyev Əli Yusif oğlu
Hacıyeva Natavan Nizami qızı
Hacıyeva Sevil İnşalla qızı
Heybətov Anar Mithət oğlu
Həsənov Kərim Abbas oğlu
Həsənov Zaman Hüseyn oğlu
Həsənova İlahə Bayraməli qızı
Həsənzadə Tuncay Ayaz oğlu
Hüseynli Anar Vaqif oğlu
Hüseynli Rauf Eyyub oğlu
Hüseynli Yeganə Tofiq qızı
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynov Fizuli İsmət oğlu
Hüseynova Kəmalə Müzəffər qızı
Xanlarova Mehriban Aslan qızı
Xasiyev Səmədzadə Nadir oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimova Şəhla İbrahim qızı
İbrahimova Nigar Rəfael qızı
İmanov Vaxtanq Yaşar oğlu
İmanova Ləman Fuad qızı
İskəndərova Sənubər Sabir qızı
İsmayılova Gülnaz Əmir qızı
Kazımov Nicat Mirəziz oğlu
Kərimduxt Rövşən Ramazan oğlu
Kərimova Leyla Əli qızı
Kərimova Nərgiz Faiq qızı
Kuxmazova Yulizana Şəfiyevna
Qaraxanov Yalçın Ənvər oğlu
Qarayev Elnar Cəfər oğlu
Qasımov Amid Fizuli oğlu
Qasımov Sahil Ələkbər oğlu
Qədiyev Seymur Ağaddin oğlu
Qəhrəmanov Abbas Əhməd oğlu
Qubadov Ceyhun Şahbala oğlu
Qulamov Samir Ceyhun oğlu
Quliyev Cəmil Elşad oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Kamran Yusif oğlu
Quliyeva Qızılgül Polad qızı
Quliyeva Şəlalə Şahvələt qızı
Quliyeva Yaqut Abbasqulu qızı
Quliyeva Zümrüd Vaqif qızı
Qurbanov Cahangir Qafar oğlu
Qurbanov Rövşən Oktay oğlu
Qurbanova Gülzar Qurban qızı
Qurbanova Pərvanə Yaqub qızı
Mehdiyev Məmməd Müşfiq oğlu
Mehdiyev Oqtay Nüsrət oğlu
Mehdiyev Rasəf Varaşil oğlu
Mehmandarov Mustafa Adil oğlu
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmmədli Şamil Kamil oğlu
Məmmədov Anar Ramiz oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Emil Əfrasiyab oğlu
Məmmədov Xəyyam Əhrar oğlu
Məmmədov Murad Məmməd oğlu
Məmmədova Fəridə Kamal qızı
Məmmədova Lalə Mirzəli qızı
Məmmədova Tamilla Nəzər qızı
Mikayılov Mikayıl Şamil oğlu
Mir-Qasım Ayan Oqtay qızı
Mirzəyev Akif Əziz oğlu
Mirzəyev Gülağası Ağa Hüseynoviç
Mirzəyev Rafiq İsmayıl oğlu
Mirzəyev Sucəddin Qiyas oğlu
Mirzəzadə Nicat Qərib oğlu
Muradov Yadigar Məmməd oğlu
Musayeva Şükufə İmran qızı
Mustafayev Mustafa Vaqif oğlu
Mustafayev Arzu Əhməd oğlu
Mürvətova Hüsniyyə Vaqif qızı
Nağıyev Elçin Nağı oğlu
Nəsirli Uğur Asif oğlu
Nəsirova Hicran Fətəli qızı
Ocaqverdiyeva Təranə Fikrət qızı
Oduşev Timur Vladislavoviç
Orucova Naidə Mülük qızı
Osmanov Fuad Tacəddin oğlu
Ömərov Gümrah Rza oğlu
Poladov Əkrəm Nicad oğlu
Rəcəbli Məmməd Qüdrət oğlu
Rəfiyeva Aidə Fazil qızı
Rəhimov Teymur Əsgər oğlu
Rəhimov Valeh İslam oğlu
Rəhmanov Rəhman Tofiq oğlu
Rüstəmov Nurlan İbrahim oğlu
Sadıqov Anar Babalı oğlu
Salahov Əbülfət Yusif oğlu
Salamov İbrahim Salam oğlu
Salmanov Paşa Həmdulla oğlu
Səfiyev Anar Qubat oğlu
Səlimli Mirbala Seyidəsgər oğlu
Səlimov Ruslan Xanbala oğlu
Səmədov Şükür Hacıbala oğlu
Süleymanov Süleyman İman oğlu
Süleymanova Elmira Süleyman qızı
Şahbazova Esmiralda Məmmədəli qızı
Şıxaliyev Elşən Telman oğlu
Şıxəliyev Ramin Tofiq oğlu
Şirinov Aslan Adil oğlu
Tağızadə Mahir Tahir oğlu
Terequlov Zaur Rəşid oğlu
Topalaşvili Naili Varnelovna
Vəliyeva Leyli Fətulla qızı
Vəliyeva Nigar Natiq qızı
Yusifova Təranə Əbülfəz qızı
Zaliyeva Mehriban Əskərali qızı
Zeynalov Azər Zeynalabdın oğlu
Zəki Mehriban Mürvət qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 may tarixli 117 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (I kitab), maddə 542) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2025-ci il*

# "Helikopter meydançalarının layihələndirilməsinə, tikintisinə və texniki göstəricilərinə dair digər Tələblər"in təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 151** **Bakı şəhəri, 8 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Helikopter meydançalarının layihələndirilməsinə, tikintisinə və texniki göstəricilərinə dair digər Tələblər" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələri üzrə minimum məbləğin həddinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 152** **Bakı şəhəri, 8 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 269 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə elektrik enerjisi istehsalı layihələri üzrə ümumi investisiyanın minimum məbləği 30000000,0 (otuz milyon) manat təsdiq edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 44 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 149** **Bakı şəhəri, 5 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 5 avqust tarixli 173 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə AzərbaycanRespublikasının Nazirlər Kabineti **qərara alır:**

"Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11fevral tarixli 44 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 307 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası"nın 2.1-ci bəndində "Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını məhvetmə komissiyası" sözləri "müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyalar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Nazir Ceyhun Bayramov türkmənistanlı həmkarı ilə telefonla danışıb



Mayın 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, xarici işlər naziri Rəşid Meredov ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirlər iki ölkə arasında mövcud gündəlik üzrə əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi ilə bağlı aktual məsələləri müzakirə ediblər. Nazirlər iki xalq arasında tarixən mövcud olan ənənəvi dostluq və qardaşlıq əlaqələrinin bundan sonra da Azərbaycan ilə Türkmənistan arasında tərəfdaşlıq münasibətləri zəminində daha da inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.

İki ölkə arasında əlaqələrin inkişafında dövlət başçıları səviyyəsində siyasi dialoqun, qarşılıqlı səfər mübadilələrinin, həmçinin Xarici İşlər nazirlikləri arasında məsləhətləşmələrin vacibliyi qeyd olunub.

Nazirlər həmçinin regional təhlükəsizlik, beynəlxalq təşkilatlar çərçivəsində, habelə Xəzər dənizi üzrə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Telefon danışığı zamanı, habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Heydər Əliyev şəxsiyyəti hər bir azərbaycanlı üçün müdriklik, əzmkarlıq və vətənə sədaqət rəmzidir

## Milli Məclisin "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusuna həsr olunmuş xüsusi iclası keçirilib

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, mayın 8-də parlamentin iclasını açan spiker Sahibə Qafarova bildirib ki, xüsusi iclas "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilir və onun Ümummilli Lider Heydər Əliyevin doğum günü ərəfəsində keçirilməsinin xüsusi əhəmiyyəti var.**






Spiker qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması ölkəmizin həyatında üç mühüm dönüş nöqtəsinin tarixi əhəmiyyətini ifadə edir. Müstəqil dövlətimizin ilk konstitusiyasının qəbul edilməsi, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının qələbələrlə başa çatdırılması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması xalqımızın taleyi ilə bağlı olan müstəsna əhəmiyyətli hadisələrdir.

Milli Məclisin Sədri deyib ki, müasir Azərbaycanın tarixi Ulu Öndər Heydər Əliyevin milli qurtuluşun və davamlı inkişafın təcəssümünə çevrilmiş fəaliyyəti ilə qırılmaz surətdə bağlıdır. Ulu Öndər xalq və vətən yolunda göstərdiyi misilsiz xidmətləri ilə öz adını Azərbaycan tarixinə qızıl hərflərlə yazmışdır. Heydər Əliyev şəxsiyyəti hər bir azərbaycanlı üçün müdriklik, əzmkarlıq və vətənə sədaqət rəmzidir. Onun ölməz ideyaları bugünkü və gələcək nəsillərin əməllərində yaşayır və daim yaşayacaq.

Çıxışında 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın mürəkkəb çağırışlar qarşısında qalmasına diqqət çəkən Sahibə Qafarova bildirib ki, dövlət idarəçiliyində yol verilən kobud səhvlər, həyatın bütün sahələrini bürüyən dərin böhran, Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın işğal edilməsi, milli həmrəyliyin pozulması, separatizm meyillərinin güclənməsi, vətəndaş müharibəsi təhlükəsinin yaranması müstəqil dövlətimizin varlığını ciddi təhlükə altına almışdı.

Spiker bildirib ki, məhz belə bir ağır şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin ali dövlət hakimiyyətinə qayıtması, Ali Sovetin sədri və 4 ay sonra xalqın yekdil iradəsi ilə prezident seçilməsi destruktiv proseslərin və hadisələrin qarşısını almağa, ölkədə vəziyyəti sabitləşdirməyə imkan verdi. Vurğulanıb ki, Heydər Əliyev millətin taleyi üçün məsuliyyəti üzərinə götürdü və sarsılmaz iradəsi, zəngin dövlətçilik təcrübəsi və siyasi nüfuzu sayəsində qardaş qırğınının qarşısını almağa, xalqı Azərbaycançılıq ideyası ətrafında birləşdirməyə, dövlət müstəqilliyimizi xilas etməyə nail oldu.

Qeyd olunub ki, Ulu Öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də onun rəhbərliyi ilə müstəqil dövlətimizin ilk konstitusiyasının hazırlanmasıdır. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş konstitusiyamız dünyanın ən demokratik qanunları ilə müqayisə oluna bilər. Azərbaycanın əsas qanunu ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun proqram sənədidir. Bu fikrin düzgünlüyü özünü ilk növbədə onda göstərir ki, dövlətimiz bütövlükdə konstitusiya əsasında qurulmuşdur və fəaliyyət göstərir.

Konstitusiyada hüquqi dövlətin əsas prinsiplərindən biri olan hakimiyyət bölgüsünün geniş əks etdirildiyini, qanunvericilik hakimiyyətinin Milli Məclis tərəfindən həyata keçirilməsinin təsbit olunduğunu söyləyən Milli Məclis Sədrinin sözlərinə görə, həm bu baxımdan, eyni zamanda Ulu Öndərin peşəkar qanunvericilik orqanının formalaşmasına verdiyi töhfələri nəzərə alaraq, biz qürurla söyləyirik ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu, konstitusiyamızın yaradıcısı olduğu kimi, bugünkü Azərbaycan parlamentinin də banisidir.

Spiker çıxışında deyib ki, ötən dövrdə xalqımız konstitusiyada bəyan edilən demokratiya, ədalət və qanunun aliliyi yolu ilə inamla addımlamışdır. Xüsusən, Ulu Öndərin başladığı işləri yeni tarixi şəraitdə layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası son 22 ildə böyük uğurlar, misilsiz və qürurverici qələbələr ilə dolu olan inkişaf yolu keçmişdir. Cənab Prezidentin xalqımızın və dövlətimizin bu günü və gələcəyi ilə bağlı strateji baxışının reallaşdırılması Azərbaycanı siyasi, iqtisadi və hərbi cəhətdən güclü bir dövlətə, Cənubi Qafqazın liderinə və beynəlxalq aləmdə söz sahibinə çevirmişdir.

Sahibə Qafarova Bakı-Tbilisi-Ceyhan və "Cənub qaz dəhlizi" kimi nəhəng layihələrin reallaşması ilə ölkəmizin Avrasiyanın önəmli energetika mərkəzinə çevrilməsindən söz açıb, infrastruktura, nəqliyyata, sənaye və kənd təsərrüfatına böyük sərmayələr qoyulduğunu, yoxsulluğun azaldılması, həyat səviyyəsinin yüksəldilməsi, sosial sahənin modernləşdirilməsi ilə bağlı genişmiqyaslı proqramların həyata keçirildiyini qeyd edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mühüm qlobal və regional təşəbbüs və layihələrin müəllifi və fəal iştirakçısı olduğunu deyən Milli Məclisin Sədri qeyd edib ki, ölkəmiz Qoşulmama Hərəkatında, digər beynəlxalq təşkilatlarda mövqelərini möhkəmləndirib, islam dünyası və türk birliyi ilə əlaqələrini genişləndirib. Vurğulanıb ki, Bakı beynəlxalq forumların və sammitlərin keçirildiyi bir məkana çevrilib.

Çıxışında dövlətimizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsinə toxunan Sahibə Qafarova Azərbaycanın 30 ilə yaxın müddətdə böyük ədalətsizlik ilə üz-üzə qalmasından danışıb. Bildirib ki, bu dövrdə şəhər və kəndlərimiz yer üzündən silinmiş, milli-mənəvi və tarixi mirasımız talan edilmiş, yüz minlərlə soydaşımız, əslində, bütün xalqımız məcburi köçkünlük taleyinin ağrı-acısını yaşamışdır. Bütün bu illər ərzində Azərbaycan problemin dinc yolla nizama salınmasına çalışmışdır. Bəzi qlobal oyunçuların laqeydliyinə və fəaliyyətsizliyinə baxmayaraq, dövlətimiz özünün haqlı mövqeyindən bir addım da geri çəkilməmişdir.

Spiker təəssüf hissi ilə qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası üçün göstərilən cəhdlər bir nəticə verməmişdi. Çünki ölkəmizin işğal edilmiş ərazilərinin aqibəti barəsində dünyanın böyük güclərinin başqa planları var idi.

O, bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə yaradılmış böyük potensial, güclü ordu və sarsılmaz milli birlik Ulu Öndərin müəllifi olduğu müasir dövlətçilik konsepsiyasının ən mühüm istiqamətlərindən birində möhtəşəm uğurlar əldə etməyə imkan verdi. Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti və Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzmi və rəşadəti, hərbi-texniki və mənəvi-psixoloji hazırlığı 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında bir günlük antiterror əməliyyatında tarixi qələbələri təmin etdi. Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu, dövlətimizin ərazi bütövlüyü və suverenliyi, tarixi ədalət bərpa olundu. Ümummilli Lider Heydər Əliyev tərəfindən başladılmış tarixi missiyanın layiqincə başa çatdırılması ölkəmizin bütün ərazisində konstitusiyamızın hüquqi qüvvəsini də bərpa etdi.

Spiker vurğulayıb ki, bunlar, sadəcə qələbələr deyildi, dağıntı mənzərələrini ümid rəmzinə çevirməyə qadir olan milli ruhun təntənəsi idi. Azərbaycan öz hüquqlarını bərqərar etmək üçün beynəlxalq hüquq çərçivəsində necə hərəkət etməyin lazım olduğu baxımından bütün dünyaya nümunə göstərdi.

Milli Məclisin Sədri deyib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəal iştirakı ilə azad Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Şəhər və kəndlər bərpa olunur, yollar çəkilir, müasir infrastruktur yaradılır, tarix və mədəniyyət abidələri bərpa olunur. Məcburi köçkün soydaşlarımız ata-baba torpaqlarına qaytarılır. Qalib xalqımız vandallar tərəfindən viran qoyulmuş yurd yerlərini gülüstana çevirərək qurucu xalq olduğunu da dünyaya nümayiş etdirir.

Spiker məmnunluqla qeyd edib ki, son 32 ildə həyata keçirilən dövlət quruculuğu proseslərində Azərbaycan parlamenti də mühüm rol oynayıb. Milli Məclis 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin 4 aylıq sədrliyi dövründə yaradılmış ənənələrinə sadiq qalaraq, eyni zamanda dövlət başçısı cənab İlham Əliyevin tövsiyyələrini nəzərə alaraq, suverenlik və milli maraqların qorunması sahəsində qarşıya qoyulan məqsədlərin əldə edilməsinə kömək göstərir, milli təhlükəsizlik məsələlərinin həllinə, konstitusiyada bəyan edilmiş prinsiplərin və dəyərlərin qorunmasına töhfə verir.

Çıxışının sonunda Sahibə Qafarova "Konstitusiya və Suverenlik İli"ndə uğurlarımızla yanaşı, gələcək barəsində düşüncələrini də bölüşüb. Spiker böyük və şərəfli bir tarixin varisi olan xalqımızın gələcəyə böyük ümidlərlə baxdığını vurğulayıb.

O, əminliklə söyləyib ki, Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti Qərbi Azərbaycandan qaçqın düşmüş soydaşlarımızın doğma yurdlarına qaytarılması kimi ümummilli məqsədi də gerçəyə çevirəcək və Azərbaycan davamlı inkişaf yolu ilə irəliləməkdə davam edərək yeni tarixi qələbələrə imza atacaq.

Sonra plenar iclasda ideya müəllifi Milli Məclisin Sədri Sahibə Qafarova olan "İlk Milli Konstitusiyamız və Suverenliyimiz" adlı sənədli film nümayiş etdirilib.

Parlament Aparatında hazırlanmış bu sənədli film Azərbaycan Respublikasının ilk konstitusiyasının qəbulunun 30 illiyinə, Vətən müharibəsində Azərbaycan xalqının Zəfərinin 5-ci ildönümünə, ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpasına həsr olunub.

Film deputatlar tərəfindən böyük maraqla izlənilib.

Sonra iclasda mövzu ilə bağlı deputatların çıxışları dinlənilib.

Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, Sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, komitə sədrləri Fazil Mustafa, Siyavuş Novruzov, Musa Quliyev, Şahin İsmayılov, Tahir Rzayev, Hicran Hüseynova, Zahid Oruc, Əli Hüseynli, deputatlar Aydın Hüseynov, Pərvin Kərimzadə, Bəhruz Məhərrəmov, Rizvan Nəbiyev, Azər Badamov, Nurlan Həsənov, Vüqar Bayramov, Elşən Musayev, Tural Gəncəliyev, İlham Məmmədov, Tahir Mirkişili, Kamal Cəfərov, Qüdrət Həsənquliyev, Jalə Əliyeva öz fikirlərini bölüşüblər.

Bildirilib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasında 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib. Milli dövlətçilik dəyərlərimizə, siyasi tariximizə ali ehtiramın təcəssümü olan bu qərar siyasi irsimizin, müstəqillik salnaməmizin, suverenlik mübarizəmizin, torpaqlarımızın azad edilməsi nəticəsində konstitusion hüquqlarımızın tam bərpasının dərindən öyrənilməsi və təbliği, bu istiqamətlərdə yeni hüquqi, siyasi, elmi araşdırmaların aparılması, müasir inkişaf mərhələsində qarşımızda dayanan ideoloji vəzifələrin müəyyən edilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Millət vəkilləri xalqımızın bu il müəllifi Ümummilli Lider Heydər Əliyev olan ilk milli konstitusiyamızın qəbul edilməsinin 30-cu ildönümünü qeyd etdiyini söyləyərək, bu ali sənədin Ulu Öndərin zəngin siyasi və dövlətçilik irsinin parlaq nümunələrindən biri olduğunu vurğulayıblar. Bildirilib ki, 12 noyabr 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyasında dövlətimizin siyasi sistemi, insan hüquq və azadlıqları, iqtisadi münasibətlər, sosial təminatlar kimi mühüm müddəalar öz əksini tapıb, habelə ölkəmizin bugünkü hərtərəfli inkişafı, dövlətimizin dünyada özünəlayiq yer tutması ilə bağlı məsələlər ehtiva olunub.

Deputatlar mayın 10-da Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünün tamam olduğunu deyərək, onun müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında müstəsna rolundan danışıblar. Bildirilib ki, ölkəmizdə hər il Heydər Əliyevin doğum gününün yüksək coşqu ilə qeyd edilməsi xalqımızın Ulu Öndərin misilsiz tarixi xidmətlərinə verdiyi yüksək dəyərin, hörmət və ehtiramın ifadəsidir.

Qeyd olunub ki, müstəqilliyimizin ilk illərində ölkənin məruz qaldığı hərbi təcavüz, Ermənistan-Azərbaycan münaqişəsinin ağır nəticələri fonunda, ölkədaxili gərgin proseslərdə xalqımızın yeganə ümid yeri məhz görkəmli dövlət və siyasi xadimi Heydər Əliyev olub. Vurğulanıb ki, belə bir mürəkkəb şəraitdə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Azərbaycanın müstəqilliyinin əbədi, dönməz və daimi olmasına, ölkədə sabitliyə, əmin-amanlığa, siyasi islahatlara, demokratikləşməyə, iqtisadi tərəqqiyə, sosial inkişafa nail olub.

Öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, Vətəninə və dövlətinə həsr etmiş Heydər Əliyevin hər zaman demokratik dəyərlərə, ədalət prinsiplərinə sadiq olduğu söylənilib. Qeyd olunub ki, xalqımızın tarix boyu arzuladığı milli dövlətçilik amalları məhz Heydər Əliyev dövründə gerçəkləşdirilərək müstəqil Azərbaycan dövləti qurulub. Dövlət müstəqilliyimizin bərpası bizə azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək beynəlxalq hüququn subyektinə çevrilmək və demokratik, hüquqi, dünyəvi dövlət qurmaq imkanı yaradıb.

Nəzərə çatdırılıb ki, daim xalqın mənafeyini düşünən Ulu Öndər həmişə azərbaycanlı olması ilə fəxr edib. Onun rəhbərliyi dövründə ölkəmizdə qanunçuluğun möhkəmlənməsi, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşası sayəsində Azərbaycan yüksək iqtisadi göstəricilərə nail olub. Ümummilli Liderin apardığı sosial-iqtisadi islahatlar nəticəsində ölkəmiz davamlı iqtisadi sabitlik və inkişaf dövrünə qədəm qoyub. Onun qurduğu müasir Azərbaycan dövlətinin daxili siyasətində, sosial ədalət, sosial rifah, sosial müdafiə xətti həmişə prioritet istiqamət kimi müəyyən olunur.

Çıxışlarda bu gün Ümummilli Liderin siyasi irsini, uzaqgörən müstəqil, demokratik dövlətçilik strategiyasını ləyaqətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən nailiyyətlər yüksək qiymətləndirilib. Qeyd olunub ki, dövlətin iqtisadi gücünün, siyasi nüfuzunun artırılması, beynəlxalq mövqeyinin möhkəmləndirilməsi, xalqın rifahının yaxşılaşdırılması ölkə rəhbərinin siyasətinin əsas istiqamətlərini təşkil edir.

Bu il Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış tarixi qələbəmizin 5-ci ildönümünün qeyd edildiyini deyən millət vəkilləri, dövlət başçısının müstəqil Azərbaycanın ilk Konstitusiyasında təsbit edilmiş ali niyyətləri öz gücü və qətiyyəti sayəsində reallığa çevirdiyini, bu gün Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğunu vurğulayıblar.

Deputatlar bildiriblər ki, dövlət başçısının Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında müvafiq sərəncamında da deyildiyi kimi: "Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".

Sonra iclasda deputat Bəhruz Məhərrəmov "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatını səsləndirib.

Bəyanat səsə qoyularaq qəbul edilib.

*(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc edilib).*

***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

## Baş nazir Əli Əsədov Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə görüşüb

**Mayın 8-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə dövlət səfərində olan Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin (VKP MK) Baş katibi To Lam ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüş əsnasında Baş nazir Əli Əsədov səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə VKP MK Baş katibi To Lam arasında aparılan danışıqların əhəmiyyətini qeyd edib. Bu danışıqların, həmçinin əməkdaşlığın müxtəlif sahələrini əhatə edən imzalanan sanballı ikitərəfli sənədlər paketinin iki dost ölkənin dövlətlərarası əlaqələri tarixində yeni səhifə açacağına əminlik ifadə olunub.

Vurğulanıb ki, Azərbaycan-Vyetnam münasibətləri çox qədim və zəngin ənənələrə malikdir.

İki ölkənin qarşılıqlı münasibətlərinin əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Vyetnamın birinci prezidenti Ho Şi Min tərəfindən qoyulub. Prezident Ho Şi Minin 1959-cu ildə Azərbaycana gəlməsi və Heydər Əliyevin 1983-cü ildə Vyetnama səfəri iki xalq arasında dostluğun başlanğıcını qoyub. Xüsusi olaraq qeyd edilib ki, məhz Heydər Əliyevin səfərindən sonra sovet rəhbərliyi Vyetnama iqtisadi və elmi-texniki yardım göstərib, minlərlə azərbaycanlı mütəxəssis isə bu ölkənin infrastrukturunun və neft sənayesinin postmüharibə dövründə bərpasına kömək etmək üçün Vyetnama göndərilib.

Vurğulanıb ki, sovet dövründə 5 minə yaxın vyetnamlı Azərbaycanda təhsil alıb.

To Lamın səfəri zamanı Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Ho Şi Minə həsr olunmuş sərginin və onun büstünün açılışının əhəmiyyəti qeyd edilib.

Bildirilib ki, Heydər Əliyev və Ho Şi Minin miras qoyduqları irsi davam etdirərək, bu gün hər iki ölkənin rəhbərliyi dostluq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində siyasi iradə nümayiş etdirir.

Xüsusilə Azərbaycan Prezidenti İlham Əliyevin 2014-cü ildə Vyetnama dövlət səfəri əlaqələrin inkişafına və etimada əsaslanan əməkdaşlığın səviyyəsinin yüksəldilməsinə mühüm töhfə verib.

Azərbaycan ilə Vyetnam arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında dialoqun və səmərəli qarşılıqlı fəaliyyətin səviyyəsi yüksək qiymətləndirilib. Qeyd olunub ki, hakim partiyalar həmişə dostluq əlaqələri saxlayıb və iki ölkə arasında qarşılıqlı etimadın möhkəmləndirilməsində mühüm rol oynayıblar.

Görüş zamanı Azərbaycan-Vyetnam əməkdaşlığının müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, investisiya, neft-qaz, mədəni-humanitar və başqa istiqamətlərdə gələcək inkişafı məsələləri müzakirə edilib.

Azərbaycan-Vyetnam hökumətlərarası birgə komissiyasının növbəti iclasının Hanoyda keçirilməsi haqda razılıq əldə olunub.

Vyetnam Kommunist Partiyasının Baş katibi To Lam Vyetnam Baş nazirinin adından Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovu Vyetnama səfərə dəvət edib.

## Azərbaycanın beynəlxalq arenada nüfuzunun artması Vyetnamda diqqətlə izlənilir

### Milli Məclisin Sədri Sahibə Qafarova Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə görüşüb

**Mayın 8-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı və onun başçılıq etdiyi nümayəndə heyətini Milli Məclisdə salamlamaqdan məmnunluğunu diqqətə çatdıran spiker Sahibə Qafarova bu səfərin ölkələrimiz və xalqlarımız arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Milli Məclisin Sədri deyib ki, əsası ötən əsrdə xalqımızın Ümummilli Lideri Heydər Əliyev və Vyetnam xalqının dahi oğlu Ho Şi Min tərəfindən qoyulmuş dostluq və əməkdaşlıq əlaqələri Azərbaycan müstəqillik əldə etdikdən sonra uğurla davam edir. Bu əlaqələrin inkişafında yüksəksəviyyəli səfərlərin və görüşlərin müstəsna rol oynadığını deyən spiker Sahibə Qafarova dövlət başçılarının qarşılıqlı səfərlərinin bu münasibətlərin dinamikasını müəyyənləşdirdiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri mayın 7-də imzalanmış "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ın və digər mühüm sənədlərin əhəmiyyətini qeyd edib, Prezident İlham Əliyevlə aparılmış müzakirələrin tezliklə öz bəhrəsini verəcəyinə əminliyini bildirib.

Söhbət zamanı ölkələrimiz arasında münasibətlərə mühüm töhfə verən hakim partiyaların - Yeni Azərbaycan Partiyasının və Vyetnam Kommunist Partiyasının rolu da xüsusi qeyd edilib.

Spiker diqqətə çatdırıb ki, ölkələrimizin beynəlxalq təşkilatlar, xüsusilə BMT və Qoşulmama Hərəkatı çərçivəsində konstruktiv əməkdaşlığı, Vyetnamın ədalətli mövqeyi və ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə verdiyi dəstək Azərbaycanda yüksək qiymətləndirilir.

İki ölkə arasında münasibətlərin inkişafında parlamentlərin rolundan danışan spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan parlamenti olaraq biz parlamentlərarası əlaqələrimizin inkişafında maraqlıyıq və bunun üçün yaxşı imkanlar var. Spiker parlament sədrləri və deputatlar səviyyəsində qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb, parlament komitələri arasında da əlaqələrin inkişaf etdirilməsinin vacibliyindən danışıb. Milli Məclisin Sədri bu sahədə hər iki parlamentdə fəaliyyət göstərən dostluq qruplarının əhəmiyyətini qeyd edib, qarşılıqlı səfərlərin və görüşlərin əməkdaşlığın inkişafına mühüm təkan verdiyini vurğulayıb. Spiker Sahibə Qafarova bildirib ki, Parlamentlərarası İttifaq, Asiya Parlament Assambleyası kimi beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin daha da dərinləşdirilməsi üçün yaxşı imkanlar var. Spiker mühüm platformalardan biri olan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində də Vyetnam parlamentarilərinin daha fəal iştirak edəcəklərinə inamını ifadə edib.

Azərbaycana səfərindən məmnunluğunu bildirən Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam Vyetnam Milli Assambleyası Sədrinin salamlarını çatdırıb və onun adından spiker Sahibə Qafarovanı Vyetnama səfərə dəvət edib.

Söhbət zamanı qonaq ölkəmizə dövlət səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşünə, aparılmış müzakirələrə və imzalanmış ikitərəfli sənədlərə dair təəssüratlarını bölüşüb. O, Azərbaycanın beynəlxalq arenada artan nüfuzunun və bölgədə gedən proseslərin Vyetnamda diqqətlə izlənildiyini qeyd edib. Qonaq bildirib ki, bu səfər çərçivəsində imzalanmış sənədlər xalqlarımızın mənafeyinə xidmət edir və münasibətlərimizi yeni səviyyəyə qaldırır.

Qonaq əsası Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev və Vyetnam xalqının dahi oğlu Ho Şi Min tərəfindən qoyulmuş qarşılıqlı əlaqələrimizin bu gün uğurla inkişaf etdirilməsindən məmnunluğunu bildirib.

Dövlətlərarası münasibətlərdə parlamentlərin rolunu yüksək qiymətləndirən Baş katib To Lam qarşılıqlı səfərlərin intensivliyinin artırılması, parlament komitələri arasında informasiya və təcrübə mübadiləsi, qanunvericilik sahəsində əməkdaşlıq, imzalanmış və ratifikasiya olunmuş ikitərəfli sənədlərin icrasına nəzarətin artırılması, ASEAN Parlament Assambleyası və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsi barədə fikirlərini bölüşüb.

Qonağın fikirlərinə münasibət bildirən Milli Məclisin Sədri Sahibə Qafarova onun da salamlarını Vyetnam Milli Assambleyasının Sədrinə çatdırmağı xahiş edib və həmkarını ölkəmizə səfərə dəvət edib. Spiker Milli Məclisin həmişə qarşılıqlı əməkdaşlığın inkişafına hazır olduğunu diqqətə çatdırıb və bu əməkdaşlığın bundan sonra daha da inkişaf edəcəyinə inamını bildirib. Spiker qonağın cənab Prezidentlə görüşü zamanı iki ölkə arasındakı əlaqələrin inkişafı ilə bağlı müəyyən edilmiş istiqamətlərin də parlamentlər tərəfindən dəstəklənməsinə çağırış edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər mövzularda da müzakirələr aparılıb.

Görüşdən sonra Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam Milli Məclisin Xatirə kitabını imzalayıb.

*"Azərbaycan"*

## ADNSU-da Vyetnamın ilk prezidenti Ho Şi Minin 135 illiyinə həsr edilmiş Memorial otağın açılışı olub





**Mayın 8-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Vyetnamın görkəmli siyasi xadimi, ilk prezidenti Ho Şi Minin anadan olmasının 135 illiyinə həsr olunmuş və Vyetnam-Azərbaycan əməkdaşlığını əks etdirən Memorial otağın açılış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan ilə Vyetnam arasında tarixi dostluq münasibətlərinin və enerji sahəsində əməkdaşlığın rəmzi olaraq təşkil olunub. Mərasimdə energetika naziri Pərviz Şahbazov, elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru dosent Rüfət Əzizov, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, SOCAR-ın vitse-prezidenti Kənan Nəcəfov, Energetika Nazirliyinin Aparat rəhbəri Zaur Məmmədov, həmçinin hər iki ölkənin dövlət və hökumət rəsmiləri, elm və təhsil sahəsinin nümayəndələri, eləcə də ali təhsil müəssisəsinin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam, Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov, "PetroVietnam" şirkətinin Müşahidə Şurasının sədri Le Mahn Hung çıxış edərək Azərbaycan-Vyetnam münasibətlərinin tarixi əsaslarından, enerji sahəsindəki birgə layihələrdən və Ho Şi Minin siyasi irsinin bu münasibətlərə təsirindən danışıblar.

Çıxışlar zamanı Ho Şi Minin xalqlar arasında dostluğun və həmrəyliyin təşəkkülündə oynadığı rol vurğulanıb. Ardınca Memorial otağın açılışı olub. Memorial otağın ekspozisiyasında Ho Şi Minin həyat və fəaliyyətini əks etdirən materiallar, eləcə də Azərbaycan ilə Vyetnam arasında neft və qaz sənayesində əməkdaşlığa dair tarixi sənədlər yer alıb.

Tədbir çərçivəsində otağa baxış keçirilib, nümayəndələr birgə xatirə şəkli çəkdiriblər. Sonda tədbirin əhəmiyyəti vurğulanaraq, belə təşəbbüslərin iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verdiyi bildirilib.

## Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Şəhidlər xiyabanını ziyarət edib

**Ölkəmizdə dövlət səfərində olan Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam mayın 8-də Şəhidlər xiyabanını ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, Baş katib To Lam Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## Azərbaycanın və Vyetnamın xarici işlər nazirləri beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər

**Mayın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Vyetnamın Baş nazirinin müavini, xarici işlər naziri Bui Tan Son ilə görüşüb.**

Azərbaycanın Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan və Vyetnam arasında strateji tərəfdaşlığın inkişaf perspektivləri, ikitərəfli və çoxtərəfli əməkdaşlığın gələcəyi, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Ölkələrimiz arasında qarşılıqlı səfər və təmasların, xüsusilə Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfərinin, habelə sözügedən səfər çərçivəsində Azərbaycan ilə Vyetnam arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatın qəbul edilməsinin əməkdaşlıq gündəliyimizdə müstəsna əhəmiyyəti vurğulanıb.

İqtisadiyyat, ticarət, müdafiə sənayesi, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiyalar, humanitar sahələr üzrə əməkdaşlığın geniş perspektivlərinin mövcudluğu qeyd edilib, bu imkanlardan istifadənin stimullaşdırılması üçün bir sıra mexanizmlər, o cümlədən siyasi məsləhətləşmələr, habelə Hökumətlərarası Komissiya kimi platformalardan istifadənin zəruriliyi qeyd edilib.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub, qarşılıqlı dəstək və həmrəyliyin davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibinin Azərbaycana səfəri başa çatıb



**Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycan Respublikasına dövlət səfəri mayın 8-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamı və xanımı No Fon Lini hava limanında Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola salıblar.

# "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar

## Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi mühüm siyasi əhəmiyyət və rəmzi məna daşımaqla, dövlətin hüquqi əsasları ilə ərazi bütövlüyü və suverenliyi arasında qırılmaz bağlar olduğunu göstərir. Bu sərəncam xalqımızın və dövlətimizin Konstitusiya və suverenlik prinsiplərinə sadiqliyini bir daha təsdiq edir, ölkəmizin öz dəyərlərinə və mirasına, keçmişin nailiyyətlərinə əsaslanaraq qlobal çağırışlara cavab vermək əzmini nümayiş etdirir.

Azərbaycan Respublikasının Milli Məclisi son 32 ildə Ümummilli Lider Heydər Əliyevin dövlətçilik konsepsiyasının həyata keçirilməsi yolunda əldə edilmiş uğurların, xüsusən, ilk Konstitusiyamızın qəbul edilməsinin, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunmasının tarixi əhəmiyyətini qeyd edir.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası müstəqil inkişaf yoluna qədəm qoyduqdan sonra dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində, milli təhlükəsizliyinqorunmasında yol verilən kobud səhvlər ölkəni dərin siyasi, iqtisadi və hərbi böhran vəziyyətinə salmışdı. Ermənistanın silahlı təcavüzünün qarşısını almağa qadir olan nizami ordunun qurulmaması Azərbaycan ərazilərinin işğalının genişlənməsinə şərait yaradır, yüz minlərlə soydaşımızın yurd-yuvasından didərgin düşməsinə səbəb olurdu. Üstəlik, ölkənin müxtəlif bölgələrində separatizm meyilləri baş qaldırmış, real vətəndaş müharibəsi təhlükəsi törənmişdi.

1993-cü il iyunun 15-də dünya miqyaslı siyasi və dövlət xadimi, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xalqın təkidli tələbi ilə ali dövlət hakimiyyətinə qayıdışı milli dövlətin varlığı üçün təhdid yaradan problemlərin aradan qaldırılmasında, sabitliyin və hüquq qaydasının təmin edilməsində, Azərbaycanın davamlı inkişaf yoluna çıxarılmasında həlledici rol oynamışdır. Xalqımız müstəqil dövlətini qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı Heydər Əliyevin xilaskarlıq və quruculuq missiyası sayəsində reallaşdıra bilmişdir.

Ulu Öndərin strateji təfəkkürü, siyasi və dövlətçilik məharəti milli birliyi və həmrəyliyi təmin etməyə, siyasi-hüquqi sistemin sarsılmaz təməlini qurmağa, peşəkar dövlət hakimiyyəti institutlarını formalaşdırmağa və genişmiqyaslı siyasi, iqtisadi və hüquq islahatlarını həyata keçirməyə imkan verdi. Onun rəhbərlik etdiyi komissiya tərəfindən müstəqil dövlətimizin ilk Konstitusiyasının hazırlanması və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi müasir Azərbaycanın tarixində taleyüklü hadisələrdən biridir. Ulu Öndərin siyasi fəlsəfəsini əks etdirən Konstitusiya hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun əsaslarını müəyyən etmiş, qanunun aliliyi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının üstünlüyü prinsiplərini bərqərar etmiş, dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin sarsılmazlığını bəyan etmişdir. Əsas qanunumuz Azərbaycanın modernləşdirilməsinə yol açaraq milli tərəqqinin möhkəm bünövrəsini yaratmışdır.

Ötən 22 ilə yaxın dövrdə Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu XXI əsrin çağırışlarına uyğunlaşdıraraq, yaradıcı surətdə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz siyasi və hərbi cəhətdən güclü, iqtisadi cəhətdən dayanıqlı bir dövlətə çevrilmişdir. Həyata keçirilən dövlət siyasətinin mərkəzində ölkənin dinamik inkişafının təmin olunması, müstəqilliyin möhkəmləndirilməsi, ərazi bütövlüyünün və suverenliyin bərpa edilməsi amalı dayanmışdır.

Ardıcıl siyasi-hüquqi islahatlar yolu ilə daxili sabitlik, qanunun aliliyi və demokratik təsisatların inkişafı təmin edilmişdir. Dövlət idarəçiliyi modernləşdirilmiş, hakimiyyət orqanlarının fəaliyyəti təkmilləşdirilmiş, rəqəmsal platformalar və hesabatlılıq mexanizmləri tətbiq edilmişdir.

Azərbaycan Respublikası beynəlxalq aləmdə etibarlı tərəfdaş və sözünün sahibi olan bir dövlət kimi tanınır. Dünyanın qüdrətli dövlətləri və təşkilatları ilə münasibətlərimiz daha da möhkəmlənmişdir.

Bu gün Azərbaycan öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatında əldə edilən möhtəşəm qələbələr milli tariximizin ən şanlı səhifələrini təşkil edir. Qarabağın və Şərqi Zəngəzurun 30 illik işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Cənubi Qafqaz bölgəsinin geosiyasi vəziyyətini həmişəlik dəyişdirmiş, Azərbaycanın qarşısında yeni perspektivlər açmışdır.

İki əsrə yaxın dövrdə xalqımıza qarşı düşmənçilik siyasəti yeridən erməni şovinizminə və ekspansionizminə endirilən "dəmir yumruq" Azərbaycanın sarsılmaz milli birliyini və həmrəyliyini nümayiş etdirmişdir. Tarixi ədalətin bərqərar edilməsi və ölkə ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi haqqında Konstitusiya müddəasının həyata keçirilməsi dövlətçilik tariximizin ən mühüm dövrlərindən birinə yekun vurmuşdur.

Bu gün Azərbaycan öz inkişafının yeni quruculuq dövrünə qədəm qoymuşdur. Məcburi köçkünlərin ata-baba yurdlarına dönməsini nəzərdə tutan azad edilmiş ərazilərə böyük qayıdış ölkəmizin 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu məqsədlə ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsinə, işğal dövründə dağıdılmış şəhər və kəndlərin yenidən inşa edilməsinə, müasir yaşayış, istehsal, nəqliyyat və xidmət infrastrukturunun qurulmasına, iqtisadi fəallığın canlandırılmasına dair genişmiqyaslı layihələr həyata keçirilir.

İnamla söyləmək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkənin dinamik iqtisadi inkişafının təmin edilməsinə, dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə, milli maraqların qorunmasına, milli təhlükəsizliyin, müdafiə qabiliyyətinin artırılmasına yönələn strategiyası sayəsində Azərbaycan dövləti qarşıdakı illərdə yeni böyük uğurlara imza atacaqdır. Konstitusiya, dövlət müstəqilliyi və suverenlik prinsiplərinə həmişə sadiq olan Milli Məclis Ulu Öndər Heydər Əliyev tərəfindən başlanmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən tarixi missiyanı qanunvericilik səviyyəsində bundan sonra da fəal surətdə dəstəkləyəcəyini bəyan edir. Parlament yeni çağırışlar və imkanlar şəraitində ölkənin bütün vətəndaşlarını ümumi dəyərlər və gələcəyə birgə baxış əsasında daha sıx birləşməyə səsləyir.

*(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 8 may tarixli xüsusi iclasında qəbul edilmişdir).*

# Bakı şəhər prokurorluğunun yeni korpusunun açılışı və Ulu Öndər Heydər Əliyevin 102-ci ildönümü münasibətilə tədbir keçirilib

Mayın 8-də Bakı şəhər prokurorluğunun inzibati binasının yeni korpusunun açılışı və Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə tədbir keçirilib.




Tədbirə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Milli Məclisin komitə sədri, deputatlar, Baş prokurorluğun rəhbərliyi və prokurorluq əməkdaşları, habelə digər hüquq-mühafizə orqanlarının nümayəndələri və jurnalistlər qatılıblar.

Əvvəlcə mərasim iştirakçıları binanın foyesində yerləşən Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq onun xatirəsini ehtiramla yad ediblər.

Yeni inşa edilmiş korpusla tanış olan iştirakçılara bildirilib ki, bina prokurorluq əməkdaşlarının peşəkar fəaliyyətinin daha səmərəli təşkili, iş proseslərinin effektivliyinin artırılması və vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə müasir standartlara tam cavab verən infrastrukturla təmin olunub.

Binada əməkdaşların rahat və funksional iş şəraiti üçün bütün zəruri texniki avadanlıqlarla təchiz olunmuş xidməti otaqlar, habelə 130 nəfərlik akt zalı, yeməkxana yaradılıb, eyni zamanda bina enerji səmərəliliyi və təhlükəsizlik baxımından da ən son tələblərə uyğun layihələndirilib.

Daha sonra yeni akt zalında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbir baş tutub.

Ulu Öndərin əziz xatirəsi yad edilərək Azərbaycan Respublikasının Dövlət Himni təntənəli şəkildə səsləndirildikdən sonra açılış nitqi ilə baş prokuror Kamran Əliyev çıxış edib.

Baş prokuror Kamran Əliyev, istifadəyə verilmiş akt zalında təşkil edilən ilk tədbirin, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edildiyini qeyd edib. O, Ulu Öndər Heydər Əliyevin şəxsiyyətinin yalnız siyasətçi olaraq deyil, bir xalqın taleyini dəyişən və dövlətin memarı olan bir lider kimi xatırlanmasının əhəmiyyətini vurğulayıb. Baş prokuror Heydər Əliyevin XX əsrdə Azərbaycanı parçalanmaqdan, yox olmaqdan və dövlətçiliyimizi dağılmaqdan xilas edərək, ölkəni hüquqi, demokratik və müstəqil dövlət kimi yenidən inşa etdiyini bildirib.

Baş prokuror bildirib ki, ölkə başçısının 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi dövlətçiliyimizin əsas sütunlarının bir daha təhlil edilməsi və mənimsənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd edilib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müstəqil dövlətçiliyimizin hüquqi əsaslarını yaradıb və bu sənədin hazırlanmasında Ulu Öndərin müstəsna xidmətləri olub.

Baş prokuror bildirib ki, Ümummilli Lider Heydər Əliyevin dövlətçiliyimizin və konstitusiya quruculuğunun banisi kimi rolu əvəzsizdir. Vurğulanıb ki, dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycan müstəqilliyini qoruyub saxlayaraq hüquqi dövlətin təməlini möhkəmləndirib, Prezident İlham Əliyevin rəhbərliyi altında isə dövlət suverenliyi tam təmin edilərək ərazi bütövlüyü bərpa olunub.

Baş prokuror, həmçinin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquq-mühafizə orqanlarının inkişafı və müasirləşdirilməsi istiqamətində görülən işlərdən bəhs edib. O, istifadəyə verilən yeni korpusun müasir şəraitinin Bakı şəhər prokurorluğunun fəaliyyətinin daha da səmərəli və məhsuldar olmasına töhfə verəcəyini vurğulayıb.

Yeni inzibati binanın açılışı münasibətilə baş prokuror, dövlət başçısına prokurorluq əməkdaşları adından dərin təşəkkürünü bildirərək, Prezident İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi diqqət və qayğının nəticəsində bu cür müasir infrastrukturun təmin olunduğunu qeyd edib. O, yeni şəraitin peşəkarlığın və iş potensialının artırılmasına, habelə vətəndaş məmnunluğunun təmin olunmasında mühüm irəliləyişlərə səbəb olacağını vurğulayıb.

Daha sonra çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Bakı şəhər prokuroru Elşən Abbasov Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafındakı rolundan danışıblar.

Eldar Əzizov çıxışında Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafındakı əvəzsiz xidmətlərindən bəhs edib. O, Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin müstəqilliyinin möhkəmləndirildiyini, dövlətçiliyin əsaslarının qoyulduğunu və hüquqi dövlət quruculuğunun təməlinin atıldığını vurğulayıb.

Bakı şəhər prokuroru Elşən Abbasov isə çıxışında Ulu Öndərin hüquqi dövlət quruculuğundakı rolunu qeyd edib. O, Heydər Əliyevin Azərbaycanın hüquqi, demokratik və müstəqil dövlətə çevirmək üçün atdığı addımların əhəmiyyətini vurğulayıb.

Tədbirdə çıxış edən Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin sədri Sadiq Qurbanov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquqi islahatların və dövlətin inkişafı istiqamətində atılan addımların Ulu Öndərin ideyalarının davamı olduğunu bildirib. O bu islahatların ölkənin hüquqi sisteminin gücləndirilməsinə və vətəndaşların hüquqlarının qorunmasına xidmət etdiyini qeyd edib. Sadiq Qurbanov çıxışında Heydər Əliyevin Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra, ölkənin dövlətçilik təməllərini möhkəmləndirərək, milli maraqları hər zaman ön planda tutduğunu bildirib. Bundan başqa o, Heydər Əliyevin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün apardığı məqsədyönlü siyasətin, həm daxili, həm də xarici mühitdə ölkənin gücünü və təsirini artırmağa xidmət etdiyini qeyd edib.

Daha sonra "Xalqın Adamı" adlı sənədli film nümayiş olunub.

Sonda xatirə şəkli çəkilib.

# "Ümummilli Lider Heydər Əliyev - tarix yazan və yaradan Dahi Şəxsiyyət" adlı konfrans təşkil olunub





"Konstitusiya və Suverenlik İli" çərçivəsində Nizami Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının birgə təşəbbüsü ilə "Ümummilli Lider Heydər Əliyev - tarix yazan və yaradan Dahi Şəxsiyyət" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin büstü önünə əklil və güllər qoyaraq əziz xatirəsini dərin ehtiramla yad edib, Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotosərgi ilə tanış olublar.

Dövlət himninin səslənməsi ilə başlayan tədbirdə Ulu Öndər Heydər Əliyevin, eləcə də ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videofilm nümayiş olunub.

Konfransda Milli Məclis sədrinin birinci müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini Əli Əhmədov, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova və Milli Məclisin deputatı Könül Nurullayeva çıxış ediblər.

Qeyd olunub ki, dahi Heydər Əliyev Azərbaycan xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Ümummilli Lider Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan müdrik Heydər Əliyevin həyat amalının təntənəsidir.

Ulu Öndərin 34 illik fəaliyyəti tariximizin şanlı səhifəsi, Azərbaycanın inkişaf və tərəqqi salnaməsi, hər anı böyük uğurlar və nailiyyətlərlə ölçülən təkrarolunmaz siyasi məktəbdir. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın ən yeni tarixini yazıb, müstəqil Azərbaycan dövləti qısa zaman kəsiyində dünyanın ən sürətlə inkişaf edən dövlətinə çevrilib. Bu möcüzənin yaradıcısı olan bütün dövrlərin ən böyük Azərbaycanlısı öz xalqının xoşbəxtliyi və firavanlığı uğrunda ömrünün son anlarına qədər yorulmadan çalışıb. Bu müqəddəs mübarizədən şərəflə qalib ayrılan Ulu Öndər xalqının Ümummilli Lideri olaraq hər bir azərbaycanlının qəlbində sonsuz Heydər Əliyev sevgisini yaratdı. Xüsusilə vurğulanıb ki, bu gün Ulu Öndər Heydər Əliyevin müdrik siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin yüksək intellekti, uzaqgörən siyasəti və fədakar fəaliyyəti sayəsində Azərbaycan özünün ən qüdrətli və inkişaf etmiş dövrünü yaşayır. Qalib və nüfuzlu dövlət kimi öz sözünü deyən Azərbaycan dünyaya Günəş kimi parlayır və beynəlxalq arenada yeni zirvələrə doğru mətin addımlarla irəliləyir.

Tarix yazan və yaradan dahi şəxsiyyətin - Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Hələ sağlığında millətin məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaq.

# Azərbaycan Respublikası Prokurorluğunun nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edib

2025-ci ilin 6-7 may tarixlərində Səudiyyə Ərəbistanı Krallığı və Maldiv Respublikasının birgə təşkilatçılığı ilə Maldiv Respublikasında "Turizm sektorunda korrupsiyaya qarşı mübarizə və şəffaflığın gücləndirilməsi" mövzusunda beynəlxalq tədbir keçirilmişdir.



Tədbirdə Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizi təmsil etmişdir.

Forumda BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (UNODC) İcraçı direktoru, İslam Əməkdaşlıq Təşkilatının Baş Katibi, 40-dan artıq ölkənin və 10-dan çox beynəlxalq təşkilatın rəhbər şəxsləri də daxil olmaqla 170-dən çox nümayəndə iştirak etmişdir.

İclas çərçivəsində müxtəlif ölkələrdə turizm sektorunda rast gəlinən korrupsiya halları, bu sahədə risklərin erkən müəyyən olunması və qarşısının alınması yolları müzakirə edilmiş, aidiyyəti qurumların ekspertləri bu sahədəki çətinliklər və uğurlu təcrübələri bölüşmüşlər. Sessiyalarda etik davranışın təmin olunması üçün institusional çərçivələrin möhkəmləndirilməsi və səmərəli mexanizmlərin tətbiqi zərurəti vurğulanmış, turizm sektorunun transmilli xarakterini nəzərə alaraq beynəlxalq əməkdaşlığın əhəmiyyəti önə çəkilmişdir.

Həmçinin, korrupsiyaya qarşı mübarizədə mövcud alət və mexanizmlər təqdim olunmuş, BMT tərəfindən "Korrupsiyanın Ölçülməsi üzrə Qlobal Təşəbbüs" layihəsi çərçivəsində ölkələrin bu sahədəki irəliləyişlərinin qiymətləndirilməsi və siyasət tövsiyələrinin hazırlanmasına yönəlmiş yanaşmalar iştirakçılara təqdim edilmişdir.

Tədbirdə çıxış edən nümayəndə heyətinin rəhbəri Nazim Rəcəbov ölkəmizdə turizm sahəsində son illərdə həyata keçirilmiş islahatlar, beynəlxalq əməkdaşlıq tədbirləri, müşahidə olunan korrupsiya hüquqpozmaları və bu hallarla bağlı Baş İdarədə aparılmış ibtidai araşdırmaların xüsusiyyətləri barədə məlumat vermişdir.

O, həmçinin korrupsiya risklərinin müəyyənləşdirilməsi və idarə edilməsi mexanizmləri, eləcə də 2022-2026-cı illəri əhatə edən "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair Milli Fəaliyyət Planı" çərçivəsində görülmüş preventiv tədbirlər haqqında geniş təqdimatla çıxış etmişdir.

Tədbir çərçivəsində Nazim Rəcəbov Səudiyyə Ərəbistanının Korrupsiyaya qarşı Nəzarət və Antikorrupsiya Qurumu, Malayziya Antikorrupsiya Komissiyası, Maldiv Respublikasının Korrupsiyaya qarşı Mübarizə Komissiyası və Çin Xalq Respublikasının Honkonq Xüsusi İnzibati Bölgəsinin Korrupsiyaya qarşı Müstəqil Komissiyasından olan həmkarları ilə ikitərəfli görüşlər keçirmişdir.

Görüşlərdə hüquqi əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı maraq doğuran məsələlər və gələcək əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılmışdır.

# Azərbaycanın xarici siyasətinin uğurları

Azərbaycanın və Vyetnamın qəbul etdikləri Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatla ölkələrimizin bir-birilə əlaqələri daha yüksək pilləyə qalxır. Bunun üçün bir çox sahədə, o cümlədən iqtisadiyyatda böyük potensial var. Odur ki, ticarət, energetika, nəqliyyat və digər istiqamətlər üzrə əməkdaşlığı inkişaf etdirmək üçün geniş üfüqlər açılır.



## Energetika, texnologiya, innovasiya və rəqəmsal inkişaf...

### Azərbaycan və Vyetnam bu sahələr üzrə də əməkdaşlıq edəcək

Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri çərçivəsində imzalanan sənədlər də bunu göstərir. Həmin sənədlər sırasında iki ölkənin energetika sahəsində əməkdaşlığı genişləndirilməsini hədəfləyənlər də diqqət çəkir. Bunlardan biri "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Sənaye və Ticarət Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"dur. Digər bir Anlaşma Memorandumu isə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Sənaye - Enerji Qrupu ("PetroVietnam") arasında imzalanıb. Energetika sahəsinə aid daha bir sənəd isə "SOCAR Trading Singapore PTE LTD" ilə "Binh Son Refining and PetrochemicaI JSC" arasında imzalanmış Anlaşma Memorandumudur.

Elm, texnologiya, innovasiya və rəqəmsal inkişaf sahələrində də əməkdaşlıq genişlənəcək. Bu, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Elm və Texnologiya Nazirliyi arasında Anlaşma Memorandumuna əsasən həyata keçiriləcək.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Vyetnam Sosialist Respublikasının Milli Sahibkarlıq Assosiasiyası (VİNEN) arasında imzalanan Anlaşma Memorandumu isə Birgə Biznes Şurasının yaradılmasını nəzərdə tutur.

Məlum olduğu kimi, mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam mətbuata bəyanatlarla çıxış ediblər. Dövlətimizin başçısı öz bəyanatında demişdir: "Energetika sahəsində imzalanmış sənədlər və apardığımız müzakirələr deməyə əsas verir ki, biz yaxın gələcəkdə bu sahədə əməkdaşlığımızı daha da genişləndirəcəyik. Bu gün bu əməkdaşlıq var və daha çox ticarət əməkdaşlığı formasında aparılır. Ancaq qarşılıqlı sərmayə qoyuluşu məsələləri də müzakirə edildi. Həm Vyetnam şirkətlərinin Azərbaycana, həm də Azərbaycanın neft şirkətinin Vyetnama sərmayə qoyuluşu məsələləri müzakirə olundu və göstəriş verildi ki, aidiyyəti qurumlar bu məsələlərlə bağlı konkret addımlar atsınlar".

Vyetnamın dövlət başçısının ölkəmizə səfəri çərçivəsində iqtisadiyyatın bu və digər sahələrində əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr aparılıb. Prezident İlham Əliyev iqtisadi-ticari istiqamət üzrə ticarət dövriyyəsinin dinamikasının Azərbaycanın Vyetnama əsasən neft satışından ibarət olduğu üçün təəssüfləndiyini bildirib: "Neft satışı yüksək səviyyədə olanda ticarət dövriyyəsi artır, azalanda azalır. Əlbəttə, biz ticarət dövriyyəmizi daha da balanslaşdırılmış formada görmək istərdik və bunun üçün, təbii ki, qarşılıqlı informasiya mübadiləsi lazımdır. Hansı layihələr ölkələrimizdə həyata keçirilir, investisiya imkanları nədən ibarətdir, qaydalar, qanunvericilik bazası, vergi inzibatçılığı - bütün bu məsələlər biznes dairələri üçün gərək aydın olsun. Belə olan halda əminəm ki, ticarət dövriyyəsi təkcə neft amilindən asılı olmayacaq".

Bu gün daha çox ticarət əməkdaşlığı formasında aparılan Azərbaycan-Vyetnam iqtisadi əlaqələrinin şaxələndirilməsi üçün qarşılıqlı sərmayə qoyuluşu məsələləri də önə çəkilib. Həm Vyetnam şirkətlərinin Azərbaycana, həm də Azərbaycanın neft şirkətinin Vyetnama sərmayə qoyuluşu məsələləri müzakirə olunub və aidiyyəti qurumların bu məsələlərlə bağlı konkret addımlar atması tapşırılıb. Həm "Şimal-Cənub", həm "Şərq-Qərb" nəqliyyat dəhlizləri vasitəsilə qarşılıqlı ticarətin stimullaşdırılacağı qeyd olunub. Azərbaycan tərəfinin Vyetnamda bərpaolunan enerji növlərinə sərmayə qoymağa hazır olduğu bildirilib.

Eləcə də Hökumətlərarası Komissiyanın iclasının uzun müddətdir keçirilməməsi qeyd edilib. Əldə edilmiş razılaşma əsasında tezliklə komissiyanın iclasının keçirilməsi məsələsi öz həllini tapıb. Çünki bu, bir çox istiqamət üzrə mümkün əməkdaşlığı daha da sürətləndirə bilər.

Bütün bunlar Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın bəyanatında bir növ müddəalar kimi səslənib: "Hökumətlərarası komissiya vasitəsilə ticari-iqtisadi əməkdaşlığı fəallaşdırmaq, əmtəə dövriyyəsi və sərmayələri artırmaq, iki ölkənin işgüzar dairələrini bir araya gətirmək, energetika, neft və qazla yanaşı, bütün sahələrdə əməkdaşlıq etmək, dəmir yolları, dəniz yolları, kənd təsərrüfatı sahələrində digər əməkdaşlıq imkanlarını araşdırmaq vacibdir. Biz hökumətlərarası komissiyanın növbəti iclasının tezliklə baş tutması məsələsini nəzərdən keçirəcəyik. Həmin komissiyanın gələcək iclasının nəticələrini səbirsizliklə gözləyirik, çünki o, artıq strateji tərəfdaşlıq əsasında həyata keçiriləcək".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Dostluq üçün məsafə şərt deyil

### Yüksəksəviyyəli səfərlər Azərbaycan və Vyetnam arasında faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradır

İkinci Dünya müharibəsi dövründə Yaponiyanın Cənub-Şərqi Asiyada, Hind-Çin yarımadasının şərq ucqarında yerləşən və XIX əsrə qədər Fransanın hakimiyyəti altında olmuş Vyetnama qoşun yeritməsi ilə başlayan müharibə nə az, nə çox - 30 il çəkdi.

1945-ci ildə başlayıb və 1975-ci ildə başa çatan 30 illik müharibədə 20 il Fransa işğalçılarına qarşı ölüm-dirim savaşı aparan vyetnamlılar müharibənin son 10 ilini də dünyanın supergüclərindən olan ABŞ ilə döyüşməli oldular. Şimali Vyetnamın ilk prezidenti Ho Şi Min müharibənin dəhşətlərini belə təsvir edirdi: "Tüfəngi olanlar tüfəngləri ilə, qılıncı olanlar qılıncları ilə, qılıncı olmayanlar isə ağac və daşlarla müharibə aparırdı. Hər küçə bir səngər, hər bir insan bir döyüşçü, hər bir partiya binası bir qərargah rolunu oynayırdı. Qələbə bizə çox böyük - 13 milyon itki və yüz minlərlə yaralı hesabına başa gəldi". Beləliklə, 1973-cü il yanvarın 27-də Parisdə atəşkəs sazişi imzalandı və ABŞ məğlubiyyəti qəbul edib Vyetnamdan geri çəkildi. Sonra 2 il Cənubi Vyetnamla davam edən müharibə 1975-ci aprelin 30-da xalq ordusunun Sayqonu ələ keçirməsi ilə sona çatdı.

Azərbaycanla Vyetnamın dostluq əlaqələri uzun illəri əhatə edir. Vyetnamın 1959-cu il iyulun 23-də Bakıya gələn Prezidenti Ho Şi Min Xəzər dənizində böyük neft-qaz platformalarını görüb demişdi: "Vyetnamda da dəniz var, inanıram ki, bizim də mütləq neftimiz olacaq. Amma ölkəmiz müharibə şəraitindədir və biz neft çıxarılmasını hələ gerçəkləşdirə bilmərik. Ümid edirəm və inanıram ki, Vyetnamın müqavimət müharibəsi uğurla başa çatdıqdan sonra siz bizə neft tapmaqda kömək edəcək, sonra neftin istismarına və emalına yardım göstərəcək, Bakıdakı kimi neft-qaz sənayesi parkı tikəcəksiniz". Belə də oldu. Vyetnam tam azad olandan və birləşəndən sonra burada neft-qaz sənayesinin qurulmasında Azərbaycan neftçiləri tarixi xidmətlər göstərdilər. Vyetnamın neft yataqlarının kəşfiyyatı və işlənilməsi məqsədi ilə 1981-ci ildə "Vietsovpetro" Sovet-Vyetnam birgə müəssisəsi yaradıldı və Vyetnamın neft yataqlarının kəşfiyyatı, hasilatı üçün Azərbaycanın qabaqcıl neft mühəndisləri, geoloqları, ixtisaslaşmış işçiləri Vyetnama ezam olundular. Bundan başqa, Azərbaycandan bu ölkəyə neft sənayesinə aid xeyli sayda texnika və avadanlıq göndərildi.

"Vietsovpetro" şirkətinin yaradılmasından bir müddət sonra - 1983-cü ildə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, Vyetnamın böyük dostu Heydər Əliyevin başçılıq etdiyi sovet nümayəndə heyəti bu ölkəyə səfər etdi. Həmin səfərin keçmiş SSRİ-Vyetnam münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyəti oldu. Onu da bildirək ki, Heydər Əliyev Vyetnamın birləşməsindən sonra bu ölkəyə səfər edən ilk yüksəkvəzifəli xarici dövlət rəsmisi idi. Bu səfər Vyetnam dövləti və xalqı üçün müstəqilliyin, suverenliyin qorunması naminə böyük bir ümid idi.

Səfər zamanı Heydər Əliyev sovet rəhbərliyini Vyetnama iqtisadi və elmi-texniki kömək göstərmək barədə inandıra bildi. Səfər çərçivəsində Heydər Əliyev Vyetnam və sovet, o cümlədən Azərbaycan neft mütəxəssisləri ilə görüşmək üçün bu ölkənin neft sənayesinin mərkəzi olan Vunq Tau şəhərinə baş çəkdi. Ulu Öndərin səyləri, Bakıdan gətirilən əlavə azərbaycanlı mütəxəssislərin və texnikanın cəlb edilməsi nəticəsində Vyetnamda ilk neft proqnozlaşdırıldığından xeyli əvvəl - 1986-cı ilin iyununda hasil edildi.

Ulu Öndərin sovet nümayəndə heyətinin rəhbəri kimi Vyetnama səfəri bu xalqın Azərbaycana isti münasibətinin formalaşmasında xüsusi rol oynadı. Azərbaycan 1991-ci ildə müstəqilliyini elan etdikdən sonra iki ölkə arasında əlaqələr daha da genişləndi. 2013-cü ildən Vyetnam Milli Assambleyasında (Parlament) Vyetnam-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu, Milli Məclisdə Azərbaycan-Vyetnam Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupu yaradılmış, İqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyası təsis edilmişdir. Həmçinin Hanoyda Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası və Azərbaycan Mədəniyyəti və Tarixi Araşdırmaları Mərkəzi yaradılmışdır.

Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Vyetnam-Azərbaycan dostluq münasibətləri Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama dövlət səfəri ilə yeni mərhələyə qədəm qoydu. Dövlətimizin başçısının Vyetnama həmin səfəri həm Ulu Öndərin vyetnamlılarla dostluğunun davam etdirilməsi, həm də müasir dövrdə iki ölkə arasında münasibətlərin genişləndirilməsi baxımından mühüm rol oynadı. Bu səfərdən sonra 2015-ci ildə Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanq Azərbaycana rəsmi səfərə gəldi. Bununla yüksəksəviyyəli qarşılıqlı səfərlər ənənəsi yarandı.

Azərbaycanın Vyetnamla əlaqələri həm tarixi, həm də müasir dövr baxımından çox önəmlidir. Bu əlaqələr yalnız dövlət səviyyəsində deyil, həm də ədəbiyyat və mədəniyyət sahələrində iki xalq arasında möhkəm dostluq körpüsünü yaradıb. Vyetnamda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinin və Vyetnama tarixi səfərinin 40 illiyinin, habelə Ho Şi Minin ölkəmizə səfərinin 65 illiyinin qeyd edilməsi xalqlarımız arasında dostluğun möhkəmlənməsindən soraq verir. Bu dostluğun nəticəsidir ki, Azərbaycan ilə Vyetnam beynəlxalq və regional təşkilatlarda, o cümlədən BMT-də, Qoşulmama Hərəkatında, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə bir-birinə dəstək verirlər. Ölkələrimiz arasında münasibətlərin inkişafında iqtisadi-ticari və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının fəaliyyəti əhəmiyyətli rol oynayır. Həmçinin 2023-cü ilin noyabrında Hanoyda Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq sazişinin imzalanması da münasibətlərin inkişafına əlavə təkan verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə verdiyi müsahibədə iki ölkə arasında əlaqələrdən bəhs edərkən demişdir: "Hesab edirəm ki, ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir. İqtisadi-ticari münasibətlərdən danışarkən qeyd etmək lazımdır ki, bu gün təkcə iqtisadi artımı stimullaşdıracaq deyil, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq, bununla da öz növbəsində iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Vyetnamın Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinin xanımı İçərişəhərlə tanış olub

Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li mayın 8-də dünya mədəni irs abidələri sırasında yer alan İçərişəhərlə tanış olub.













AZƏRTAC xəbər verir ki, qonağın İçərişəhərdə gəzintisi tarixi memarlıq abidəsi olan Qız qalası ilə tanışlıqdan başlayıb. Xanım No Fon Li qala divarlarının inşasının tarixi barədə məlumatlandırılıb.

Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir.

Qız qalasının içərisinə daxil olan qonağa abidənin daxili strukturu, keçmişdəki funksiyası və arxeoloji tapıntılar barədə ətraflı məlumat təqdim edilib. Yaxınlıqdakı Sıratağlı dini-memarlıq kompleksinin ərazisindəki ekspozisiya ilə tanışlıq qonaqda böyük maraq doğurub.

Gəzinti zamanı Baş katibin xanımına UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə də ətraflı məlumat verilib. Qeyd olunub ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

Qonaq İçərişəhər Ənənəvi İncəsənət Mərkəzində yaradılan "Dastan" brendi ilə də tanış olub. Ona bu brendin milli irsimizin qorunması və təşviqi istiqamətində həyata keçirilən layihələri, eləcə də təqdim olunan əl işləri və sənət nümunələri barədə ətraflı məlumat verilib.

Burada Baş katibin xanımına xatirə hədiyyəsi olaraq "Xarıbülbül" döş nişanı və Qarabağ xalçası ornamentləri ilə bəzədilmiş suvenir qab hədiyyə olunub.

Gəzinti zamanı qonağa Yeraltı hamam barədə məlumat verilib. Qeyd olunub ki, XVII əsrin əvvəllərinə aid olan bu tarixi-memarlıq abidəsi İçərişəhərin cənub-şərq hissəsində yerləşir. Guşə daşlarından inşa edilən hamam memarlıq üslubu və özünəməxsus xüsusiyyətləri ilə həmin dövrün şəhər hamamı ənənələrini əks etdirir.

İçərişəhərdə gəzinti zamanı xanım No Fon Li isti təndir çörəyinə qonaq edilib. Gəzinti zamanı Baş katibin xanımı Orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Saray Kompleksi ilə də tanış olub. Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

İçərişəhərlə tanışlıq xanım No Fon Lidə xoş təəssürat yaradıb.

## Azərbaycan və Vyetnam arasında Biznes Şura yaradılır

Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana səfəri çərçivəsində "Bakı KOB evi"ndə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Vyetnam Sosialist Respublikasının Milli Sahibkarlıq Assosiasiyası (VINEN) arasında Azərbaycan-Vyetnam Biznes Şurasının yaradılmasına dair Anlaşma Memorandumu imzalanıb.



KOBİA-dan AZƏRTAC-a bildirilib ki, sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və VINEN-in prezidenti Dinh Viet Hoa imzalayıblar.

Azərbaycan-Vyetnam Biznes Şurası hər iki ölkənin sahibkarlarının təşəbbüslərini dəstəkləyəcək, iş adamları arasında əlaqələrin qurulmasına, qarşılıqlı səfərlərin, birgə tədbirlərin təşkilinə, tərəflər arasında ticarət əlaqələrinin inkişafında faydalı ola biləcək məlumat mübadiləsinə köməklik göstərəcək. İlkin mərhələdə Azərbaycan-Vyetnam Biznes Şurasının həmsədrlərinin müəyyən edilməsi və şuraya hər iki ölkədən iş adamlarının cəlb olunması istiqamətində tədbirlər həyata keçiriləcək.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və VINEN-in prezidenti Dinh Viet Hoa arasında keçirilmiş görüşdə müvafiq memorandumdan irəli gələn məsələlər, eləcə də hər iki ölkənin işgüzar dairələri arasında əməkdaşlıq və bu əlaqələrin genişləndirilməsi imkanlarına dair fikir mübadiləsi aparılıb.

VINEN-in prezidenti həmçinin "Bakı KOB evi"nin fəaliyyəti, burada sahibkarlara göstərilən G2B və B2B xidmətlərlə tanış olub.

1923 *Azərbaycanın özü qədər əbədi* 2025

# DTX-nin Akademiyasının təşkilatçılığı ilə respublika elmi-praktik konfransı keçirilib



Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının (Akademiya) təşkilatçılığı ilə DTX-nin Mədəniyyət Mərkəzində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə və "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Heydər Əliyevin dövlət təhlükəsizlik siyasəti: tarixi nailiyyətlər və müasir çağırışlar" mövzusunda respublika elmi-praktik konfransı keçirilib.

Akademiyadan AZƏRTAC-a verilən məlumata görə, tədbirdə DTX-nin rəhbər əməkdaşları, Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini Ziyafət Əsgərov, AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev, Qərbi Azərbaycan İcmasının İdarə Heyətini sədri, millət vəkili Əziz Ələkbərli və digər millət vəkilləri, təhlükəsizlik orqanlarının veteranları, xüsusi təyinatlı və mülki ali təhsil müəssisələrinin rəhbər şəxsləri və professor-müəllim heyətləri iştirak ediblər.

Konfrans açıq elan olunduqdan sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Konfransda Akademiyanın rəisi general-mayor Elşad Nəsirov giriş nitqi çıxış edərək DTX-nin rəisi general-polkovnik Əli Nağıyevin adından qonaqları salamlayıb və konfransda iştirak etdiklərinə görə təşəkkürünü bildirib. General-mayor E.Nəsirov belə bir mötəbər tədbirin məhz Ulu Öndərin adını daşıyan Akademiyanın təşkilatçılığı ilə keçirilməsini təkcə təhlükəsizlik orqanlarında çalışan əməkdaşlar üçün deyil, bütövlükdə milli təhlükəsizlik sisteminin strateji mahiyyətini dərk edən hər bir şəxs üçün xüsusi rəmzi və ideoloji əhəmiyyət kəsb etdiyini vurğulayıb. Müasir Azərbaycan dövlətçiliyinin memarı və qurucusu olan Heydər Əliyevin ölkəmizin milli maraqlarını əsas tutaraq təhlükəsizlik, müstəqillik, müasirlik və multikultural dəyərlər üzərində dayanan dövlət idarəçilik sistemini formalaşdırdığını qeyd edən natiq Ümummilli Liderin dövlət təhlükəsizliyi siyasətinin müxtəlif aspektlərini əhatə edən bu konfransın milli təhlükəsizlik siyasətinin elmi əsaslarla araşdırılması və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi önəm daşıdığını bildirib.

E.Nəsirov qeyd edib ki, Ulu Öndərin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyası dövlətin suverenliyinin, konstitusion quruluşunun və ərazi bütövlüyünün qorunmasına xidmət edən təhlükəsizlik sisteminin hüquqi əsaslarını müəyyənləşdirdi. Azərbaycan Respublikasının Konstitusiyası dövlətin suverenliyinin, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi baxımından müstəsna əhəmiyyətə malik sənəd olub. Bu konstitusiya Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin və hüquqi dövlət anlayışının əsasını təşkil edir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması Azərbaycanın müasir hüquqi dövlət quruculuğu modelinin təkmilləşdirilməsi, suverenlik və təhlükəsizlik konsepsiyalarının daha da möhkəmləndirilməsi istiqamətində atılan məqsədyönlü addımların bariz nümunəsidir. Onun əsasını qoyduğu təhlükəsizlik siyasəti hazırda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən yeni siyasi müstəvidə uğurla davam etdirilir. 2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər beynəlxalq hüququn bərpası və ədalətin təntənəsi kimi tarixə düşüb. Bu tarixi Zəfərlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Birləşmiş Millətlər Təşkilatının otuz ilə yaxın kağız üzərində qalmış qətnamələri hərbi, diplomatik yollarla reallığa çevrildi. Bu müharibə və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı həm də informasiya manipulyasiyası, hibrid müharibə, kibertəhdidlər kimi yeni tipli təhlükələrlə mübarizədə Azərbaycanın təhlükəsizlik sisteminin çevik və müasir yanaşmalara əsaslandığını bir daha sübut etdi. Əminliklə qeyd edə bilərik ki, Ulu Öndərin şanlı peşəkarlıq məktəbini böyük qürur və fəxarət hissi ilə davam etdirən Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti qarşısında qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi, müstəqilliyimizin əbədiliyi, Ulu Öndərin irsinin dərindən öyrənilməsi, dövlətçiliyimizin qorunması və daha da möhkəmlənməsi naminə bundan sonra da var qüvvəsi ilə çalışacaq, Vətənə sədaqətlə xidmət edəcək göstərilən yüksək etimadı öz xidməti ilə doğruldacaq.

Ardınca konfransda mövzuya həsr olunmuş videoçarx nümayiş etdirilib.

Konfransda Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov "Müstəqillik dövründə Azərbaycan Respublikasının konstitusion inkişafı" mövzusunda məruzə ilə çıxış edib. Müstəqilliyimiz bərpa olunan zaman demokratik quruluşu və qanunun aliliyini özünün başlıca məqsədi elan edən respublikamızın qarşısında duran əsas vəzifələrdən biri yeni konstitusiyanın hazırlanması olduğunu qeyd edən natiq Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra ölkədə ictimai-siyasi sabitliyin bərqərar olunması ilə yanaşı, müstəqil Azərbaycanın ilk konstitusiyanın qəbul edildiyini bildirib. Z.Əsgərov qeyd edib ki, Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il respublikamızda "Konstitusiya və Suverenlik İli" elan olunmasının milli dövlətçilik dəyərlərimizə, siyasi tariximizə ali ehtiramın təcəssümü olan bu qərar siyasi irsimizin, müstəqillik salnaməmizin, suverenlik mübarizəmizin, torpaqlarımızın azad edilməsi nəticəsində konstitusion hüquqlarımızın tam bərpasının dərindən öyrənilməsi və təbliği, bu istiqamətlərdə yeni siyasi-elmi araşdırmaların aparılması, yeni inkişaf mərhələsində qarşımızda dayanan ideoloji vəzifələrin müəyyən edilməsi baxımından böyük əhəmiyyətə malikdir.

AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev konfransda "Qlobal rəqəmsal transformasiyalar şəraitində Azərbaycan dövlətinin kibersuverenliyinin təmin olunması zəruriyyəti haqqında" mövzusunda məruzə ilə çıxış edib. Bütün dünyada informasiya texnologiyalarının geniş tətbiq olunmasının bir çox məsələlərə yenidən baxmağı tələb etdiyini bildirən natiq ölkəmizdə də bununla bağlı çox mühüm işlər həyata keçirildiyini, həm dövlət səviyyəsində, həm özəl sektorda, həm də insanların şəxsi həyatında informasiya kommunikasiya texnologiyaları geniş tətbiq olunduğunu qeyd edib. Akademik R.Əliquliyev vurğulayıb ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dövlət siyasəti əsasında informasiya kommunikasiya texnologiyalarını sistemli şəkildə, milli strategiyalar, dövlət proqramları çərçivəsində inkişaf etdirməyə başlayıb. Bu istiqamətdə dövlət siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Konfransda Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Heydər Əliyevin dövlət təhlükəsizliyi siyasəti" mövzusunda çıxış edərək Ulu Öndərin təhlükəsizlik orqanlarındakı fəaliyyəti haqqında ətraflı bəhs edərək bu orqanların milliləşdirilməsinin məhz dahi rəhbərin adı ilə bağlı olduğunu qeyd edib.

Konfransda Daxili İşlər Nazirliyinin Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov "Ümummilli Lider Heydər Əliyevin milli təhlükəsizlik konsepsiyasında daxili işlər orqanlarının rolu", Qərbi Azərbaycan İcması İdarə Heyətini sədri, millət vəkili Əziz Ələkbərli "Heydər Əliyevin Qərbi Azərbaycan siyasəti", Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqatlar İnstitutunun rektoru, general-mayor Arif Həsənov "Heydər Əliyevin hərb siyasəti" mövzularında məruzələrlə çıxış edib.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası "Sən elə bir zirvəsən" adlı tədbir təşkil edib










**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən müasir Azərbaycanın qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Sən elə bir zirvəsən" tədbiri təşkil olunub.**

Bakı Konqres Mərkəzində keçirilən tədbirdə mərkəzi icra hakimiyyəti orqanlarının və digər qurumların rəhbər şəxsləri, Milli Məclisin deputatları, ictimai təşkilatların nümayəndələri və həmkarlar ittifaqlarının çoxsaylı üzvləri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib. Sonra Ümummilli Lider Heydər Əliyevin zəngin və mənalı həyat yolunu, dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqımızın rifahı və müasir Azərbaycanın inkişafı üçün tarixi xidmətlərini əks etdirən film nümayiş olunub.

Tədbirdə vurğulanıb ki, xalqımızı ağır sınaqlardan, ölkəmizi dərin böhrandan xilas edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın tərəqqi və inkişaf yolunun əsasını qoyub. Milli maraqları daim üstün tutan, demokratik prinsiplərə, vətəndaş cəmiyyətinin inkişafına böyük önəm verən Ümummilli Lider həmkarlar ittifaqlarına böyük diqqət və qayğı göstərib. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının formalaşmasında və fəaliyyətinin genişlənməsində dahi şəxsiyyətin tövsiyə və məsləhətləri bu gün də əsl yol xəritəsidir.

Ulu Öndərin siyasi kursu onun layiqli davamçısı Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bildirilib ki, dövlətimizin başçısının birgə addımladığı, ən yaxın silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dövlətimizin daha da qüdrətlənməsində xidmətləri əvəzsiz, dahi şəxsiyyətin zəngin irsinin öyrənilməsində və təbliğində Ulu Öndərin adını daşıyan, işıqlı ideyalarını yaşadan Heydər Əliyev Fondunun rolu misilsizdir. Sonra tədbirdə xalq və bəstəkar mahnılarından ibarət musiqi proqramı təqdim olunub. Tanınmış ifaçılar Ümummilli Liderin sevdiyi, rəğbət bəslədiyi musiqi nömrələri ilə çıxış ediblər. Konsert proqramı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının layiqli əmək səfiri, Xalq artisti Mənsum İbrahimovun "Qarabağ" musiqi kompozisiyası ilə başa çatıb və tamaşaçılar tərəfindən böyük alqışlarla qarşılanıb.

***N.ƏSGƏROVA,***
***"Azərbaycan"***

# DİN-in əməkdaşları Ulu Öndərin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçiriblər



Müasir Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Daxili İşlər Nazirliyinin əməkdaşları və hərbi qulluqçuları Suraxanı rayonu ərazisindəki yaşıllıq massivində növbəti ağacəkmə kampaniyası keçiriblər.





Əvvəlcə polis əməkdaşları və hərbi qulluqçular ərazidə olan bitkilərə qulluq göstərib, yaşıllıq zonasında təmizlik işləri aparıblar. Sonra yerli iqlimə uyğunlaşdırılmış zeytun tinglərini əkib, onların suvarılmasını təmin ediblər. Tinglərin küləkdən qorunması və normal böyüməsi üçün qoruyucu dirəklər basdırıblar.

Ərazinin nəzarətdə saxlanılması, əkilmiş ağaclara mütəmadi qulluq göstərilməsi üçün müvafiq tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

***"Azərbaycan"***

# *Şuşada konfrans:* "Ümummilli Lider Heydər Əliyev yolu müasir Azərbaycan tarixinin uğur salnaməsidir"



Yeni Azərbaycan Partiyası (YAP) Şuşa rayon təşkilatı tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Şuşa şəhər 1 nömrəli tam orta məktəbdə "Ümummilli Lider Heydər Əliyev yolu müasir Azərbaycan tarixinin uğur salnaməsidir" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla anılıb.

Tədbirdə Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi ehtiramla yad edilib. Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Konfransda Şuşa rayonunda Azərbaycan Respublikasının xüsusi nümayəndəsi Aydın Kərimov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mübariz Qurbanlı, YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov, YAP Mərkəzi Aparatının məsul əməkdaşı və digər şəxslər iştirak ediblər.

Tədbirdə çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin böyük, mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi, Vətənə, xalqa qarşı misilsiz xidmətlərindən danışıb, müstəqil Azərbaycanın qazandığı bütün müvəffəqiyyətlərin təməlində Ümummilli Lider Heydər Əliyevin uğurlu və uzaqgörən siyasətinin dayandığını qeyd ediblər.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar, YAP sıralarına yeni qəbul olunan üzvlərə isə partiya vəsiqələri təqdim edilib.

Tədbirə bədii hissə ilə yekun vurulub.

# Heydər Əliyev və Qərbi Azərbaycan



Azərbaycan xalqının dünya siyasətinə bəxş etdiyi böyük dövlət adamı, dahi siyasətçi Heydər Əliyevin anadan olmasından 102 il keçir. Heydər Əliyevin fiziki yoxluğundan bizi ayıran vaxt axarı onun siyasi dühasını daha dərindən öyrənməyə sövq edir. Xalqımızın yetişdirdiyi tarixi şəxsiyyətin ən böyük səciyyəvi cəhəti vətənimizin tarixini bütöv görməyi bacarması idi. O, Azərbaycanın və türk dünyasının problemlərinin həlli yolları barədə daim düşünən böyük siyasi lider idi. Heydər Əliyev Sovetlər Birliyinin rəhbərliyində olanda fəaliyyətində bu çalarlar qabarıq görünürdü.

## Milli kimliyə bağlı şəxsiyyət

Heydər Əliyev SSRİ Kommunist Partiyasının Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsini tutarkən onun SSRİ Kommunist Partiyasının baş katibi Mixail Qorbaçovla ilk konflikti Qazaxıstan SSR KP MK-nın birinci katibi Dinməhəmməd Kunayevin vəzifədən uzaqlaşdırılmasına etirazı ilə bağlı olmuşdur. Heydər Əliyevin türk xalqlarına olan bağlılığı və milli təəssübkeşliyi SSRİ rəhbərliyi tərəfindən qısqanclıqla qarşılandı və onun özünü hədəfə çevirdi. Turkiyənin tanınmış araşdırmaçı jurnalisti Selahettin Sadıkoğluna "Haydar Alıyevle yüz-yuze reportaj" başlığı ilə verilmiş telemüsahibədə Heydər Əliyev bu barədə söyləyir: "Mənim SSRİ Siyasi Bürosunda dövlət başçısı ilə ilk konfliktim 1986-cı ildə baş verdi. M.Qorbaçov Orta Asiyada türk dövlət başçılarını çıxardıb oraya rus millətindən olan başçılar təyin edirdi. Nəhayət, 1986-cı ildə 22 il Qazaxıstana başçılıq etmiş D.Kunayevi vəzifədən azad edərək onun yerinə rus millətindən olan yaxın dostunu təyin etdi. Mən buna etiraz etdim. M.Qorbaçova başa saldım ki, bu doğru deyil. Bunu etmək olmaz. Lakin o bildirdi ki qazax xalqı belə istəyir. Mən bildirdim ki, bu yanlışdır. Nəticədə qazax xalqı həmin şəxsi qəbul etmədi və qarşıdurma yarandı. Buna etiraz edən qazax gənclərinin bir çoxu güllələndi. Bir çoxu həbs edildi. Və buna qazax millətçiliyi donu geyindirdilər".

Bəli, Heydər Əliyevin SSRİ rəhbərliyi ilə ilk ziddiyyətləri məhz türk xalqlarına qeyri-millətlərin rəhbər təyin edilməsi ilə başlanmışdır. Heydər Əliyevin türk milli kimliyinin təəssübkeşliyi onun Sov.İKP MK-nın Siyasi Bürosundan istefa verməsinə səbəb oldu. Onun qazax xalqının dövlət xadimi D.Kunayevlə, özbək xalqının dövlət xadimi Şərəf Rəşidovla möhkəm dostluq əlaqələri qısqanclıqla qarşılanırdı. Hər üç şəxsiyyətə qarşı Əliyevşina, Kunayevşina və Rəşidovşina adı altında qarayaxma kampaniyası aparılırdı.

Heydər Əliyevin hələ sovetlər dönəmində türk xalqlarına qarşı olan sevgisinin təzahürü idi ki, Orta Asiyanın və Turkiyənin dövlət başçıları və xalqları ona böyük ehtiram bəsləyirdilər.

Xristian güc mərkəzləri tərəfindən türk dünyasının bütövlüyünü pozmaq, türk xalqlarının quru sərhədlərini ayırmaq məqsədi ilə xristian zolağı yaratmaqla süni şəkildə Ermənistan adlanan dövlətin yaradılması tarixşünaslıq tərəfindən öz təsdiqini tapmışdır. Böyük dövlət adamı Heydər Əliyevin bu problemə baxışı maraq doğurmaya bilməz. Ümummilli Lider Qərbi Azərbaycana türk dünyasının ən vacib parçası kimi baxır, onu xalqımızın tarixi torpaqları hesab edirdi. Böyük siyasi xadim ikinci dəfə hakimiyyətə gəldikdən sonra artıq biz onun açıq şəkildə Qərbi Azərbaycan məsələsinə həssas münasibətinin şahidi olduq.

## Tarixi və siyasi varislik

Heydər Əliyev Qərbi Azərbaycan məsələsinə iki baxış bucağından yanaşıb dəyərləndirirdi: tarixi varislik və siyasi varislik. Birinci baxış bucağı Qərbi Azərbaycanın tarixi Azərbaycan torpaqları olması faktorunu önə çəkirdi. Ümummilli Lider Heydər Əliyevin 1991-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında çıxışı bunun bariz nümunəsidir. Heydər Əliyev həmin çıxışında deyir: "1918-ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kvadratkilometr olub. İndi isə 86 min kvadratkilometrdir. Gör əlimizdən nə qədər torpaqlar gedib. Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirib. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparıb. Ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qoruyub, onun yolunda canlarını və övladlarını qurban verməkdən belə çəkinməyiblər. Təəssüf ki, biz bu ənənələri unuduruq. Buna artıq dözmək olmaz. Ona görə də təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın. Hansı dövrdə, hansı sərhəd sahəsində, hansı torpaqlar verilib? Bu torpaqların hansı qərarlarla, kim tərəfindən verilməsi müəyyən olunsun. Və biz Ermənistana qarşı artıq müdafiə mövqeyində yox, hücum mövqeyində duraq və burada deputatların dediyi kimi, o torpaqların geri qaytarılması üçün mübarizə aparaq. İndi biz mübarizəyə keçməliyik və mən də bu mübarizəyə hazıram. Əgər deputatlar razı olarsa, bizim sessiyamız Ermənistanı təcavüzkar dövlət adlandırmalıdır. Biz bu barədə xüsusi qərar çıxarmalı və onu bütün dünyaya bəyan etməliyik. Soruşdular ki, o torpaqları kim verib? Mən təklif edirəm ki, aydınlaşdırılsın. Eyni zamanda arayış verə bilərəm ki, 1969-cu il 14 iyuldan (mən başa düşdüm, o sualı mənə niyə verdilər), Azərbaycana rəhbərlik etdiyim dövrdən 1982-ci ilin dekabrına qədər Azərbaycan ərazisindən bir qarış da olsa, Ermənistana torpaq verilməyib. Mən buna cavab verirəm və özümü çox xoşbəxt hesab edirəm ki, o dövrdə ermənilərin torpaq iddialarının qarşısını ala bildik".

Göründüyü kimi, Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünə Qarabağ problemi kontekstində deyil, bütöv baxır və siyasi varislik prinsipini önə çəkərək ərazilərimizin 86.6 kvadratkilometr deyil, 114 min kvadratkilometr olduğunu vurğulayır. Eyni zamanda Heydər Əliyev vaxtilə Azərbaycanın ərazilərinin ermənilərə verilməsi həvəsində olan şəxslərin fəaliyyətlərinin hansı çətinliklərlə qarşısının alındığını söyləyir.

Heç kimə sirr deyil ki, Heydər Əliyevin hələ sovet dönəmində Azərbaycanda rəhbərliyə gəlməsi respublikamız üçün daha ciddi bir təhlükənin qarşısını aldı. 1948-1953-cü illərdə sovet dövlət rəhbərliyinin yaxından köməyi ilə azərbaycanlıların doğma torpaqları olan Qərbi Azərbaycandan - Ermənistan SSR adlandırılan ərazidən deportasiyasına nail olan ermənilər 1968-1969-cu illərdə Azərbaycana qarşı ərazi iddialarını yenidən genişləndirmişdilər. Kreml də onların bu iddialarına dəstək verirdi. Məhz belə bir təzyiq nəticəsində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Ermənistanla sərhəddə yerləşən 2 min hektardan çox torpağın onlara verilməsi haqqında hələ 5 may 1938-ci ildə qəbul edilmiş əsassız sənədi 7 may 1969-cu il tarixli qərarı ilə təsdiq etdi (Ali Sovetin Sədri M.İsgəndərli). Heydər Əliyev bu qərarın həyata keçirilməsinə yol vermədi.

## İlk dəfə Heydər Əliyev "Qərbi Azərbaycan" ifadəsini işlədib

"İslam sivilizasiyası Qafqazda" mövzusunda 10 dekabr 1998-ci ildə keçirilən beynəlxalq simpoziumun iştirakçılarının böyük bir qrupu ilə görüşdə çıxış edən Heydər Əliyev bir daha Qərbi Azərbaycan məsələsindən bəhs edərək deyir: "İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan - İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı - bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Əgər Qafqazda islam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır".

Beləliklə, müasir Azərbaycanın siyasi həyatında Qərbi Azərbaycan terminologiyasından ali kürsüdən ilk dəfə Ümummilli Lider Heydər Əliyev istifadə etmişdir. Bundan sonra həm siyasi ədəbiyyatda, həm də siyasi platformalarda bu termin artıq öz gerçək yerni tutmağa başladı.

Heydər Əliyev digər beynəlxalq kürsülərdən də Ermənistanın tarixi Azərbaycan torpaqlarında yaradılması ilə bağlı faktları söyləyirdi. 23 fevral 1994-cü ildə Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxışında Heydər Əliyev deyir: "Əgər tarixi faktları araşdırmalı olsaq, onda xatırlatmalıyam ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi. Bir vaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 1918-1920-ci illərdə Ermənistana keçmişdir. Bir sözlə, tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. Amma indi mən onu deyirəm ki, biz Ermənistan ərazisinə, mövcud sərhədlərə göz dikməmişik, onların iddiasında deyilik. Bununla bərabər, biz öz ərazimizin bir metrini də verməyə razılaşa bilmərik".

15 fevral 2000-ci ildə Cons Hopkins Vaşinqton Universitetindəki çıxışında Heydər Əliyev deyir: "Bəli, Zəngəzurda azərbaycanlılar çox yaşayıbdır. Vaxtilə Zəngəzurun əhalisinin əksəriyyəti azərbaycanlılar olubdur. Ancaq Sovetlər İttifaqı yaranan zaman respublikaların xəritələri çəkilib, Zəngəzur Ermənistanın tərkibində qalıbdır. Azərbaycanlılar oradan tədricən köçüblər. Amma sizin nəzərdə tutduğunuz Mehri rayonunda 1988-ci, 1989-cu illərdə, 1990-cı ilə qədər daha çox azərbaycanlı yaşayıb, nəinki erməni".

Ulu Öndər beynəlxalq siyasi institutlarda etdiyi çıxışlarla gələcəkdə bu siyasi platformanın düzgün istiqamətdə dəyərləndirilməsinə şərait yaradırdı. Heydər Əliyev türk dünyasına da Qərbi Azərbaycan həqiqətlərini çatdırırdı.

Ulu Öndər 21 iyun 1996-cı ildə İğdır nümayəndələrini dinlədikdən və məktubla tanış olduqdan sonra deyir: "Bilirsiniz ki, keçmiş zamanlarda Azərbaycan təkcə indiki hüdudlarda deyildi. İndi Ermənistanın əlində olan Göyçə mahalı da, yaxud sizin İğdırın qarsısındakı Vedibasar, Zəngibasar, İrəvan xanlığı da Azərbaycanın olubdur. Sizin ulu babalarınızın əksəriyyəti oralardandır. İğdırda yaşayanlardan soruşsan ki, kökün haradandır, hər on nəfərdən dördü-beşi deyəcək ki, ya Zəngibasardan, ya Vedibasardan, ya İrəvandan, yaxud Borçalıdan, ya da Gəncədəndir, Naxçıvandandır".

Heydər Əliyev gənc nəsli doğma yurda səsləyirdi. Ulu Öndər daxili auditoriyanı da unutmur, gənc nəslin öz tarixi torpaqlarına sevgi və hörmət hissi ilə böyüməsi üçün onlara lazımi bilgiləri aşılayırdı. Görkəmli alim və cərrah Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illik yubileyinə həsr olunmuş təntənəli gecədə Ulu Öndər deyir: "Mustafa bəy Topçubaşov XX əsrdə Azərbaycanın ən görkəmli şəxsiyyətlərindən biridir. O, İrəvan şəhərində, qədim Azərbaycan torpağında dünyaya göz açıb, Kiyev Universitetini bitirib, sonra isə Bakıya gəlib və burada fəaliyyətə başlamışdır".

Heydər Əliyev siyasi varislik məsələsini həmişə aktual saxlamaqla bu istiqamətdə siyasi platformanı gücləndirir. O, 26 may 1996-cı il Respublika Günü münasibətilə təntənəli yığıncaqda deyir: "Xalqımız əldən getmiş torpaqların nisgilini indi də çəkir. İndi də Göyçə mahalı, Zəngəzur deyəndə xalqımızın ürəyi ağrıyır, xalq o torpaqların arzusu ilə yaşayır. Amma eyni zamanda Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edərkən beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədləri çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik".

## Yurd həsrəti mənəvi və şəxsi kontekstdə

Qərbi Azərbaycana qayıdışın təmin edilməsi konseptual olaraq özündə hüquqi və mənəvi amilləri ehtiva edir. Hüquqi amillər özlüyündə iki kateqoriyaya ayrılır: milli qanunvericilik bazası və beynəlxalq qanunvericilik bazası.

Milli qanunvericilik bazasının formalaşdırılmasının əsası böyük dövlət adamı Heydər Əliyevin hakimiyyəti dönəmindən qoyulmuşdur. Belə ki, Azərbaycan Respublikasının Prezidenti 18 dekabr 1997-ci il tarixdə (№ 656) 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 28 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanlarla Qərbi Azərbaycana qayıdışın təmin olunması istiqamətində fəaliyyət üçün hüquqi təminatlar yaradılmışdır.

Ulu Öndər qanunvericilik bazasını yaratmaqla bərabər, həm də sistematik olaraq bu mövzuda təbliğat işini aparmaqda davam etmişdir. O, 29 mart 2000-ci il tarixli 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü münasibətilə xalqa müraciətində deyir: "Ermənilərin azərbaycanlılara qarşı yönəldilmiş deportasiya və soyqırımı siyasəti sovet hakimiyyəti illərində beynəlmiləlçilik pərdəsi altında məharətlə maskalanaraq həyata keçirilmişdir. Sovet Rusiyasının köməyi ilə Zəngəzur və bir sıra digər Azərbaycan torpaqları Ermənistan ərazisi elan edildi. Ermənilər türk-müsəlman respublikalarına qarşı ayrı-seçkilik siyasəti yürüdən SSRİ rəhbərliyinin qərarı ilə dövlət səviyyəsində 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına nail oldular".

Tarixi gerçəklikləri bilən hər kəsə məlumdur ki, Ulu Öndər Heydər Əliyev əslən Qərbi Azərbaycanın Zəngəzur bölgəsinin Qarakilsə mahalının Comərdli kəndindəndir. Onun ailəsi etnik təmizləməyə və soyqırımına məruz qalmışdır. Heydər Əliyevin ailə üzvlərinin mətbuatdakı açıqlamalarında onların hansı məşəqqətlə öz yurdlarını tərk etmək məcburiyyətində qalması öz təsdiqini tapmışdır. Ona görə Heydər Əliyevin Qərbi Azərbaycan torpaqları ilə bağlı dərin tarixi məlumatlara malik olması heç bir təəccüb doğurmur. Bu həm də onun ailə həqiqətlərinin bir parçasıdır. Qərbi Azərbaycan torpaqlarının gerçək sahibləri həm də onun əcdadlarıdır. Bu məsələ mənəvi amillərlə bağlı olmaqla problemə həssas münasibətin təzahür etməsində mühüm rol oynayır. Heç də təsadüfi deyildir ki, azərbaycanlılara qarşı ermənilər tərəfindən XX əsrin əvvəllərində törədilən soyqırımına ilk siyasi hüquqi qiymət verən də Heydər Əliyev olmuşdur. Bu mənada Qərbi Azərbaycanın yerli sakinlərinin həmin ərazilərdən deportasiyası və bu prosesin ağır nəticələri ilə bağlı hüquqi sənəd imzalamış ilk dövlət başçısı kimi tarixə düşmüşdür.

Ulu Öndər azərbaycanlı əhaliyə qarşı törədilən soyqırımı və deportasiyalarla bağlı demişdir: "Ermənistanın Azərbaycana qarşı bu siyasəti XX əsrdə həmişə davam edibdir. Mən bu torpaqlarla əlaqədar məsələni dedim. 50 il bundan əvvəl, 1948-1953-cü illərdə azərbaycanlılar Ermənistandan deportasiya olunublar. O, Azərbaycan torpaqları idi. Həmin torpaqlardan, hansılar ki, o vaxtlar - 1918, 1919, 1920-ci illərdə mübahisə nəticəsində Ermənistanın əlinə keçdi, ondan sonra - 40-50 il yaşayandan sonra 1948-ci ildə hesab elədilər ki, azərbaycanlıları oradan tamamilə çıxartmaq lazımdır, sonra heç kim deməsin ki, bunlar Azərbaycan torpağı olubdur".

Qərbi Azərbaycana qayıdış həm şəxsi, həm də siyasi varislik kontekstində Prezident İlham Əliyevin fəaliyyətində də eyni ağırlıqda təzahür edir. Cənab Prezidentin babasının məzarını ziyarət edərkən söylədiyi təsirli fikirlər də bu mənəvi və hüquqi amili özündə ehtiva edir. Müzəffər Ali Baş Komandan İlham Əliyev demişdir: "Babamın məzarını ziyarət etməklə eyni zamanda ürəyimdə olan sözləri dedim. Baxmayaraq ki, mən babamı görməmişəm, o, həyatdan gedəndə mən hələ doğulmamışdım. Amma bildiyiniz kimi, o, Zəngəzurda doğulmuşdur, erməni etnik təmizləmə siyasətinin də qurbanı olmuşdur, onun ailəsi məcburən oradan köçüb Şahbuza, ondan sonra Naxçıvanda yerləşmişdir".

Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib: "Əlbəttə ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm".

## Qayıdışın beynəlxalq hüquqi təminatları

Müasir Azərbaycanın qurucu lideri Heydər Əliyev tərəfindən 1995-ci il tarixdə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası beynəlxalq müqavilələrin hüquqi statusuna müəyyənlik gətirməklə həm də Qərbi Azərbaycandan zorakılıqla çıxarılmış şəxslərin öz yurdlarına qayıtmasının beynəlxalq hüquqi təminatları üçün münbit baza yaratmışdır. Beynəlxalq konvensiyaların milli qanunvericiliyimizin tərkib hissəsinə çevrildiyini nəzərə alsaq, 10 dekabr 1948-ci il tarixli BMT-nin "İnsan hüquqları haqqında Ümumi Bəyannaməsi", 28 iyul 1951-ci il "Qaçqınların statusu haqqında Cenevrə Konvensiyası", 1967-ci il Konvensiyaya əlavə Protokol, "İnsan hüquqları haqqında Beynəlxalq Bill" BMT-nin Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli 2200 A (XXI) nömrəli qətnaməsi ilə qəbul edilmiş "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt, "Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiyaya, "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiya, "Uşaq hüquqları haqqında" Konvensiya (BMT-nin Baş Məclisinin 44-cü sessiyasında 20 noyabr 1989-cu ildə qəbul edilib) "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" Beynəlxalq Konvensiya (21 dekabr 1965-ci ildə Baş Məclis tərəfindən qəbul edilib), "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt (Pakt Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 16 dekabr 1966-cı ildə qəbul edilmiş və 23 mart 1976-cı ildə qüvvəyə minmişdir), "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya (BMT Baş Assambleyası tərəfindən 1979-cu ildə qəbul olunmuş, 3 sentyabr 1981-ci ildə qüvvəyə minmişdir) və digər beynəlxalq sənədlərdə Qərbi Azərbaycandan deportasiya edilmiş vətəndaşlarımıza verilmiş hüquq və azadlıqlar kobud şəkildə pozulmuş və eyni zamanda onların öz yurdlarına qayıtması üçün hüquqi təminatlar yaratmışdır.

## Biz Qərbi Azərbaycana qayıdacağıq!

Bütün siyasi platformalarda olduğu kimi, Qərbi Azərbaycana qayıdış problemi də böyük dövlət adamı Heydər Əliyev tərəfindən hüquqi və mənəvi baxımdan ciddi şəkildə işlənmiş və təminatları yaradılmışdır.

Şübhəsiz ki, yurd həsrəti ilə yaşayan qərbi azərbaycanlılar üçün 24 dekabr 2022-ci il tarixi unudulmaz bir gündür. Cənab Prezident Qərbi Azərbaycan İcmasına verilmiş binanın açılışında iştirak etməklə onların çağırışına səs vermiş və soydaşlarımızın doğma yurdlarına qayıtması hüququnu tanımışdır. İlham Əliyevin "Biz Qərbi Azərbaycana qayıdacağıq" söyləməsi Ermənistanda təşviş doğurmuşdur.

Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransdakı çıxışında bununla bağlı demişdir: "Zəngəzur 1920-ci ildə, 101 il bundan öncə Ermənistana verilib. Ondan əvvəl bu ərazi bizə məxsus idi. Mən Göyçə deyərkən, onlar hazırda Sevan gölü adlandırırlar. Bu, bir həqiqətdir. XX əsrin əvvəllərindəki xəritəyə baxmaq kifayətdir. Siz oraya baxarkən Sevan görməyəcəksiniz. Siz orada Göyçəni görəcəksiniz. İrəvanla bağlı da eyni məsələdir. Onlar İrəvanın tarixi hissəsini dağıdıblar. Bu, aydın faktdır, mənim əcdadlarım daxil olmaqla azərbaycanlılar orada yaşayıblar. Lakin bu o demək deyil ki, bizim ərazi iddialarımız var. Mən demişəm, bəli, biz oraya qayıdacağıq. Mən deməmişəm ki, biz oraya tankla qayıdacağıq. Mən demişəm biz qayıdacağıq. Bu o deməkdir ki, niyə də yox. Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə, niyə də biz İrəvana qayıtmayaq. Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm".

*Bəli, biz də Qərbi Azərbaycandan olan soydaşlarımızın öz doğma yurdlarına qayıtmasına olan inamını paylaşmaqla unudulmaz dahi siyasətçi Heydər Əliyevin və Müzəffər Ali Baş Komandan İlham Əliyevin sözlərini təkrar edərək deyirik: "Biz Qərbi Azərbaycana qayıdacağıq!"*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

1923 *Azərbaycanın özü qədər əbədi* 2025

# Nurlu və uğurlu yol

**İnsan uzun əsrlərdir yol gedir və ömrünün çoxunu yollarda keçirir. Yollar xeyirlə şər arasında bir sərhəd olmaqla bərabər, həm də körpüdür. Şərin qarşısını kəsdiyi kimi, bəzən də onu düzlüyə, səmimiyyətə dəvət edir, yola gətirir. Aqil insanlar bu yolları xeyirxah məqsədlər - qurmaq, tikmək, yaratmaq, kiməsə dayaq olmaq, nadanlar isə zülm etmək, ev yıxmaq, dava salmaq, can almaq üçün keçib gedir. Yolu salan da, keçən də, ucaldan da, urvatsız edən də, keçilməz qalaya çevirən də insandır.**

Həyatda hər insanın öz yolu var. Əsl insan seçdiyi yolu dəyərləndirir, tutduğu yolun sabahına inanır və ömrü boyu öz yolunun sahibinə çevrilir. Çünki seçilən, dəyərləndirilən yol dəyərli, uğurludursa, tək sahibini deyil, digərlərini də yaşadır, mənzilə vaxtında, sevinclə çatdıra bilir. Yaşlılardan eşitdiyim bir məsəli tez-tez xatırlayıram. Müqəddəs insanlardan biri keçdiyi yolda hər gün çətinliklərlə qarşılaşmalı olur. Yaxınlıqdakı evin ikinci mərtəbəsindən onun qarşısına daş-kəsək, toz, zir-zibil tökülür və bu, daim təkrar olunur. İnsanlar bu hörmətli şəxsə öz yolunu dəyişməyi dəfələrlə məsləhət bilsələr də o, yolunu dəyişmir. Bir müddət keçir və artıq əvvəlki hərəkətlər təkrar olunmur. Səbəbini öyrənəndə yola daş-kəsək, zir-zibil tökənin ağır bəlaya düçar olduğunu bildirirlər. Müqəddəs insan bundan ciddi təəssüflənir və səhəri gün bazarlıq edərək həmin adamı yoxlamağı qərara alır. Xəstə hər gün pislik etdiyi şəxsin onu yoxlamağa gəldiyini görəndə kövrəlir, göz yaşlarını saxlaya bilmir, üzr istəyir, böyük səhvə yol verdiyini bildirir. Müqəddəs insan isə əhvalını pozmadan "O sənin yolundur, bu da mənim yolum" deyə xəstəni sakitləşdirir və ona şəfa diləyərək otağı tərk edir. Bəli, bu dünyada hər kəsin saldığı, keçdiyi, əziz tutduğu bir yol var. Müdriklərin izi, yolu bir obadan, bir kənddən başlamasına baxmayaraq, çox vaxt ölkələri, qitələri qət edir, meridianları dolaşır, insanları uğurlara, qələbələrə aparır və əbədiləşir. Ulu Öndər Heydər Əliyev məhz belə bir müqəddəs, unudulmaz yolun sahibidir. Onun saldığı, keçdiyi yolla milyonlar vüqarla, sevinclə irəliləyərək öz məqsədlərinə, arzularına qovuşublar, dövlətin, xalqın etimadını, hörmətini qazanıblar.

Heydər Əliyev yolunun yolçusu olmaq, bu yolun məsuliyyətini dərk edib uğurlarına sevinmək əsl xoşbəxtlikdir. Ulu Öndər seçdiyi yolun ağrılarını, acılarını çox yaşasa da, ancaq onun gələcəyinə, uğurlara qovuşacağına daim inanıb və bunu əməlləri, amalları ilə sübuta yetirib. Müxtəlif vəzifələrə irəli çəkilsə də, yüksək kürsülərə yiyələnsə də, adlara, təltiflərə, mükafatlara layiq görülsə də, Heydər Əliyev tutduğu yoldan heç vaxt dönmədi. Bu yol xalqa, Vətənə xidmət, insana məhəbbət, vədə, sözə, amala sədaqət yolu idi. Əmək fəaliyyətinə başladığı ilk gündən ömrünün sonuna kimi o, öz yoluna, amalına sadiq qaldı, Ümummilli Lider, xalqın xilaskarı adını qazandı. Heydər Əliyev, əlbəttə ki, xalqın xilaskarıdır. Onun keçdiyi yol, siyasi yetkinlik, yüksək təşkilatçılıq bacarığı, bəşəri ideyalar bunu təsdiq etmişdir.

O, 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilərkən respublika ittifaqın ən geridə qalan bölgələrindən biri idi. İqtisadiyyatı, elmi, mədəniyyəti böhran vəziyyətində olan respublikada Heydər Əliyev yeni, heç kimin gözləmədiyi bir inqilab etdi. O, insanlara ilk növbədə milli kimliyini, tarixini, dinini, milli-mənəvi dəyərlərini dərk etdirdi, Vətən, xalq borcunu başa saldı. Vəzifə sahiblərinə məsuliyyət aşıladı, sadə adamlara ailəsini ağ günə çıxarmaq üçün necə işləməyi öyrətdi. Ölkənin ictimai-siyasi həyatındakı anarxiyanı, hakimiyyətdaxili intriqanı, böhranı, ədaləti, inamsızlığı aradan qaldırdı. İdarəçilik sistemində ciddi dönüş yaradıldı. Səmərəli sosial-iqtisadi tədbirlər həyata keçirildi, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə gücləndirildi. Respublikada əlverişli sosial-iqtisadi və mənəvi-siyasi şərait bərqərar edildi.

1970-1980-ci illərdə respublikanın neft-qaz hasilatı sənayesinə və neftqayırma zavodlarının yenidən qurulmasına 4 milyard manatdan çox vəsaitin ayrılması gələcək inkişaf, elə bu günümüz üçün bir bünövrə, zəmanət idi. Həmin illərdə 213 iri sənaye müəssisəsi tikilmiş, sənaye məhsulu istehsalı 2,7 dəfə artmışdı. Bu, əvvəlki 50 ildə olduğu qədər - 101.5 milyard manatlıq məhsul istehsalı demək idi. Azərbaycan sənaye məhsullarının istehsal artımına görə SSRİ-də birinci yerə çıxmışdı. O dövrdə kənd təsərrüfatı xüsusilə sürətlə inkişaf etmişdi. Heydər Əliyevin böyük səyi nəticəsində Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qəbul etdiyi dörd mühüm qərar respublikada aqrar sektorun inkişafına böyük təkan vermişdir. Belə ki, kənd təsərrüfatının ümumi məhsulu 2,7, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmiş, məhsul artımının dəyəri 11,1 milyard manata çatmışdır. Meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə çox olmuşdur. O dövrdə 7,7 min kilometr şose, 280 kilometr dəmir yolları çəkilmiş, 18,5 milyon kvadratmetr mənzil sahəsi istifadəyə verilmiş, 2,2 milyondan çox insan yeni mənzillərlə təmin edilmişdir.

Həmin illər respublika iqtisadiyyatının inkişafına 23,9 milyard manat vəsait qoyulmuşdur ki, bu da əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. 849 ümumtəhsil məktəbinin tikilib istifadəyə verilməsi, 6 yeni ali məktəbin yaradılması, C.Naxçıvanski adına hərbi məktəbin açılması, 1155 kitabxananın, 1316 klubun, 44 muzeyin, 111 kinoteatr binasının istifadəyə verilməsi Heydər Əliyevin böyük təşkilatçılıq bacarığının nəticəsi idi.

Heydər Əliyev tarixini, dilini, dinini, milli-mənəvi dəyərlərini ürəkdən sevən və qoruyan bir insan, qətiyyətli rəhbər idi. 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin ali səviyyədə rəsmi dil statusu alması dilimizə olan sonsuz məhəbbətdən qaynaqlanırdı. Ulu Öndər dilimizə azərbaycançılıq mövqeyindən yanaşır, onun varlığını, qorunmasını nailiyyətlərimizin əsası hesab edir və bildirirdi ki, millətin milliliyini saxlayan onun dilidir. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi və inkişaf etməsi də bizim nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir. Ulu Öndər xalqın təkidi ilə Azərbaycanın çox çətin dövründə - parçalanmaya, vətəndaş müharibəsinə getdiyi 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlməklə və az vaxtda respublikada ictimai-siyasi sabitlik yaratmaqla, silahlı qruplaşmaları ləğv etməyə nail olmaqla bir daha göstərdi ki, o, həqiqətən xalqın, vətənin xilaskarıdır, böyük iradə, qətiyyət sahibi olan şəxsiyyət, ictimai-siyasi xadim, liderdir. Bu, danılmaz faktdır ki, Ümummilli Liderimiz vətənin, xalqın ağır günündə köməyə çatmasaydı, Azərbaycanın müstəqilliyindən, bugünkü qələbələrdən, parlaq nəticələrdən danışmaq mümkün deyildi.

"Əsrin müqaviləsi"nin, atəşkəs sazişinin imzalanması, torpaq islahatının həyata keçirilməsi, beynəlxalq münasibətlərin yaxşılaşdırılması, ordu quruculuğunun möhkəmləndirilməsi, bütün sahələrdə lazımi islahatların aparılması, dövlət proqramlarının və layihələrin hazırlanması, kadr siyasətinin uğurla həyata keçirilməsi Heydər Əliyevin bugünkü inkişafımız üçün hazırladığı planlar idi və bu planların vacibliyi, səmərəsi hazırkı uğurlu nəticələrdə öz əksini tapır.

Müasir Azərbaycan tarixinin böyük bir dövrü Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Onun rəhbərliyi ilə Azərbaycan uzun illərin çətin sınaqlarından çıxmış, 1970-1980-ci illərdə ağır iqtisadi-mənəvi böhrandan, 1993-cü illərdə isə parçalanmadan qurtulmuş, müstəqilliyini qoruyub saxlamışdır. Bütün dövrlərdə əldə edilmiş sabitlik, vətəndaş həmrəyliyi, davamlı iqtisadiyyat, beynəlxalq aləmdə əldə edilən uğurlar Ulu Öndərin dövlət idarəçiliyi məharətinin, təşkilatçılıq bacarığının ifadəsidir. Heydər Əliyevin diplomatik uğurları hesabagəlməzdir. Onun uzaqgörən diplomatik gedişləri nəticəsində Azərbaycan Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər beynəlxalq təşkilatlarda yaxından təmsil olunmuş, aparıcı xarici ölkələrlə münasibətlər yaxşılaşmışdır.

Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biri dünya azərbaycanlılarının birliyinə nail olması, azərbaycançılıq ideologiyasını elm səviyyəsinə qaldırması, soydaşlarımızda yüksək vətənpərvərlik hissləri tərbiyə etməsidir. Dahi rəhbər Yeni Azərbaycan Partiyasını yaratmaqla və bu siyasi təşkilatın yarandığı bir neçə aydan sonra iqtidara gəlməsini təmin etməklə dünyaya əvəzsiz siyasətçi, dövlət xadimi olduğunu sübut etdi. YAP dövrün tələbindən yaranmasına baxmayaraq, məhz Heydər Əliyevin adı, fəaliyyəti ilə qüdrətləndi, beynəlxalq aləmdə tanındı və yekdil siyasi qüvvə kimi formalaşdı. Bu gün YAP-ın sıralarında birləşən 750 mindən artıq partiya üzvü Heydər Əliyev ideyalarına sadiq olduqlarını əməli fəaliyyətdə, cəbhədə, elm, mədəniyyət, iqtisadiyyat, təhsil sahələrində nümayiş etdirir.

Partiya son illər beynəlxalq əlaqələrini olduqca genişləndirib, dünyanın ən böyük siyasi qüvvələri ilə sağlam münasibətlər qurub. Ulu Öndərimizin xatirəsi daim əziz tutulur, o, hər an, hər saat hörmət və ehtiramla yad edilir.

Ulu Öndərimiz yüz illərlə irəlini görən, xalqının qüdrətinə, gücünə inanan, torpaqlarımızın azğın düşməndən təmizlənəcəyinə ümid bəsləyən dahi rəhbər idi. Onun fikirləri, düşüncələri bu günümüzə, Azərbaycanın tam suverenliyinə, xalqımızın parlaq qələbəsinə hesablanmaqla bərabər, həm də ölməz ideyaları gələcəyimizin yol göstərənidir.

2025-ci il xalqımızın tarixinə "Konstitusiya və Suverenlik İli" kimi daxil olub. Azərbaycanın hüquqi dövlət quruculuğu prosesində 12 noyabr 1995-ci ildə qəbul olunmuş Konstitusiyamızın əhəmiyyəti əvəzsizdir. Ali Qanunumuz bilavasitə Ulu Öndərimizin rəhbərliyi altında hazırlanmış və qəbul edilmişdir. Hakimiyyətin bölünməsi, insan hüquq və azadlıqlarının təminatı, qanunun aliliyi, cəmiyyətin ölkənin inkişafında rolunun artırılmasının Azərbaycanın hüquqi dövlət kimi formalaşmasına, tanınmasına böyük imkanlar yarada biləcəyinə Ulu Öndərimiz əmin idi və onun təşkilatçılığı ilə hazırlanan və yekdilliklə qəbul olunan Konstitusiyamızın müddəaları keçən illər ərzində bunu sübut etdi. Heydər Əliyev deyirdi: "Hər bir şəxs Konstitusiyaya, qanunlara dönmədən əməl etməlidir, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir".

Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Qarabağ regionunun inkişafına böyük diqqətlə yanaşıb. Sovetlər dövründə o, Qarabağa dəfələrlə səfərlər edib, ərazidə yerləşən rayonların təsərrüfat həyatı, mədəniyyəti, iqtisadiyyatı ilə əlaqədar çox mühüm tədbirlərin, layihələrin hazırlanıb həyata keçirilməsinə nail olub. Sovet dövründə Heydər Əliyevin qayğısı nəticəsində Qarabağ rayonları sürətlə inkişaf etmiş, iqtisadiyyatımıza, mədəniyyətimizə mühüm töhfələr vermişdir. Qarabağ torpaqları işğal olunandan sonra da Ulu Öndər daim şəhər və kəndlərimizin erməni təcavüzkarlarından təmizlənməsi üçün bütün səylərini sərf etmiş, dünyanın ən mötəbər tribunalarından haqq və ədalət səsini ucaltmışdır. Dahi rəhbər torpaqlarımızın işğaldan azad olunmasına tam əmin idi və Azərbaycanın suverenliyinə, qalib gələcəyinə inanırdı. O, hər an bu günümüzü görmək arzusu ilə yaşayırdı.

Bəli, indi Ulu Öndərin arzuları həqiqətə çevrilib. Ölkəmizin rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevin düşünülmüş siyasəti, qətiyyəti, ordumuzun gücü, xalqımızın qəhrəmanlığı və birliyi sayəsində Qarabağ torpaqları azaddır, erməni faşistləri məhv edilib, suverenliyimizi tam təmin etmişik. Qarabağ və Şərqi Zəngəzur torpaqları Ümummilli Liderin arzuladığı azad, inkişaf edən, çiçəklənən bir məkana çevrilir. Möhtəşəm quruculuq, tikinti, abadlıq işləri, həyata keçirilən proqram və layihələr Heydər Əliyev ideyalarından qaynaqlanır, onun vəsiyyətlərinin əyani nümunəsinə çevrilir. Belə bir dövrdə "Konstitusiya və Suverenlik İli"nin qeyd edilməsi böyük rəhbərin yubileyinə, adına ən böyük hörmət və ehtiramın ifadəsidir.

Heydər Əliyev yolu aydın məqsədlərə, nəcib amillərə, azadlığa, sülhə, dostluğa, qardaşlığa söykəndiyi üçün həmişə uğurlu olub. İndi bu yolu, bu amalları, əməlləri Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının, Ali Baş Komandanın ölkənin sosial-iqtisadi həyatındakı möhtəşəm uğurları, beynəlxalq aləmdə qazandığı nüfuz, xalqın rifahı, təhlükəsizliyi sahəsində həyata keçirdiyi tədbirlər, demokratiya, sülh və əmin-amanlıq, Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması sahəsində yorulmaz mübarizəsi ona dünyada və xalqımız arasında sonsuz hörmət və məhəbbət qazandırıb. Qarabağ torpaqlarının düşməndən azad olunmasında göstərdiyi fədakarlığa, siyasi iradəyə, vətənə, xalqa, torpağa sonsuz məhəbbətə görə cənab İlham Əliyev Azərbaycan tarixində, xalqın qəlbində əbədi ömür qazanıb.

*Prezident, Ali Baş Komandan 44 günlük müharibə, 23 saatlıq antiterror tədbirləri, erməni faşistlərinin ayaqlarının torpaqlarımızdan tamamilə kəsilməsi ilə, ordumuzun qəhrəmanlığı, xalqımızın fədakarlığı və birliyi ilə dünyaya sübut etdi ki, Azərbaycan Prezidenti müdrikdir, uzaqgörəndir, qətiyyətlidir və düşmənlərə qarşı amansızdır. Ona görə ki, İlham Əliyevin tutduğu yol Heydər Əliyev yoludur, ona qüvvət, inam verən Ulu Öndərin ideyaları, amalları, arzuları və vətəndaşların etimadı, sevgisidir.*

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***



# Uzaqgörənliyi ilə fərqlənən lider

**Heydər Əliyevin iki dəfə respublikanın rəhbəri olduğu 30 ildən artıq dövr Azərbaycanın çoxəsrlik tarixində böyük bir müddət deyil. Lakin bu dövr dövlətçiliyimizin və xalqımızın mənlik şüurunun formalaşmasında tarixi bir mərhələ təşkil etmişdir.**

Heydər Əliyev hakimiyyətə birinci gəlişi illərində iqtisadiyyatın bütün sahələrində köklü dəyişikliklər apardı. Kənd təsərrüfatı, yüngül və yeyinti sənayeləri, digər sahələr sürətlə inkişaf etdi, mühüm sosial dəyişikliklər həyata keçirildi, insanların güzəranı yaxşılaşdı.

1969-1982-ci illər xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, cəmiyyətdə yeni dünya baxışının yaranması, insanların öz qüvvə və imkanlarını dərk etməsi dövrünə çevrildi. İnsanlar naqislik kompleksi hissinə yaxın olan bir vəziyyətdən xilas oldu, özlərini daha inamlı hiss etməyə başladı, dəyərlər yüksəldi.

Heydər Əliyevin hakimiyyətə ikinci gəlişi isə Azərbaycanın müasir tarixində ən faciəli dövrdə - 1993-cü ildə baş vermişdi. Ölkədə vəziyyət günbəgün pisləşir, hakimiyyət iflic vəziyyətə düşürdü. Partiyalar, ictimai-siyasi hərəkatlar, nəhayət, bəzi imkanlı adamlar silahlı qruplar və qanunsuz silahlı birləşmələr yaradırdılar. Kriminal düşüncəli adamlar ağsaqqallıq etmək, dövlət orqanlarında rəhbər olmaq iddiasına düşür və hətta buna nail olurdular.

Azərbaycan müharibəni açıq-aşkar uduzurdu. Erməni silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin ələ keçirilməsi hamını çaşqın vəziyyətə salmışdı. Cəmiyyətdə müdafiəsizlik və yaşayışın mümkünsüzlüyü ovqatı kütləvi xarakter almışdı. Belə bir vəziyyətdə ölkənin Prezidenti dönə-dönə Heydər Əliyevə müraciət edərək Bakıya gəlməsini xahiş etdi.

15 iyul 1993-cü ildə Heydər Əliyev Azərbaycan Ali Sovetinin Sədri seçildi, bir neçə gündən sonra isə prezident Bakını tərk etdiyinə görə Milli Məclisin qərarına uyğun olaraq, hakimiyyəti bütünlüklə öz öhdəsinə götürdü.

Bununla da Azərbaycan tarixində Heydər Əliyev zəmanəsinin ən dinamik, gərgin və səmərəli dövrü başladı. Heydər Əliyevin nəhəng səyləri nəticəsində artıq başlanmış vətəndaş müharibəsinin alovları söndürüldü. Lənkəranda və Gəncədə tabelikdən çıxmış silahlı birləşmələr tərk-silah edildi.

Bundan sonra döyüş qabiliyyətinə malik ordu yaradılır və onun döyüş qüdrəti sayəsində atəşkəs sazişinin bağlanması mümkün olur.

Xəzər dənizinin neft və qaz ehtiyatlarının işlənməsi, yeni tranzit xətlərin çəkilməsi, böyük İpək yolunun bərpası və s. bu kimi layihələrin reallaşdırılması nəticəsində Azərbaycana beynəlxalq aləmdə siyasi və maliyyə marağı yaranır. Respublikamız dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilir.

Hələ Naxçıvanda Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının proqram sənədləri hazırlanmışdır. Müxalifət partiyası kimi yaradılan bu partiya qısa müddət ərzində respublikanın ən nüfuzlu siyasi təşkilatına çevrildi.

Heydər Əliyevin fəaliyyəti, gördüyü işlər haqqında hamımızda kifayət qədər məlumat var. Çoxlarımız Heydər Əliyevin dövrünü yaşamışıq və onun Azərbaycan xalqına və dövlətinə misilsiz əməyinin şahidiyik. İstər-istəməz sual yaranır - Ulu Öndərin zəngin, misilsiz fəaliyyətini onun hansı xüsusiyyətləri mümkün etmişdir? Mübaliğəsiz deyək ki, bu fəaliyyəti təmin edən onun dahiliyi olmuşdur. Bunu tək sovet dövründəki ölkə rəhbərləri deyil, hətta xarici dövlətlərdə də qeyd edirdilər.

Heydər Əliyev uzaqgörənliyi ilə fərqlənən siyasətçi idi. Hələ sovet dövründə Azərbaycanın inkişafını, müstəqilliyini görürdü və bu istiqamətdə lazımi tədbirlər həyata keçirirdi. Hətta 1978-ci ildə Azərbaycan Konstitusiyası qəbul olunanda Azərbaycan dilini dövlət dili kimi Əsas Qanunda əks etdirməyə nail olmuşdu. Əhalisi sayca Azərbaycandan daha çox olan bəzi respublika rəhbərləri buna qısqanclıqla yanaşmışdılar.

Sovet İttifaqının ən dinamik dövründə Heydər Əliyev Azərbaycanda hərbi lisey yaratdı və müvafiq orqanlar qarşısında məsələ qoydu ki, orduda xidmət edən azərbaycanlılar hərbi peşəyə mükəmməl yiyələnməlidirlər.

Heydər Əliyev 1978-1984-cü illərdə Dərin Özüllər Zavodunun Azərbaycanın Xəzər sektorunda tikilməsinə nail oldu. Bu, çox uzaqgörənliklə həyata keçirilən bir layihə idi. Zavodun Rusiyanın Həştərxan şəhərində tikilməsi nəzərdə tutulurdu, Heydər Əliyevin səyləri nəticəsində ittifaq fondunun maliyyəsi ilə zavod Azərbaycanda tikildi. Zavodun tikintisi 1980-ci illərdə tamamlanmasaydı, böyük çətinliklərlə rastlaşardıq və ölkəmizə neftdən gələn gəlirin miqdarı xeyli az olardı, neft kontraktlarının bağlanması da ləngiyərdi.

Biz hamımız neft müqavilələrinin Azərbaycanın inkişafına müsbət təsirinin və beynəlxalq aləmdə tanınmasında önəmli rol oynamasının şahidiyik.

Heydər Əliyev xalqını özünün dahilik səviyyəsində görmək istəyirdi. Sovet dövründə Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanın minlərlə vətəndaşı SSRİ-nin tanınmış ali təhsil məktəblərində elmə-peşəyə yiyələndilər. Tanınmış təsərrüfat işçiləri, elm və mədəniyyət xadimləri yüksək ordenlərlə təltif olundular. Azərbaycanın məşhur dirijoru SSRİ-nin Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Maestro Niyazi Sovet İttifaqında bu yüksək ordenə layiq görülmüş yeganə insan idi və bu məsələ müzakirə olunanda Ukraynanın odövrkü rəhbəri qısqanclıqla iddia edirdi ki, necə ola bilər SSRİ-də və o cümlədən Ukraynada tanınmış dirijorlar var, lakin onların heç biri belə yüksək mükafata layiq görülməyiblər. O zaman həmin dövlət başçısı Heydər Əliyevdən vəzifəcə yuxarı idi. Lakin Heydər Əliyev bu məsələdə də təmkinlik göstərərək izah etmişdi ki, o, heç elə demək istəmir ki, SSRİ-də bu yüksək ada layiq olan dirijor yoxdur.

Heydər Əliyevin ən ağır məqamlarda çıxış yolu tapmaq, qarşı tərəflə razılıq əldə etmək qabiliyyəti xüsusi qeyd edilməlidir. 1993-cü ildə ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdanda qonşu ölkələrlə münasibət gərgin vəziyyətdə idi. Neft müqavilələrinin müzakirəsi ərəfəsində Rusiya xarici işlər nazirinin müavini mətbuatda çıxış edərək demişdir: "Azərbaycan Xəzər dənizinin özünün hesab etdiyi sektorunda Rusiya müvafiq qurğu qoyub neft hasil etsə, məgər Azərbaycan Rusiya ilə müharibə aparacaq?" Bu, açıq şəkildə Azərbaycana qarşı olan düşmənçilik mövqeyi idi. Ancaq Heydər Əliyevin səyləri sayəsində bu gərginlik aradan götürüldü və neft müqaviləsi imzalandı. Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində qonşu ölkələrlə olan gərginlik aradan qaldırıldı.

Ulu Öndərin ən böyük nailiyyətlərindən biri ondan ibarətdir ki, müəllifi olduğu siyasi, iqtisadi və sosial kursun səmərəli davamlılığına özündən sonra da nail olundu. Bu kursun Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi xalqımızı möhtəşəm qələbəyə gətirdi.

*Heydər Əliyevin dərin zəkası və siyasi duyumu ilə mərdliyi, cəsarəti, əzmkarlığı və çevikliyi üzvi surətdə birləşmişdi. Bütün varlığı vətənə məhəbbətlə yoğrulmuşdu, gücünü xalqdan alırdı. Xalq da Heydər Əliyevə sonsuz sevgisi və sədaqəti ilə cavab verirdi.*

*Bu barədə Heydər Əliyev gözəl demişdi: "...xalq mənə ümid bəsləyir. Mən də bu ümidi doğrultmaq üçün həyatımın qalan hissəsini xalqa bağışlamışam və ona qurban verməyə hazıram". Belə də oldu. Heydər Əliyev həyatını xalqına bağışladı.*

**Arif RƏHİMZADƏ,**
***Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının sədri, İdarə Heyətinin üzvü***

1923 Azərbaycanın özü qədər əbədi 2025

# Dövlətçilik, dəyərlər və gənclik

**Azərbaycan tarixində elə şəxsiyyətlər var ki, onların adı və fəaliyyəti xalqın taleyində dönüş nöqtəsi olmuş, dövlətçilik və milli şüurun formalaşmasında həlledici rol oynamışdır. Belə şəxsiyyətlərin ən öncülü müasir və müstəqil Azərbaycanın banisi Ümummilli Lider Heydər Əliyevdir.**

1991-ci ildə Sovet İttifaqının süqutu ilə Azərbaycan formal müstəqillik əldə etsə də, bu illər, əslində, xalq üçün həm ümidi, həm də dərin narahatlıqları bir araya gətirən dönəm idi. Siyasi qeyri-sabitlik, idarəetmədə xaos, ordu quruculuğunun yoxluğu, iqtisadi tənəzzül və Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın işğalı ölkəni fəlakət astanasına gətirmişdi. Bu dönəmdə xalqın içində ümidsizlik, rəhbərlikdə isə acizlik hökm sürürdü.

Belə ağır vəziyyətdə xalqın gözü və ümidləri yalnız bir şəxsə - Heydər Əliyevə yönəlmişdi. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə Heydər Əliyev siyasi hakimiyyətə qayıtdı. Bu qayıdış təkcə bir liderin geri dönməsi deyil, bir dövlətin yenidən doğulması idi. Ulu Öndər dərhal ciddi və prinsipial islahatlara başladı, daxili sabitliyi bərpa etdi və dövlətçiliyin əsaslarını möhkəmləndirdi. Heydər Əliyevin müdrikliyi və siyasi təcrübəsi sayəsində Azərbaycan daxili qarşıdurmalardan qurtuldu. O, qətiyyətli qərarları ilə vətəndaş müharibəsinin qarşısını aldı, separatçı meylləri boğdu və vahid idarəçilik sistemini bərqərar etdi.

Heydər Əliyev müstəqil dövlət quruculuğunun ilk və önəmli şərtlərindən biri kimi hüquqi əsasların yaradılmasına olduqca önəm verirdi. Siyasi sabitliyin, iqtisadi inkişafın və cəmiyyətin rifahının təməli üçün hüquqi sistemin tamamilə yenidən qurulması olduqca vacib idi. Bunun nəticəsi idi ki, Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Bu Konstitusiya ölkədə hakimiyyət bölgüsünü - qanunverici, icraedici və məhkəmə hakimiyyəti arasında tarazlığı təmin edən, insan hüquq və azadlıqlarının təminatçısı olan əsas hüquqi sənəd idi. Heydər Əliyev Konstitusiyanın qəbulu ilə dövlətin hüquqi, siyasi və sosial təməllərini möhkəmləndirməklə yanaşı, beynəlxalq hüquq normalarına uyğun bir dövlət idarəetmə modeli yaratdı.

Ulu Öndər üçün dövlət quruculuğu təkcə dövlətin hüquqi və iqtisadi əsaslarının təşkili ilə məhdudlaşmırdı. Onun rəhbərlik fəlsəfəsində dövlətçiliyin əsas sütunlarından biri də milli dəyərlərin qorunması idi. Ulu Öndərin şəxsiyyətində təcəssüm edən liderlik modeli - intizam, məsuliyyət, xalqla səmimi ünsiyyət və şəffaflıq prinsipləri yeni dövrün rəhbərlik üslubunu formalaşdırdı. Onun çıxışları, qərarları və davranışı hər zaman xalqına və ölkəsinə olan böyük sevgini əks etdirirdi.

Heydər Əliyev Azərbaycan xalqının tarixinin, mədəniyyətinin və milli adət-ənənələrinin təbliğini daim vacib sayır və yüksək qiymətləndirirdi. Ümummilli Liderin təşəbbüsü və himayəsi ilə milli-mənəvi dəyərlərin qorunması, Azərbaycan dilinin inkişafı, tariximizin obyektiv və milli maraqlar prizmasından təbliği istiqamətində əhəmiyyətli addımlar atıldı. O, mədəni irsi dövlətin möhkəm dayaqlarından biri kimi qəbul edir, milli ruhun gücləndirilməsinin dövlətin suverenliyinin qorunmasında əhəmiyyətli rol oynadığına inanırdı. O, yaradıcı insanlara, ziyalılara, elm və mədəniyyət xadimlərinə yüksək dəyər verir, onların cəmiyyətin formalaşmasındakı rolunu xüsusilə vurğulayırdı.

Heydər Əliyev Azərbaycanın gələcəyinin gənclərlə bağlı olduğunu daim vurğulamış, bu istiqamətdə məqsədyönlü, ardıcıl və sistemli dövlət siyasəti formalaşdırmışdı. Onun baxışında gənclər təkcə sosial proseslərin iştirakçıları deyil, həm də dövlətin tərəqqisinin, ictimai həyatın hər bir sahəsində yeniliyin və dinamik inkişafın əsas daşıyıcıları idi. Ulu Öndər gənclər siyasətinin fundamental əsaslarını qoyaraq gənclərin fiziki, intellektual, mənəvi və vətənpərvər inkişafını prioritet sahələrdən biri elan etmişdi. O, vətənpərvərlik, milli şüur və mədəniyyətə hörmət prinsiplərinin gənc nəslə aşılanmasını zəruri sayırdı.

Heydər Əliyevin təməlini qoyduğu gənclər siyasəti bu gün Azərbaycanın bütün uğurlarında öz rolunu oynayır. Azərbaycan gəncliyi Heydər Əliyevin ideyalarına sadiq qalaraq, dövlətçiliyin, müstəqilliyin və milli birliyin keşiyində durur.

Ulu Öndərin əsasını qoyduğu dövlətçilik məktəbinin və siyasi irsin davam etdirilməsi müasir Azərbaycanın inkişafında həlledici rol oynamışdır. Bu böyük mirasın layiqli davamçısı Prezident İlham Əliyev milli maraqlara əsaslanan, müstəqilliyi və suverenliyi daim qoruyan, praqmatik və uzaqgörən siyasəti ilə Azərbaycanı müasir, güclü və nüfuzlu bir dövlətə çevirmişdir. Onun liderliyi təkcə daxili siyasətdə deyil, həm də qlobal miqyasda Azərbaycanın nüfuzunu möhkəmləndirmiş, ölkəni regional və beynəlxalq arenada etibarlı tərəfdaşa çevirmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi fəaliyyət sabitlik, davamlı inkişaf və milli maraqların qorunması prinsipinə söykənir. Enerji təhlükəsizliyi, iqtisadi inkişaf, ordu quruculuğu və bir çox sahədə əldə olunan uğurlar bu uzaqgörən liderliyin bariz nəticələridir. Ölkəmizdə həyata keçirilən strateji layihələr Azərbaycanın geosiyasi və geoiqtisadi əhəmiyyətini ən yüksək səviyyəyə qaldırmışdır. Xalqımızın və ölkəmizin tarixində ən mühüm məqam isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi möhtəşəm qələbədir. Bu qələbə təkcə hərbi və siyasi deyil, həm də mənəvi qələbədir - Azərbaycan xalqının gücünün, birliyinin və haqq işinin təntənəsidir. Müzəffər Ali Baş Komandan həm diplomatik cəbhədə, həm də cəbhə xəttində nümunəvi liderlik göstərmiş, xalqla ordu arasında sarsılmaz birliyi təmin etmişdir.

Prezident İlham Əliyevin liderliyi milli maraqları və dövlət suverenliyini uca və üstün tutan, xalqın iradəsinə dayanan güclü və qətiyyətli idarəçilik modelinə əsaslanır. Onun çıxışlarında və siyasi qərarlarında daim bir prinsip ön plandadır: "Güclü dövlət - güclü xalq". Bu gün Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrik liderliyi nəticəsində həm siyasi, həm iqtisadi, həm də hərbi baxımdan özünün ən qüdrətli dövrünü yaşayır. Bu, yalnız texniki və maddi göstəricilərlə ölçülə biləcək bir inkişaf deyil - bu eyni zamanda xalqın dövlətinə olan inamının və Liderinə olan etibarının təntənəsidir.

Heydər Əliyev siyasi irsi təkcə bir dövrün deyil, bütöv bir gələcəyin ideoloji və strateji xəritəsini müəyyənləşdirən milli xəzinədir. Bu irs müasir Azərbaycanın siyasi, hüquqi, iqtisadi və mədəni bünövrəsinin sütunlarını təşkil etməklə yanaşı, gələcək nəsillər üçün də əvəzolunmaz dəyərlər sisteminə çevrilmişdir. Ulu Öndərin hər bir fikri, uzaqgörən qərarları və milli maraqlara əsaslanan fəaliyyət xətti gələcəyin yol xəritəsini müəyyən edən ideoloji əsas rolunu oynayır.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Ulu Öndərin ideyalarının qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm işlər görür. Fondun həyata keçirdiyi humanitar, mədəni və təhsil layihələri Azərbaycan cəmiyyətində milli-mənəvi dəyərlərin möhkəmlənməsinə, sosial rifahın yüksəlməsinə və vətəndaş həmrəyliyinin güclənməsinə xidmət edir. Mehriban xanım Əliyevanın yüksək humanist dəyərlərə əsaslanan fəaliyyəti Ulu Öndərin mirasının yaşadılmasında və beynəlxalq səviyyədə tanıdılmasında mühüm rol oynayır.

*Heydər Əliyev irsi yalnız xatirələrdə deyil, əməllərdə yaşayır. Bu fəaliyyət gənclərin təşəbbüskarlığında, dövlətin davamlı inkişaf strategiyalarında, cəmiyyətin birlik və həmrəylik ruhunda öz əksini tapır. Bugünkü Azərbaycan güclü iqtisadiyyatı, nüfuzlu xarici siyasəti, qalib ordusu və dayanıqlı idarəçilik sistemi ilə bu mirasın canlı təcəssümüdür.*

**Bəxtiyar İSLAMOV,**
***YAP Gənclər Birliyinin sədri***



# "Sağlam xalq güclü dövlətin təməlidir"

## Heydər Əliyev müstəqil Azərbaycan dövləti üçün yeni bir səhiyyə strategiyası formalaşdırıb

**Hər bir xalqın tarixində elə şəxsiyyətlər var ki, onların adı zamanla ölçülməz, əməlləri illərə deyil, əsrlərə bərabər olar. Məhz belə şəxsiyyətlərdən biri müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dahi siyasətçi və müdrik dövlət başçısı Heydər Əliyevdir.**

Azərbaycan xalqı hər il Ulu Öndərin doğum gününü böyük ehtiramla yad edir. Çünki 10 may yalnız Ulu Öndərin doğum günü deyil, eyni zamanda Azərbaycanın qürur və dövlətçilik salnaməsinin də yenidən yazılmağa başladığı tarixdir.

Azərbaycanın müasir tarixində dərin izlər qoyan, yeni dövlətçilik ideyalarının müəllifi olan Ümummilli Lider Heydər Əliyev yalnız siyasi arenada deyil, sosial-iqtisadi və humanitar sahələrdə də mühüm islahatlara imza atıb. Onun fəaliyyəti təkcə ölkənin siyasi sabitliyini təmin etməklə kifayətlənməmiş, eyni zamanda xalqın rifah halının yüksəldilməsinə, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə və sağlam həyat tərzinin formalaşdırılmasına da yönəlmişdi. Bu mənada səhiyyə sahəsi Heydər Əliyevin xüsusi diqqət ayırdığı, strateji əhəmiyyət daşıyan sahələrdən biri kimi önə çıxmışdır.

Səhiyyə - istənilən dövlətin sosial dayaqlarından biri olmaqla yanaşı, cəmiyyətin sağlam inkişaf səviyyəsinin də göstəricisidir. Azərbaycanın ən mürəkkəb siyasi-ictimai mərhələlərdən keçdiyi dövrlərdə belə Ümummilli Lider bu sahənin inkişafını daim prioritet vəzifələr sırasında saxlamışdı. Həm sovet dövründə respublikaya rəhbərlik etdiyi illərdə, həm də Azərbaycanın müstəqillik dönəmində Heydər Əliyevin səhiyyə siyasəti dərin strateji baxışı və humanist yanaşması ilə seçilirdi.

Heydər Əliyev üçün Azərbaycan insanının sağlamlığı, rifahı və həyat keyfiyyəti əsas prinsiplərdən biri idi. O, dəfələrlə vurğulayırdı: "İnsan sağlamlığı - cəmiyyətin əsas sərvətidir". Bu yanaşma təkcə sözlərlə deyil, konkret addımlar və ardıcıl tədbirlərlə reallığa çevrilmiş, onun rəhbərliyi ilə səhiyyə sahəsində həyata keçirilən islahatlar uzunmüddətli və dayanıqlı inkişafın bünövrəsini formalaşdırmışdır.

Heydər Əliyevin səhiyyə siyasəti təkcə keçmişin deyil, həm də bu günün və gələcəyin sağlam cəmiyyətinin təminatına yönəlmiş böyük dövlətçilik nümunəsidir.

### Sağlam cəmiyyət güclü dövlətin əsasıdır

14 iyul 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə respublikanın ictimai-siyasi, sosial və iqtisadi həyatında yeni bir mərhələ başlandı. Həmin dövr Azərbaycanda səhiyyənin vəziyyəti ozamankı tələblərə cavab vermirdi: infrastruktur köhnəlmişdi, bölgələrdə tibbi xidmətin səviyyəsi aşağı idi, ixtisaslı tibbi kadr çatışmazlığı ciddi hiss olunurdu. Bu reallıqlar həyata keçirilən köklü islahatların zəruriliyini ortaya qoyurdu.

Belə bir dövrdə Heydər Əliyevin uzaqgörənliyi və sosial siyasətə verdiyi önəm nəticəsində Azərbaycanın səhiyyə sistemi yenidən formalaşmağa başladı. Ulu Öndər səhiyyənin yalnız müalicəyönümlü deyil, həm də profilaktik xarakterli bir sistemə çevrilməsini əsas hədəf kimi müəyyənləşdirmişdi. Bu məqsədlə respublikada yeni xəstəxanalar, poliklinikalar, sanatoriyalar və digər tibbi müəssisələr inşa edildi, mövcud səhiyyə ocaqları əsaslı şəkildə təmir olundu, onların maddi-texniki bazası müasirləşdirildi. 1970-1980-ci illər ərzində Azərbaycanın şəhər və kəndlərində yüzlərlə yeni tibb müəssisəsi istifadəyə verildi ki, bu da əhalinin tibbi xidmətlərə çıxış imkanlarını xeyli genişləndirdi. Səhiyyə üçün ayrılan dövlət xərclərinin həcmi bu illər ərzində təxminən 2,5 dəfə artdı.

Bununla yanaşı, Heydər Əliyev səhiyyə sistemində kadr potensialının gücləndirilməsini də əsas prioritetlərdən biri kimi müəyyən etmişdi. Onun təşəbbüsü ilə Azərbaycan Tibb İnstitutu üçün yeni tədris korpusları tikildi, tibbi kadrların hazırlanması və ixtisasartırma imkanları genişləndirildi. Gənc mütəxəssislərin Sovet İttifaqının nüfuzlu tibb mərkəzlərində təcrübə keçməsi üçün şərait yaradıldı. Bu addımlar nəticəsində respublikamızda yüksəkixtisaslı həkimlərin və orta tibb işçilərinin sayı əhəmiyyətli dərəcədə artdı.

Profilaktik tədbirlərin genişləndirilməsi, sanitar-gigiyenik maarifləndirmə işinin gücləndirilməsi, uşaqlar və qadınlar üçün xüsusi tibbi xidmətlərin təşkili kimi məsələlər də diqqət mərkəzində saxlanılırdı. Uşaq bağçaları və məktəblərdə müntəzəm tibbi baxışlar keçirilir, infeksion xəstəliklərin qarşısının alınması üçün peyvəndləmə tədbirləri sistemli şəkildə aparılırdı.

Heydər Əliyevin bu dövrdə atdığı addımlar nəticəsində Azərbaycan SSR ümumittifaq miqyasında səhiyyənin inkişaf səviyyəsinə görə qabaqcıl respublikalar sırasına yüksəldi. Çünki Ulu Öndər sovet dönəmində milli maraqlara sadiq bir siyasət yürüdürdü. Bu siyasət iqtisadiyyatdan tutmuş elmə, sənayedən mədəniyyətə, kadr siyasətindən tibb sisteminə qədər bütün istiqamətləri əhatə edirdi. Azərbaycanın ən həssas və ən çox qayğıya ehtiyac duyan sahələrindən olan səhiyyədə məhz Heydər Əliyevin siyasi iradəsi, qayğısı və prinsipial yanaşması sayəsində yenidən dirçəldi. Ulu Öndər əbəs yerə dəfələrlə vurğulamırdı ki, insanın saglamlığı dövlətin məsuliyyətidir.

Bütün bu nailiyyətlər məqsədyönlü, ardıcıl və elmi əsaslara söykənən siyasətin təzahürü idi. Məhz bu zamanda qoyulan təməl sonrakı illərdə - müstəqillik dövründə də sağlamlıq sisteminin inkişafı üçün dayanıqlı baza rolunu oynadı.

### Müstəqil Azərbaycan və yeni səhiyyə strategiyası

1990-cı illərin əvvəlləri Azərbaycan üçün həm siyasi, həm də sosial-iqtisadi baxımdan son dərəcə mürəkkəb və ağır bir dövr idi. Ölkədə hökm sürən siyasi xaos, iqtisadi tənəzzül, Ermənistan-Azərbaycan müharibəsinin doğurduğu humanitar fəlakət və kütləvi məcburi köçkünlük səhiyyə sistemini də dərin böhran vəziyyətinə salmışdı. Dərman təminatı zəifləyən, tibbi avadanlıqları sıradan çıxan səhiyyə sahəsi daha ağır bir sınaqla üz-üzə idi - illərlə formalaşan ixtisaslı kadrlar xaricə üz tutmağa başlamışdı.

Hər bir sahədə olduğu kimi, səhiyyə sahəsi də tənəzzülə doğru gedirdi. Belə bir ağır şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü ildə Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı ölkənin həyatında dönüş nöqtəsi oldu. O, dövlət idarəçiliyini yenidən bərpa etməklə yanaşı, səhiyyə sahəsinin də xilası üçün təxirəsalınmaz tədbirlər həyata keçirməyə başladı.

Heydər Əliyev müstəqil Azərbaycan dövləti üçün yeni bir səhiyyə strategiyası formalaşdırdı. Bu strategiyanın əsasını milli maraqlara əsaslanan, insan amilini önə çəkən və beynəlxalq təcrübəni nəzərə alan yanaşma təşkil edirdi. İlk mərhələdə səhiyyə infrastrukturunun bərpası və tibbi xidmətlərin əhaliyə əlçatanlığının təmin edilməsi istiqamətində addımlar atıldı. Maliyyə vəsaitlərinin son dərəcə məhdud olduğu bir dövrdə belə dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitin artırılması təmin olundu. Respublikanın bir çox bölgəsində yeni xəstəxanalar, doğum evləri, poliklinikalar tikildi, mövcud müəssisələr əsaslı şəkildə təmir olundu və müasir tibbi avadanlıqlarla təchiz olundu.

Eyni zamanda dərman təchizatı sistemində köklü dəyişikliklər edildi. Xarici ölkələrlə əməkdaşlıq çərçivəsində ölkəyə yüksəkkeyfiyyətli dərman vasitələrinin idxalı təmin olundu, tibbi cihaz və texnologiyalar yeniləndi. Səhiyyə sahəsinə xarici investisiyaların cəlb edilməsi istiqamətində hüquqi bazanın formalaşdırılması da bu dövrdə aparılan islahatların mühüm tərkib hissəsinə çevrildi.

Müstəqillik dövründə səhiyyə sahəsindəki ən mühüm nailiyyətlərdən biri də ana və uşaq sağlamlığının qorunmasına dair tədbirlərin genişləndirilməsi oldu. Xüsusilə gənc ailələrə, hamilə qadınlara və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyəti yüksəldildi, doğum və uşaq xəstəxanalarının şəbəkəsi genişləndirildi. Ölkədə infeksion xəstəliklərə qarşı genişmiqyaslı peyvənd kampaniyaları aparıldı və bir sıra xəstəliklər üzrə epidemioloji vəziyyət nəzarət altına alındı.

Bütün bu islahatların mərkəzində bir ideya dayanırdı: sağlam cəmiyyət qurmaq. Heydər Əliyev inamla bildirirdi: "Güclü dövlətin təməli sağlam və savadlı vətəndaşdır." Onun bu yanaşması müstəqil Azərbaycanın səhiyyə siyasətinin əsasını təşkil etdi və illər keçsə də, həmin prinsiplər bu gün də aktual olaraq qalır.

Bütün bu işlərin fövqündə isə ilk növbədə səhiyyə sahəsində milli qanunvericilik bazasının yaradılması dururdu. Heydər Əliyev dövlət başçısı kimi sağlamlığın qorunmasını fundamental insan hüquqlarından biri kimi dəyərləndirir və bu istiqamətdə hüquqi mexanizmlərin formalaşdırılmasına xüsusi əhəmiyyət verirdi.

### Yeni səhiyyə sistemi mütərəqqi qanunvericilik bazası tələb edirdi

1990-cı illərin ortalarından başlayaraq, Ümummilli Liderin təşəbbüsü və siyasi iradəsi ilə səhiyyə sahəsində əsaslı qanunvericilik islahatlarına start verildi.

Ən mühüm sənədlərdən biri - 26 iyun 1997-ci ildə qəbul olunmuş "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu oldu. Bu sənəd səhiyyə sahəsində ilk sistemli və mütərəqqi qanun kimi yadda qaldı. Qanunda Azərbaycan vətəndaşlarının sağlamlıq hüquqları, dövlətin bu sahədə məsuliyyəti, tibbi yardımın növləri və təşkili, sanitariya nəzarəti, profilaktika, icbari və könüllü tibbi sığorta, habelə özəl səhiyyə müəssisələrinin fəaliyyəti kimi məsələlər ətraflı şəkildə öz əksini tapdı. Bu sənəd səhiyyə sektorunun bazar iqtisadiyyatı şəraitinə uyğun inkişaf etməsinə imkan verdi və idarəetmənin hüquqi əsaslarını formalaşdırdı.

Bununla yanaşı, bir çox mühüm qanun və normativ sənəd də məhz Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq qəbul edildi:

"Sanitar-epidemioloji salamatlıq haqqında" qanun. Bu qanun ölkədə sanitariya və epidemioloji nəzarət sahəsində fəaliyyətin hüquqi əsaslarını müəyyənləşdirdi.

"Donorluq və qan komponentləri haqqında" qanun - təhlükəsiz qan dövriyyəsini və donorluğun təşkili qaydalarını tənzimlədi.

"Psixi sağlamlıq yardımı haqqında" qanun - psixi xəstələrin hüquqlarını qoruyan və bu sahədə etik normaları müəyyən edən mühüm sənəd oldu.

"İnsan orqan və toxumalarının transplantasiyası haqqında" qanun - bu sahədə tibbi və hüquqi normaları tənzimləyən ilk milli qanunvericilik aktlarından biri kimi mühüm əhəmiyyət daşıdı.

Sadalanan qanunlar həmin dönəmdə görülən işlərin sadəcə bir qismi idi. Ümumiyyətlə, Ulu Öndərin "Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 13 mart 1998-ci il tarixli sərəncamı səhiyyənin bütün sahələrində islahatların daha geniş və daha sürətli aparılmasına şərait yaratdı. Keçid dövrü ərzində səhiyyədə mütərəqqi dəyişikliklərin edilməsi və yeni səhiyyə sisteminin yaradılması məqsədilə 1994-cü ilin dekabrında ölkə prezidenti və UNICEF rəhbərliyi "Əməkdaşlıq Proqramı" imzaladı. İslahatların əsas nailiyyətlərindən biri gələcəkdə özəl səhiyyə sisteminin və sığorta sisteminin tətbiq edilməsindən ibarət oldu. Bu istiqamətlərdə normativ-hüquqi baza yaradıldı, "Özəl tibbi fəaliyyət haqqında" qanun qüvvəyə mindi, eləcə də "Tibbi sığorta haqqında" qanun qəbul edildi.

Bu qanunvericilik aktlarının hazırlanması və həyata keçirilməsi nəticəsində Azərbaycan səhiyyə sistemi yeni bir mərhələyə qədəm qoydu. Heydər Əliyev bu sahədə müasir və beynəlxalq standartlara cavab verən hüquqi bazanın formalaşmasına şəxsən rəhbərlik edir, bir çox hallarda bu qanunların ideya müəllifi kimi də çıxış edirdi. Ulu Öndər səhiyyə ilə bağlı qəbul edilən hər bir qanunu sadəcə hüquqi sənəd deyil, insan həyatına və rifahına yönəlmiş bir dövlət qayğısı kimi dəyərləndirirdi. Bu baxımdan Heydər Əliyevin səhiyyə sahəsində qanunvericilik təşəbbüsləri təkcə bir dövrün ehtiyaclarını deyil, eyni zamanda gələcək nəsillərin sağlamlığını da təmin etməyə yönəlmiş strateji qərarlar idi.

### "Həkim olmaq təkcə peşə deyil, bu, ali bir missiyadır"

Ulu Öndərin imzaladığı qanunlardan birini xüsusilə vurğulamaq istərdik. 17 iyun 1918-ci ildə Şərqdə ilk demokratik ölkə olan Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təşkil edilən Səhiyyə Nazirliyinin yaranma tarixi şərəfinə 17 İyun günü 2001-ci ildə Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Tibb İşçilərinin Peşə Bayramı Günü elan edildi. Həmin il peşə bayramı ərəfəsində Heydər Əliyevin tibb işçilərinə göndərdiyi ilk təbrik məktubunda deyilirdi: "Tibbin insan cəmiyyəti ilə yaşıd olan bir tarixi var və siz də bütün fəaliyyətinizi bu sahə ilə bağlayaraq, həyatınızı olduqca qədim, nəcib və xeyirxah bir işə - insanların sağlamlığının qorunması işinə həsr etmisiniz".

Bir məqamı da xüsusi olaraq vurgulamaq yerinə düşər. 2000-ci ildə Heydər Əliyevin göstərişi ilə Azərbaycan Tibb Universitetinin nəzdində strateji əhəmiyyət daşıyan Hərbi-tibb fakültəsi yaradıldı. Çox keçmədi ki, Qarabag ugrunda haqq savaşımızda həmin fakültənin məzunları olan qəhrəman həkimlərimizin fədakar əməyinin şahidi olduq.

Azərbaycan səhiyyə sisteminin inkişafını daim prioritet istiqamət kimi qiymətləndirən Ulu Öndər bir sıra tibb müəssisələrinin bünövrəsinin qoyulmasında, o cümlədən Azərbaycan Tibb Universitetinin yeni tədris korpuslarının, Naxçıvan Muxtar Respublikasında bir neçə səhiyyə ocağının, eləcə də əsaslı yenidənqurma işlərindən sonra Respublika Diaqnostika Mərkəzinin açılışında şəxsən özü iştirak edib.

"Həkim olmaq təkcə peşə deyil, bu, ali bir missiyadır. İnsan həyatını xilas etmək, onu qorumaq - bu, ən müqəddəs vəzifədir" söyləyən Ulu Öndər səhiyyə işçilərinin fəaliyyətinə hər zaman yüksək dəyər verərək onların cəmiyyətin sağlamlığının qorunmasındakı rolunu xüsusi vurgulayırdı. Heydər Əliyev bir çox çıxışında həkimlərin məsuliyyətini yalnız peşə borcu ilə deyil, həm də mənəvi və vicdani vəzifə kimi xarakterizə edirdi: "Sizin peşəniz elə bir peşədir ki, hər bir insan üçün vacibdir və dünyanın hər bir yerində lazımdır. Bu, sizin kimi adamlar üçün böyük xoşbəxtlikdir. Çünki siz hamıya, hər bir vətəndaşa, cəmiyyətə, dövlətə lazımsınız. Ona görə də sizin sahəniz çox dəyərli sahədir, xalq, cəmiyyət, ölkə, dövlət üçün çox vacib sahədir".

Heydər Əliyevin səhiyyə sahəsinə dərindən bağlılığının daha bir danılmaz səbəbi də var - onun ömür-gün yoldaşı, tanınmış alim-oftalmoloq Zərifə Əliyeva. Zərifə xanım oftalmologiya sahəsində SSRİ miqyasında ilk kompleks elmi araşdırmalar aparan alim kimi tanınırdı. Onun əsərləri iqlim, istehsalat və texniki faktorların insan gözünə təsirinin elmi təhlili baxımından əvəzsizdir. 170-dən çox elmi məqalə, 12 monoqrafiya müəllifi olan Zərifə xanımın nailiyyətlərini Heydər Əliyev hər zaman yüksək qiymətləndirirdi, onunla fəxr edirdi. SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilmiş ilk azərbaycanlı qadın oftalmoloq olan Zərifə xanımın elmi fəaliyyəti Azərbaycanda oftalmologiya sahəsində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Onun təşəbbüsü və rəhbərliyi ilə bir sıra müəssisələrdə göz xəstəliklərinin erkən diaqnostikası və profilaktikası məqsədilə xüsusi kabinetlər yaradıldı.

Heydər Əliyev hər zaman Zərifə xanımın elmi uğurlarına qürurla yanaşaraq, onun əzmini, zəhmətini və müdrikliyini ictimaiyyətə bir örnək kimi təqdim edirdi. Çünki Zərifə xanımın uğurları təkcə onun ailəsi üçün deyil, bütün Azərbaycan üçün qürur mənbəyi idi.

Heydər Əliyevin milli səhiyyə siyasəti onun müəyyən etdiyi sosialyönümlü dövlət quruculuğu strategiyasının ayrılmaz tərkib hissəsi olaraq, bu gün də uğurla davam edir. Prezident İlham Əliyev Ulu Öndərin müəyyən etdiyi səhiyyə siyasətini dövrün çağırışlarına uyğun şəkildə inkişaf etdirir. Ölkədə səhiyyənin rəqəmsallaşdırılması, icbari tibbi sığortanın tətbiqi, regionlarda yüksəksəviyyəli tibb mərkəzlərinin yaradılması və əhalinin bütün təbəqələrinin tibbi xidmətə əlçatanlığının artırılması bu strategiyanın yeni mərhələdə reallaşmasıdır.

*Bununla yanaşı, Heydər Əliyev Fondu xəstələrin birbaşa qayğı mərkəzinə çevrilib. Fondun həyata keçirdiyi minlərlə əməliyyat, müalicə və humanitar layihə Heydər Əliyev irsinin təkcə siyasi deyil, həm də mənəvi gücünü göstərir. Ümummilli Liderin özünün də dediyi kimi: "Biz elə bir dövlət qurmalıyıq ki, burada hər bir insanın sağlamlığı dövlətin qayğısı altında olsun. Sağlam xalq güclü dövlətin təməlidir".*

**Afət HƏSƏNOVA,**
***tibb üzrə fəlsəfə doktoru***

Heydər Əliyev Fondu

# Xeyirxahlıq və mərhəmət ünvanı








# Heydər Əliyev Fondu Ümummilli Liderin ideyalarını öz fəaliyyətində rəhbər tutur

**Adı dünyanın hər yerində hörmətlə anılan Heydər Əliyev Fondu 21 il bundan əvvəl müstəqil dövlətimizin qurucusu Ümummilli Liderin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, o böyük şəxsiyyətin zəngin mənəvi irsini əks etdirmək, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən yaradılıb.**

Heydər Əliyev Fondu xalqımızın milli-mədəni və mənəvi dəyərlərinin qorunub saxlanılmasına, onların təbliğinə, gənclərlə işbirliyinə, təhsilin və səhiyyənin inkişafına böyük töhfələr verir. Şəhər və rayonlarda, eləcə də son beş ildə erməni işğalından azad edilmiş Qarabağ bölgəsində xalqımızın sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş dəyərli tədbirlər həyata keçirir. Azərbaycan mədəniyyətini və tarixini ölkəmizdə, habelə dünyada geniş tanıdır. Fond təsis edildiyi ilk gündən multikultural mühitin, tolerantlığın və dinlərarası münasibətlərin inkişafına xüsusi önəm verir. Həyatın bütün sahələrində irimiqyaslı layihələr həyata keçirir, insanlara, ehtiyacı olanlara kömək əlini uzadaraq, onlara sevinc bəxş edir.

Odur ki, Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyeva bu gün Azərbaycanla yanaşı, ölkə hüdudlarından uzaqlarda da insanların böyük sevgisini qazanıb. Təsadüfi deyil ki, cəmiyyətdə ənənəvi dəyərlərin qorunub saxlanmasına, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına verdiyi töhfələrə görə Mehriban xanım Əliyeva bir neçə gün bundan öncə Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillin fərmanına əsasən, Rus Pravoslav Kilsəsinin I dərəcəli "Müqəddəs Knyaginya Olqa" ordeninə layiq görülmüşdür.

Bu həm də onu deməyə əsas verir ki, Heydər Əliyev Fondu sağlam həyat tərzini təbliğ etməklə ölkəmizdə və xaricdə ictimai-siyasi həyatın bütün sahələrini əhatə edən müxtəlif tədbirlər reallaşdırır, uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgiləri təşkil olunur, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verir.

Hər bir xalq öz dili ilə yaşayır. Xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq həmin xalqın ziyalılarının, alim və pedaqoqlarının fəaliyyəti nəticəsində mümkündür. Bu mənada Heydər Əliyev Fondunun Azərbaycan dilinin 50 dünya dili arasında tanınmış institutlarda tədris olunmasının dəstəkçisi olması sıradan fakt deyil.







Heydər Əliyev Fondunun xətti ilə UNESCO-nun iqamətgahında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin, tarixi şəxsiyyətlərin, incəsənət və elm xadimlərinin yubileylərinin keçirilməsi ənənə halını alıb. Bu ilk növbədə Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən önəmin və dəyərin təzahürüdür.

Heydər Əliyev Fondunun Azərbaycanın mədəniyyət tarixində iz buraxacaq layihələrindən biri də Bakıda Müasir İncəsənət Muzeyinin yaradılmasıdır. Muzeydə Azərbaycan mədəniyyətinə öz töhfəsini verən sənətkarlara, mədəniyyət nümayəndələrinə fəaliyyət göstərmək üçün geniş imkanlar yaradılıb. Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltaraşlarının 800-dən çox işinin toplandığı muzeyə gələnlər xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov və Nadir Əbdürrəhmanovun, adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olmuş digər rəngkar və heykəltaraşların işləri ilə də tanış ola bilirlər. Qərbi Avropa incəsənəti salonunda isə Ümummilli Lider Heydər Əliyevə, habelə Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya hədiyyə olunmuş əsərlər nümayiş etdirilir.

Fondun təşkilatçılığı ilə dünya şöhrətli müğənni Müslüm Maqomayevin, habelə böyük Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin paytaxtın görməli yerində heykəllərinin açılışları olub. Bakının yaxınlığında Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi fəaliyyət göstərir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan bu muzey Azərbaycanın tarixi keçmişini özündə əks etdirməklə, ölkəmizin turizm mərkəzlərindən birinə çevrilmişdir. Qoruğun 156 hektar sahəni əhatə edən ərazisində eramızdan əvvəl III minillikdən XX əsrə qədər dövrə aid kurqanlar, sərdabələr, yaşayış evləri, 4 ovdan, qədim qəsrin qalıqları, 5 məscid, 3 hamam və sairə var.

Tarixi-mədəni abidələrin bərpası, yeni mədəniyyət ocaqlarının tikilib istifadəyə verilməsi, mədəniyyət işçilərinin sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar isə bu sahənin çiçəklənməsini, yeni-yeni uğurların qazanılmasını şərtləndirən əsas amillərdəndir.

Fondun bu sahədə həyata keçirdiyi layihələr daim Azərbaycan mədəniyyətinin inkişafında yaxından iştirak etdiyini göstərir. Bu xüsusda tarixi-mədəni abidələrimizin qorunması və bərpası, yeni mədəniyyət obyektlərinin istifadəyə verilməsini qeyd etmək yerinə düşər. Ötən illərdə Gəncədə Cavad xanın qəbri üzərində məqbərənin ucaldılması, Gəncə qapılarının, "Qu quşları" fəvvarə kompleksinin bərpası, Müasir İncəsənət, "Tullantıdan sənətə", "XX-XXI əsr Azərbaycan rəngkarlığı", Azərbaycan Xalça, Daş salnamə, Dəmirçi Arxeologiya və digər muzeylərin açılması, yeni-yeni mədəniyyət saraylarının, muğam mərkəzlərinin, musiqi məktəblərinin istifadəyə verilməsi Heydər Əliyev Fondunun bu sahədə gördüyü irimiqyaslı işlərin tərkib hissəsidir. Milli mədəniyyətimiz sahəsində fondun təşkilatçılığı ilə keçirilən və ənənə halını alan müxtəlif musiqi layihələrini, o cümlədən Qəbələ, Aşıq, "Muğam aləmi", Mstislav Rostropoviç, Üzeyir Hacıbəyli beynəlxalq festivallarını, muğam televiziya müsabiqələrini, Şuşada keçirilən konsertləri xüsusi qeyd etmək yerinə düşər.

Bu işlər Azərbaycan xalqının mədəni irsinin qorunmasında və dünya ictimaiyyətinin diqqətinə təqdim olunmasında və təbliğ edilməsində böyük əhəmiyyət daşıyır. Həmin sırada adət-ənənələrimizlə yanaşı, muğamı xüsusilə vurğulamalıyıq. Mehriban xanım Əliyeva Azərbaycanın milli sərvəti olan muğamı obrazlı şəkildə səciyyələndirərək "Biz muğamı gələcək nəsillərə qəlbimizin və ruhumuzun bir hissəsi kimi miras qoyuruq. Məhz muğam bizim varislərimizdə köklərə bağlılıq, milli ləyaqət, qürur, emosional zənginlik, iztirab çəkməyi və başqalarının iztirabına şərik olmağı bacarmaq, muğamın özünün malik olduğu mənəvi kamillik, tamlıq kimi keyfiyyətlər aşılamağa qadirdir" söyləmişdir.

Məmnunluq doğuran həm də odur ki, Heydər Əliyev Fondunun dəstəyi ilə muğam UNESCO-nun bəşəriyyətin şifahi və qeyri-maddi irs inciləri siyahısına daxil edilib.

Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsini özünün əsas fəaliyyət proqramı kimi qəbul edən fondun dəstəyi ilə ötən illər ərzində ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən valideyn himayəsindən məhrum uşaqlara kömək, Vətən müharibəsi əlillərinin yaxın və uzaq ölkələrdə müalicəsi, uşaq evlərinin, internat məktəblərinin abadlaşdırılması da daxil edilməklə təhsil, səhiyyə, mədəniyyət sahələrində irimiqyaslı proqramlar həyata keçirilib. Onların arasında əsas istiqamətlərdən biri də gənc nəslin maariflənməsidir. Məhz bu məqsədlə fond bütün imkanlarından istifadə etməklə məktəb tikintisinə daha çox diqqət ayırır.

Neçə illərdir fondun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı məktəb binalarının inşasına istiqamətlənib. Layihələr çərçivəsində paytaxtda və regionlarda dünya standartlarına cavab verən məktəb binaları inşa edilib, neçə-neçə məktəb cari və ya əsaslı təmir olunaraq müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub.

2024-cü tədris ilində Heydər Əliyev Fondu tərəfindən Bakıda və regionlarda əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil müəssisəsi - 19 məktəb və 3 məktəbəqədər müəssisə müəllim və şagirdlərin istifadəsinə verilib. Tədris ili ərzində inşa və təmir edilən daha 10 məktəbin açılışı olub. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində indiyədək ölkənin müxtəlif bölgələrində 100 mindən artıq şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və yenidən qurulub.

"Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində ölkə ərazisində onlarca uşaq müəssisəsi əsaslı şəkildə yenidən qurulub, müasir avadanlıqla təchiz olunub, əlavə yardımçı binalar inşa edilib və kommunal şərait yaxşılaşdırılıb. Həmçinin bu proqram çərçivəsində uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün yaşayış binaları tikilib, uşaq evlərində və internatlarda təhsil alanların asudə vaxtlarının səmərəli təşkili məqsədilə kütləvi tədbirlər, festivallar, müsabiqələr keçirilib.

Hazırda Bakıda və regionlarda yeni ümumtəhsil məktəblərinin, uşaq musiqi və incəsənət məktəblərinin inşası, əsaslı təmiri davam etdirilir.

Heydər Əliyev Fondunun ötən dövrdə Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, Qərbi Azərbaycan kökənli Aşıq Ələsgərin vəfatının 100 illik yubileyinin UNESCO-nun 2026-cı ildə qeyd ediləcək tədbirlər proqramına daxil edilməsi, habelə UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin, Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin, Atəşgahın və digər tarixi abidələrin, habelə mədəni irs nümunələrinin daxil edilməsi Azərbaycan milli mədəniyyətinin dünya miqyasında təbliğinin təzahürüdür. Fond xalqın varlığını özündə yaşadan mənəvi-intellektual irsə həssaslıqla yanaşaraq onun dünya arenasında təbliğində fəal iştirak edir.

"Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları Ümummilli Liderin bu sahə ilə bağlı ideyalarının reallaşması istiqamətində mühüm töhfələrdir. Fondun təşəbbüsü ilə Bakıda müasir Talassemiya Mərkəzi tikilmiş, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Reabilitasiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Psixo-nevroloji Uşaq Mərkəzi, eləcə də digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Heydər Əliyev Fondunun bu sahədə reallaşdırdığı layihələr Azərbaycanın bütün regionları ilə yanaşı, ölkəmizin hüdudlarından kənarda da uğurla həyata keçirilib. Cibutidə, Bosniya-Herseqovinada, Rusiyada, Gürcüstanda icra edilən layihələr bütün dünyaya Heydər Əliyev Fondunun timsalında Azərbaycan xalqının insanpərvərliyini, xeyirxahlığını, geniş mənada humanizmini nümayiş etdirir.

Heydər Əliyev Fondunun gördüyü işləri yüksək qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarından birində demişdir: "Xeyriyyəçilik sahəsində Cənubi Qafqazda ən böyük təsisat Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir".

Heydər Əliyev Fondu 2020-ci ilin sentyabrında başlanan və tarixi zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində həm daxili, həm beynəlxalq arenada Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdıraraq xalqımıza haqq işində dəstək olmaq üçün mümkün olanı edib. Fondun əməkdaşları hazırda erməni işğalından azad olunmuş bölgələrdə tikinti-quruculuq, bərpa işlərinə səfərbər olublar. Fond tərəfindən tarixi və dini abidələrin, məscidlərin bərpası ilə bağlı layihələr həyata keçirilir. İndiyədək bu layihələrin bir qismi tam icra olunub. Məsələn, 2021-ci ildə Şuşada dahi Azərbaycan şairi və ictimai xadim Vaqifin muzey-məqbərə kompleksinin yenidənqurulması cəmi bir neçə aya başa çatdırılıb. Abidənin hər detalında tarixi görkəmi qorunub saxlanılıb. Fondun dəstəyi ilə Şuşada Vaqifin büstü və görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəli bərpa edilib. Üzeyir bəy Hacıbəylinin Şuşadakı ev-muzeyi, mühüm tarixi memarlıq abidəsi olan Mehmandarovların malikanə kompleksi, "Şirin su" hamamı da Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. Azərbaycanın tanınmış tarzəni Sadıqcanın Şuşadakı evinin bərpasını da fond həyata keçirib. İşğaldan azad olunmuş ərazilərdə bu istiqamətdə reallaşan layihələrin bir qismi də məscidlərin bərpası ilə əlaqəlidir. Şuşa məscidləri, həmçinin Ağdam Cümə və Zəngilan məscidləri Heydər Əliyev Fondu tərəfindən yüksək səviyyədə təmir olunaraq ziyarətçilərin ixtiyarına verilib.

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı əsl həqiqətlərin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması, Xocalı soyqırımının tanıdılması, mədəniyyətimizin, tariximizin, təbiətimizin, dövlətçilik ənənələrimizin xaricdə təbliği işinin düzgün qurulmasında fond qürurverici nailiyyətlər əldə etmişdir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Məhz bu tədbirlərin nəticəsidir ki, artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkəsində və beynəlxalq təşkilatında təsdiqini tapıb. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-nin bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb.

Məcburi köçkünlərin mərhələli şəkildə işğaldan azad edilmiş Qarabağ bölgəsinə - dədə-baba yurdlarına qayıdışında Heydər Əliyev Fondunun xidmətləri möhtəşəmdir. Bu ərazilərdə müasir tələblərə uyğun tikilən məktəblər, uşaq bağçaları, səhiyyə müəssisələri, inanc yerlərimiz və sairə genişliyi ilə qapılarını sakinlərin üzünə açıb.

Xalqa xidmətləri, milli dövlət quruculuğu və Azərbaycan gəncliyinin sağlam, savadlı, geniş dünyagörüşə malik şəxslər kimi formalaşmasında misilsiz fəaliyyətləri ilə əbədiyaşarlıq qazanmış türk dünyasının böyük oğlu Heydər Əliyevin doğum günü hər il olduğu kimi, bu il də adını şərəflə daşıdığı fondun təşkilatçılığı ilə Bakıdan tutmuş respublikamızın ən ucqar kənd, qəsəbə və rayonlarında, habelə dünyanın bir çox ölkəsində səfirliklər, diaspor və qeyri-hökumət təşkilatları tərəfindən böyük qürur hissi ilə qeyd edilir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## 1945 Faşizm üzərində Qələbədən 80 il keçir 2025

# Qələbədə Azərbaycanın tarixi rolu: tarixdən günümüzə

### ABŞ Prezidenti Franklin Delano Ruzvelt Xəzərdə əməkdaşlıq təklif edir

Tehran konfransında Prezident F.D.Ruzveltin sədrlik etdiyi iclasda ikinci cəbhənin Avropanın harasından açılması məsələsi üstündə Stalin və Böyük Britaniyanın Baş naziri Uinston Çerçill arasında mübahisə yarandıqda deyir ki, cənablar, biz yorulmuşuq, acmışıq, bu gün cənab Stalin qonaqlıq verəcəkdir. Stalin ziyafət verir. Əvvəlki günlərdə yemək zamanı Ruzveltin yediyi Xəzərin nərə balığı xoşuna gəldiyi üçün Stalin daha bir balığın gətirilməsini istəyir. Bakıdan həmin gün təyyarə ilə gətirilmiş iri nərə balığını məcməyidə "böyük üçlüyün" masasının üstünə qoyurlar. Bu zaman Ruzveltin mühafizəçiləri yaxınlaşıb balığın necə hazırlanması, prezidentin səhhətinə ziyan verib-verməyəcəyi barədə verdikləri suallara aldıqları cavabları dəftərçəyə qeyd edirlər. Ruzvelt Stalinə deyir ki, müharibə başa çatdıqdan sonra iqtisadi əməkdaşlıq edə bilərik. Ancaq Ruzveltin arzuladığı əməkdaşlıq müharibədən sonra başlayan soyuq müharibə şəraitində mümkün olmadı. Bu yalnız Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən bir neçə il sonra - 1994-cü il sentyabrın 20-də Ulu Öndər Heydər Əliyevin liderliyində imzalanan "Əsrin müqaviləsi"ndə amerikan şirkətlərinin iştirakı ilə gerçəkləşdirildi. ABŞ Xəzərin Azərbaycan sektorunda neft və qazın hasilatında və dünya bazarlarına çıxarılmasında Bakı ilə əməkdaşlıq etdi, indi də edir.

### Azərbaycan düşmən kəşfiyyatına qarşı mübarizədə

Müharibə illərində düşmənə qarşı mübarizə təkcə döyüş meydanlarında deyil, gizli cəbhədə - xüsusi xidmət orqanları arasında da aparılıb. Bu, müharibənin ən az bilinən, məxfi tərəfi olub. SSRİ-nin cənub sərhədlərinə yaxın ölkələrdə faşist Almaniyasının kəşfiyyatına qarşı mübarizədə Azərbaycanın xüsusi xidmət orqanının əməkdaşları müstəsna rol oynayıblar. Müharibə başlayan kimi sovet xüsusi xidmət orqanları bolşevik hakimiyyəti qurulduqdan sonra xarici ölkələrə mühacirət etmiş şəxslərin faşist Almaniyası ilə əlaqələrinin ola biləcəyini nəzərə alaraq onların arasında agentura işini gücləndirdi. 1940-cı ildə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığında xarici ölkələrdə antisovet qüvvələr arasında işləmək vəzifələrini yerinə yetirməli olan xüsusi şöbə yaradıldı. Dövlət Təhlükəsizliyi İdarəsinin 3-cü şöbəsi və su şöbəsi də təşkil edildi. Bu şöbələr qısa müddət ərzində aşağıdakı sahələrdə xeyli iş gördülər: xarici antisovet qüvvələrə dair materiallar sistemləşdirildi; İran ərazisində əvvəllər əməkdaşlığa cəlb edilmiş agentlərin yerləri müəyyənləşdirildi; yüksəkixtisaslı agentlər seçildi; agenturanın xaricdə yerləşdirilməsinin həyata keçirilməsinə başlandı. Hazırlanmış 30 agentin 27 nəfəri İranda, 1 nəfəri İtaliyada, 1 nəfəri Türkiyədə, 1 nəfəri isə Yunanıstanda yerləşdirildi. Onlar antisovet qüvvələr arasında, hərbi kəşfiyyatda və xüsusi tapşırıqlar üzrə işləməli idilər. Bundan əlavə 10 agent İrana göndərilmək üçün hazırlandı. Faşist Almaniyası kəşfiyyatının güclü olduğu Pəhləvi limanında yaşayan 10 nəfər sovet vətəndaşı və əvvəllər Azərbaycanda yaşamış İran təbəəsi də agenturaya cəlb edildi.

(Əvvəli qəzetin 8 may nömrəsində)

Azərbaycan ərazisində daxili - maneə agenturasının yaradılması sahəsində də tədbirlər həyata keçirildi. Sərhəddəki birinci maneə olan ordu mühafizəsi ilə yanaşı ikinci maneə - köməkçi briqada yaradıldı. 1940-cı ildə ikinci maneə üzrə 425 nəfər sərhəd rayonlarında əks-kəşfiyyat işinə cəlb edildi. Onlar 20 rezidentlə işləyirdilər. Bütövlükdə, 1940-cı ildə 1617 nəfərin daxil olduğu 208 köməkçi briqada yaradıldı.



Eyni zamanda Xəzər dənizində də maneə agenturası təşkil edildi. Arxiv sənədlərindən aydın olur ki, bu sahədə 5 rezident, 20 agent, 54 nəfər məlumat verən, təxribat törədilməsinin əleyhinə 5 nəfər işləyirdi. Onlar əsasən İran limanlarına üzən sovet paroxodlarında yerləşdirildilər. Düşmənin demək olar ki, bütün fəaliyyətini izləyən Azərbaycan kəşfiyyatçıları onları zərərsizləşdirməyi bacardılar.

### Faşist Almaniyasına daxildən vurulan zərbələr

Qələbənin qazanılmasında azərbaycanlıların xidmətlərindən biri də faşist Almaniyasına daxildən zərbə vurmaq olub. Əsirlikdə olan və legionlara cəlb edilmiş azərbaycanlılar özlərinin gizli fəaliyyətləri ilə faşist Almaniyasının zəiflədilməsində özünəməxsus xidmətlər göstəriblər. Legionerlərin içərisində faşizmə nifrət edənlər də var idi. Məsələn, Polşada azərbaycanlılardan ibarət yaradılmış legionda qulluq edən bəzi şəxslər konkret vəzifələri yerinə yetiriblər: faşist təbliğatına qarşı legionerlər arasında iş aparıblar; legionda faşist təbliğatına mane olublar; imkan tapan kimi legionerlərin partizanlar tərəfinə keçməsinə kömək ediblər; təsərrüfat hissəsində təxribatçılıq işlərini həyata keçiriblər və sairə.

Azərbaycanlı əsirlər alman tanklarının təmirini yubadır və bəzən də təmiri keyfiyyətsiz edirdilər. Arxiv sənədlərindən məlum olur ki, onlar emalatxanada 12 böyük pulemyotu, 7 əl pulemyotunu, 7 səhra topunu, 400-dən çox tüfəngi yararsız hala salmış,150-dən çox atı xəstə kimi sıradan çıxarmışdılar. Ziyankarlıq işlərini kazarmada texnik işləyən şəxslər görürdülər. Azərbaycanlı legionerlər Sidler və Umandakı dezinfeksiya kameralarını partlatmışdılar. Radom yaxınlığında azərbaycanlı əsirlərin tikdiyi aerodrom qəsdən yubanmalar ucbatından yarımçıq qalmışdı. Bütün bu fəaliyyətlər faşist Almaniyasına hərbi əməliyyatları aparmaqda çətinliklər yaratmışdı.

### Yəhudi hesab edilərək öldürülən azərbaycanlılar və yəhudilərin xilas olunmasının yolu

Dünyaya bədbəxtliklər gətirən faşist Almaniyası 6 milyon nəfər yəhudini etnik əlamətə görə məhv etməklə, Xolokostu törətməklə bəşəriyyətə və sivilizasiyaya qarşı ağır cinayət törədib. Müharibə illərində azərbaycanlıların oynadığı tarixi rollardan biri bəşəriyyətə böyük mütəfəkkirlər bəxş etmiş yəhudi xalqının əsirlikdə olan nümayəndələrini ölümdən xilas etmək olub. Əsrlər boyu Azərbaycanda rahat şəraitdə yaşamış yəhudilərə daim xoş münasibət bəsləyən, qohum olan, həmişə qayğı göstərən azərbaycanlıların onları ölümdən qurtarmaları ən ağır anlarda azərbaycanlı-yəhudi dostluğunun parlaq səhifələrindən biridir. Bəzi məlumatlara görə, müharibə zamanı əsir götürülən azərbaycanlıların sayı 150 min, bütün türklərin və Qafqaz mənşəli əsirlərin sayı isə 1 milyon nəfər idi. Bəzən əsir düşən azərbaycanlıların sayının 60 min olduğu da yazılır. Azərbaycanlı əsirlərin 30-40 min nəfəri döyüşə yararlı idi. Açıq havada qurulmuş düşərgələrdə saxlanılan, amansız işgəncələr verilən əsirlər müxtəlif xəstəliklərdən və aclıqdan həyatlarını itirmişdilər. Məsələn, Polşada Çenstoxova şəhərindəki həbs düşərgəsində saxlanılan 30 min nəfərdən 2 min nəfəri xəstəlikdən ölmüşdü.

Faşistlər həbs düşərgələrində daim yəhudi axtarışında idilər. Arxiv sənədlərindən aydın olur ki, sünnət məsələsində yəhudilərdən fərqlənmədikləri üçün yüzlərlə azərbaycanlı 1942-ci ilə qədər yəhudi kimi məhv edilmişdi. Faşistlər bunu başa düşdükdə yəhudiləri seçərək öldürməyə başladıqda azərbaycanlı əsirlər onların xilas yolunu tapdılar. Bu da yəhudilərə Kəlmeyi Şəhadətin öyrədilməsi oldu.

Polşadakı Azərbaycan legionunda 30-dək yəhudi var idi. Legiondakı yəhudilər azərbaycanlılarla birlikdə Qurban və Ramazan bayramlarını keçirirdilər.

Legionda olanlar düşmənə qarşı təxribatçılıq hərəkətlərini həyata keçirirdilər. Məsələn, əsl soyadı Peker olan bir yəhudi Əhməd Əhmədov adı və soyadını götürmüşdü. O, sənədlərin saxtalaşdırılmasını legionun azərbaycanlı komandirlərinə öyrədirdi. Onlar əsirlərin döyüşmək üçün yarasız olmalarına dair saxta sənədlər düzəldirdilər. Nəticədə 2 minə qədər azərbaycanlı və yəhudi əsir döyüşmək üçün yararsız çıxarılmışdı. Bu, düşmən əsirliyində möhkəmlənən azərbaycanlı-yəhudi dostluğu, qardaşlığı idi.

Faşist Almaniyasının yəhudi xalqına qarşı törətdiyi Xolokost bəşəriyyətə və sivilizasiyaya qarşı cinayət olmaqla bərabər həm də Azərbaycana qarşıdır. Çünki yəhudilər azərbaycanlılarla qohum olub, qaynayıb-qarışıblar, Azərbaycandan ordu sıralarına gediblər və azərbaycanlılar da yəhudi kimi öldürülüblər.

### Müasir şəraitdə erməni neofaşizminin və neonasizminin məhv edilməsi

Faşist Almaniyası məhv edilsə də neofaşizm və neonasizm təzahürləri özünü göstərirdi. Məsələn, soyuq müharibə başa çatdıqdan sonra neonasizm, neofaşizm Ermənistanda dövlət siyasətinə çevrildi. Bu da təsadüfi deyildi. Çünki hələ İkinci Dünya



müharibəsi illərində əvvəllər terrorçuluqda ad çıxarmış bəzi ermənilər faşist Almaniyası ilə əməkdaşlıq edərək Xolokostun həyata keçirilməsində bilavasitə iştirak etmişdilər. Dövlət müstəqilliyi elan edildikdən sonra İrəvanda onların bir neçəsinə, o cümlədən Qaregin Ter-Arutunyana (Njde) abidə qoyulması erməni xalqının qəhrəmanlarının, ideallarının məhz belə şəxslər olduğunu göstərdi.

Erməni neonasizmini, neofaşizmini Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderliyində Azərbaycan dövləti və milləti 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri nəticəsində məğlub edərək dünyaya bir örnək verdi. Göstərdi ki, neonasizm və neofaşizm məhv edilməlidir.

### Müharibə iştirakçılarına və ailələrinə dövlət qayğısı

Dövlət müstəqilliyinin bərpa edildiyi ilk illərdə bu məsələyə birmənalı münasibət mövcud olmayıb. Yalnız Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra müharibə iştirakçılarına və ailələrinə xüsusi qayğı göstərdi, güzəştlər etdi. Ulu Öndər Qələbə günündə onlarla görüşür, bu ərəfədə imzaladığı sərəncamları ilə maliyyə vəsaitləri ayırırdı.

Həmin ənənəni Prezident İlham Əliyev də davam etdirir. Hər il 9 may ərəfəsində Prezident İlham Əliyevin imzaladığı sərəncamla 1941-1945-ci illərdə müharibədə iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilir. Dövlət rəhbərinin bu il aprelin 21-də imzaladığı sərəncama uyğun olaraq 1941-1945-ci illərdə müharibədə iştirak etmiş şəxslərə 2500,0 (iki min beş yüz) manat məbləğində, müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, müharibə illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, müharibə dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1250,0 (bir min iki yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verildi. Bu məqsədlə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,2 milyon (üç milyon iki yüz min) manat vəsaitin ayrılması dövlət qayğısını göstərir.

Hər il mayın 9-u Prezident İlham Əliyevin Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsinə çiçək dəstəsi qoyması müharibə iştirakçılarının ruhuna dərin hörmətin ifadəsidir.

### Alınacaq ibrət dərsləri

*İkinci Dünya müharibəsində qazanılan qələbədən alınan başlıca ibrət dərsləri ondan ibarətdir ki, təcavüzə, işğala, düşmənçiliyə, xalqlar arasında nifrətə əsaslanan siyasətə və ideologiyaya yol verilməməli, işğalçı məhv edilməli, hansı ölkədə olmasından asılı olmayaraq neonasizm və neofaşizmin kökü kəsilməli, zorakılığa, ədalətsizliyə son qoyulmalıdır. Bunun nümunəsini Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev yaradıb və bütün dünyaya yol göstərib.*

**Musa QASIMLI,**
***Milli Məclis Sədrinin müavini***

# Faşizmin sonu...

"İldırımsürətli müharibə" planı ilə faşist Almaniyası 1941-ci il iyunun 22-də qəfil Sovet İttifaqına hücum etdi. Qara xəbər o günün səhəri nəhəng Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) hər yerinə yayıldı. Müharibənin başlanması xəbəri Azərbaycanda da böyük həyəcanla qarşılandı. Sovet İttifaqına daxil olan respublikalarda səfərbərlik elan olundu. 1945-ci ilin mayınadək davam edən bu müharibədə Azərbaycan da ittifaqın tərkibində iştirak etdi.

Alman faşizmi dünyaya ağalıq etmək iddiasında idi. 1933-cü ilin yanvarında Almaniyada hakimiyyətə gələn Hitler bu iddiası ilə bütün dünyanı bəlaya saldı. 1939-cu il sentyabrın 1-də bu məqsədlə Polşaya hücum etdi. Bəşəriyyət tarixində ən böyük hərbi-siyasi münaqişəyə - İkinci Dünya müharibəsinə başladı.

Müharibədən yayınmağa, Almaniya ilə diplomatik və iqtisadi əlaqələri davam etdirməyə cəhd edən SSRİ rəhbərliyi bir tərəfdən də ölkənin müdafiəsini, hərbi-siyasi potensialını gücləndirməyə çalışdı. Almaniya isə 1940-cı ilin ikinci yarısından SSRİ-yə hücüm planını hazırlayırdı. Hitler tərəfindən həmin il dekabrın 18-də təsdiqlənən plana "Barbarossa əməliyyatı" adı verilsə də, "ildırım sürətli müharibə" deyilirdi. Plana əsasən, 1941-ci ilin payızınadək SSRİ tam məğlubiyyətə uğradılmalı idi. Ancaq açıq-aşkar faşist ordusunun üstünlüyü ilə başlayan bu qanlı savaşın nəticələri onların gözlədikləri kimi olmadı. Müharibə 1418 gün davam etdi və neçə-neçə şəhəri, qəsəbəni, kəndi xarabaya, evləri yandırıb külə çevirdi, çox ocaqları söndürdü, minlərlə insanı həyatdan qopardı...

SSRİ-nin tərkibində müharibəyə cəlb edilmiş Azərbaycan vətəndaşları da ağır sınaqlarla, böyük faciələrlə üzləşdi. Respublikanın ümumi əhalisi o zaman 3,4 milyon nəfər idi. Onlardan 681 min nəfər cəbhəyə getdi. Azərbaycan ərazisində 87 batalyon, 1123 özünümüdafiə, 5 piyada dəstələri yaradıldı. Qızıl Ordunun 8 diviziyasının çox hissəsini azərbaycanlılar təşkil edirdi. Azərbaycanlılardan ibarət 77-ci, 223-cü, 271-ci, 402-ci, 416-cı diviziyalar quruldu. Bu diviziyalar müharibənin SSRİ-nin qələbəsi ilə başa çatmasında müstəsna xidmətlər göstərdi.

Respublikamızdan gedən döyüşçülər cəbhənin müxtəlif istiqamətlərində - Brest qalası, Leninqrad, Moskva, Stalinqrad, Qafqaz Kursk, Berlin uğrunda və digər döyüşlərdə böyük şücaət, dillərə dastan olan qəhrəmanlıq göstərdilər. İgidliyinə görə, Azərbaycandan 128 nəfər Sovet İttifaqı Qəhrəmanı fəxri adını qazandı. İsrafil Məmmədov bu adı alan ilk azərbaycanlı oldu. İsrafil Məmmədov 1941-ci ilin dekabrında Novqorod yaxınlığındakı Pustinka kəndi uğrunda döyüşlərdə misilsiz igidlik göstərdi. General Həzi Aslanov daxil olmaqla, 3 nəfər iki dəfə bu fəxri ada layiq görüldü.

1941-1945-ci illər müharibəsində azərbaycanlılar ön cəbhədə qəhrəmanlıq göstərdikləri kimi, arxa cəbhədə də fədakarcasına çalışdılar. O illərdə Bakı yanacaq və sürtkü təchizatında öndə idi. Azərbaycan neftçiləri müharibə illərində bütün ölkənin yanacağının 80 faizini təmin edirdilər. Sovet İttifaqı marşalı Georgi Jukov "Bakının neftçiləri Vətənini qorumaq, düşmən üzərində tez qələbə çalmaq üçün cəbhəyə və ölkəyə lazım olan qədər yanacaq verdilər", - dedi. Hərbi hissələri və müəssisələri yanacaqla təmin edən xüsusi təyinatlı qərargahı idarə edən bakılı Nikolay Konstantinoviç Baybakov bildirirdi ki, sovet döyüş maşınlarının 75-80 faizi bakılıların əməyi sayəsində hərəkət edirdi: "Müharibənin taleyi onların işindən asılı idi. Ön cəbhədə olmadan, Azərbaycanın paytaxtı neft arteriyaları vasitəsilə Qırmızı Ordunun əməliyyat qrupu ilə əlaqədə idilər". Müharibə başa çatdıqdan sonra Bakıya gələn Sovet İttifaqı marşalı Semyon Budyonnı xüsusi vurğuladı: "Sizin neftiniz olmadan çətin ki, biz müharibədə süvarilərin köməyi ilə bu qədər qələbə qazana bilərdik".

"Hər şey cəbhə üçün! Hər şey qələbə üçün!" şüarı ilə müharibənin ilk günlərindən bütün sahələrdə azərbaycanlılar ön cəbhənin hərbi, qida və digər məhsullarla təchizatı üçün dincliklərini, rahatlıqlarını unudaraq gecə-gündüz çalışırdılar. Ordu üçün əvvəllər olduğundan daha çox miqdarda qida, geyim və digər məhsullar istehsal edilirdi.

Müharibə illərində yerli sənayedə işləyənlər hərbi təchizatın istehsalında da iştirak edirdilər. Həmin müəssisələrin avadanlıqları qısa müddətdə cəbhə üçün lazım olan məhsulların hazırlanmasına uyğunlaşdırıldı. Azərbaycan SSR-də 130 növdən çox silah və döyüş sursatı hazırlanırdı. Əfsanəvi "Katyuşa"lar üçün mərmi, Yak-3 və UTI-4 döyüş təyyarələri də burada düzəldilirdi.

Azərbaycanda müharibənin ilk günlərindən 15 min tibb işçisi, 750 rabitəçi, 3 min sürücü cəbhə üçün hazırlandı. Müharibə dövründə Bakıda və ölkənin digər yerlərində onlarla hərbi xəstəxana fəaliyyət göstərdi. Rəsmi məlumatlara görə, Azərbaycan SSR-in xəstəxanalarında yarım milyon sovet əsgəri müalicə olunmuşdu.

1945-ci il mayın 2-də səhər saat 6-da Berlinin süqut etdiyi barədə məlumat yayıldı. Bu xəbər Azərbaycanda da böyük sevinclə qarşılandı. 416-cı Taqanroq diviziyasının iştirak etdiyi Berlin əməliyyatı faşist işğalçılarına qarşı İkinci Dünya müharibəsinin son əməliyyatı kimi tarixə yazıldı. Hitler Almaniyası Berlin alındıqdan bir həftə sonra təslim oldu. 1945-ci il mayın 9-u tarixə Qələbə günü kimi yazıldı.

İtkilərimiz böyük idi. 1941-1945-ci illər müharibəsində Azərbaycandan cəbhəyə gedənlərin 300 min nəfəri həlak oldu. Əksəriyyəti də gənc idi... Dərdi ağır olsa da, Azərbaycan xalqı Qələbə günündə şadyanalıq etdi. Və cəbhəyə getmiş, bütün bəşəriyyəti faşizm bəlasından xilas etmək üçün döyüşmüş övladları ilə hər zaman fəxr etdi, qürur duydu...

Azərbaycan xalqının övladları yarım əsr sonra başqa bir faşist xislətlilərlə döyüşməli oldular. 1980-ci illərin axırlarından qəsbkar ermənilər təxribatlara əl atmağa, münaqişə yaratmağa başladılar. Məkrli niyyətləri bu dəfə də Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqlarını işğal etmək idi. Həmin ərazilərin əzəli sakinləri olan azərbaycanlılara silahlı hücum edir, günahsız insanlara işgəncələr verərək qətlə yetirirdilər.

Silahlı erməni quldurları 1990-cı illərdə qədim Azərbaycan torpaqlarını müharibə ocağına çevirə bildilər. Azərbaycanın igid övladları bu dəfə öz doğma torpaqlarında faşizmin kökünü kəsmək üçün döyüşə atıldılar. Müharibə qanunlarını heçə sayan, tarixdə görünməmiş amansızlıqlar, qəddarlıqlar edən, körpələrə, uşaqlara, qadınlara, qocalara, əlillərə belə aman verməyən, onlara vəhşicəsinə işgəncələr verərək qətlə yetirən təcavüzkar ermənilər 1990-cı illərdə baş verən Birinci Qarabağ müharibəsində Azərbaycan torpaqlarının iyirmi faizini işğal etdilər. Həmin ərazilərdə yaşayan bütün azərbaycanlıları evindən, yurdundan qovdular.

İşğalçı Ermənistan Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərini otuz ilə yaxın əsarət altında saxladılar. İşğal müddətini Ermənistan və xarici havadarları uzatmağa nail olsalar da, Azərbaycan xalqı torpaqlarını erməni faşistlərindən xilas edəcəyinə ümidini, inamını itirmədi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dövlətimizin, xalqımızın bu işğalla barışmayacağını və öz ərarzilərini azad edəcəyini bütün dünyaya bəyan edirdi.

Ermənistanın silahlı qüvvələri işğalın davam etdiyi illərdə də təxribatlar törətməkdən əl çəkmədilər. 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsinin başlanmasına da səbəb işğalçıların növbəti təxribatı oldu. Ermənistan silahlı qüvvələri münaqişəni yenidən alovlandırdılar. İkinci Qarabağ müharibəsi başladı. 1941-1945-ci illərdə baş verən müharibədə qəhrəmanlıqla döyüşmüş babaların, nənələrin övladları bu savaşda misilsiz şücaət göstərdilər. Müzəffər Azərbaycan Ordusu rəşadətlə döyüşərək Qarabağda, Şərqi Zəngəzurda erməni faşizmi üzərində qələbə çaldı. 2020-ci ilin 8 noyabrında Azərbaycan tarixinə hər bir azərbaycanlıya qalib adını gətirən, ürəyini dağa döndərən Zəfər günü yazıldı...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# 1945 Faşizm üzərində Qələbədən 80 il keçir 2025

## Yeni nəşrlər

# Əziz Əliyevin bilinməyən tərəflərinə işıq salan kitab

Adıgözəl Məmmədovun yeni - "Böyük Azərbaycan naminə Əziz Əliyev " kitabı Azərbaycan tarixində görkəmli iz qoymuş dövlət və partiya xadimi, diplomat, tibb elmləri doktoru, professor, Əməkdar həkim, ölkəsinin və xalqının vətənpərvər övladı Əziz Əliyevin fəaliyyətinə həsr olunub. Bu tədqiqat əsəri tariximizin bir çox gizli səhifəsinə işıq salmaqla təkcə bu sahənin adamları üçün deyil, həm də geniş oxucu kütləsi üçün xüsusi əhəmiyyət kəsb edir.




Müəllif arxiv sənədlərinə əsaslanaraq Əziz Əliyevin xüsusən Dağıstanda fəaliyyət göstərdiyi illəri daha maraqlı rakursdan işıqlandırmaqla, oxuculara o dövrün hadisələrinə yeni baxış bucağı təqdim edir.

Kitabda Əziz Əliyevin Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi kimi fəaliyyətinin ilk aylarında hərbi hissələrin formalaşdırılması, döyüş batalyonlarının və partizan dəstələrinin yaradılması, səfərbərlik ilə bağlı ən mühüm büro qərarları verilmişdi. Bunun nəticəsində respublikanın bütün bölgələrindən 120 min insan orduya cəlb edilmiş, müdafiə obyektlərinin tikintisi ilə bağlı çoxlu işlər görülmüşdü. Həmin dönəmdə dağlılara inam artmışdı. Sonradan Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi Əziz Əliyevin təşəbbüsü ilə Dağıstan gənclərini əsasən azərbaycanlılardan ibarət 416-cı Taqanroq diviziyasına daxil etmişdilər.

1943-cü ilin yanvar-iyul aylarında DMSSR Xalq Komissarları Soveti və partiyanın Dağıstan Vilayət PK Bürosu Dağıstan xalqlarından Qızıl Ordu sıralarına könüllülərin cəlb edilməsi haqqında bir sıra qərarlar qəbul edib. 17 fevral 1943-cü ilədək cəbhəyə göndərilmək üçün 12 mindən çox müraciət daxil olmuşdu. Burada ən vacib məqam odur ki, Əziz Əliyev əsasən azərbaycanlılardan formalaşdırılmış 416-cı Taqanroq diviziyasının tərkibində dağıstanlılardan ibarət süvari eskadrilyanın yaradılmasının təşəbbüskarı kimi çıxış edir və buna nail olur.

Arxiv materialları arasında 10 sentyabr 1943-cü ildə Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosunun qərarı xüsusilə diqqəti cəlb edir. Qərar 416-cı Taqanroq atıcı diviziyasının komandanlığının Dağıstan fəhlələrinə məktubu haqqındadır. Sənəddə göstərilir ki, Dağıstan süvari eskadrilyasının daxil olduğu 416-cı Taqanroq atıcı diviziyası Rostov vilayətinin və Taqanroq şəhərinin azad edilməsi uğrunda gedən döyüşlərdə fərqləndiyinə görə Ali Baş Komandan, Sovet İttifaqının marşalı yoldaş Stalin Rostov vilayətinin və Taqanroq şəhərinin azad edilməsində əla hərbi əməliyyatlara görə diviziyaya minnətdarlığını bildirərək ona "416-cı Taqanroq atıcı diviziyası" adını vermişdir.

Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Dağıstan Vilayət Komitəsinin Bürosu qərara alır: Dövlət Müdafiə Komitəsinə və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinə təklif edilsin ki, 416-cı Taqanroq atıcı diviziyasında olan Dağıstan xalqının igid oğullarının şücaətlərini bütün sovet zəhmətkeşlərinə çatdırımasına kömək etsinlər. Diviziya komandanlığına, Dağıstan süvari eskadrilyasının əsgər və zabitlərinə hədiyyələr təşkil edilsin. Bundan başqa, Dağıstan süvari eskadrilyasının hərbi şücaətlərini təbliğ etmək üçün "Daqestanskaya pravda"nın baş redaktoruna icazə verilsin ki, Taqanroqun azad edilməsində Dağıstan oğullarının iştirakı ilə bağlı materialları toplamaq üçün diviziyaya xüsusi müxbir İ.Vinniki göndərsin. Respublika qəzetlərinin redaktorlarını və radio komitəsinin rəhbərini 416-cı Taqanroq atıcı diviziyasının komandanlığının Dağıstan zəhmətkeşlərinə məktubunu çap edib yayımlamaq üçün dəvət etsinlər.

"Böyük Azərbaycan naminə Əziz Əliyev" kitabından öyrənirik ki, diviziyanın yaranması o qədər də asan olmamışdır. Azərbaycan K(b)P-nin ikinci katibi işləmiş Mirhəsən Seyidov öz xatirələrində bu barədə ağrı-acı ilə danışırdı ki, Kerç faciəsini eşidən Mir Cəfər Bağırov çox narahat olur və Mexlisə möhkəm qəzəblənir. Çünki Mexlis nəyin bahasına olursa-olsun, Kerç körfəzi vasitəsilə Krım yarımadasına daxil olmaq əmrini vermişdi. Bu vəzifələri yerinə yetirməli olan diviziyalar isə əsasən azərbaycanlılardan formalaşdırılmışdı. Həmin cəhd zamanı açıq dənizdə alman bombardmançıları bu əsgərləri daşıyan bütün gəmiləri məhv etmişdilər. Buna baxmayaraq, əməliyyatın davam etdirilməsi və Krım yarımadasına daxil olmaq üçün təkrar əmr verilmişdi. Bu dəfə alman bombardmançıları diviziyanın bütün heyətini darmadağın etmiş, köməksiz əsgərlər sadəcə olaraq dənizdə boğularaq həlak olmuşdular.

Mexlisin səriştəsiz əmri haqqında Sevastopolun müdafiəsi üzrə quru qoşunları komandanının müavini və sahilyanı ordunun rəhbəri İ.Petrov M.C.Bağırovu məlumatlandırır və deyir ki, "Bir neçə gündən sonra soydaşlarınızdan heç kim sağ qalmayacaq. Mən heç nə edə bilmirəm (Mexlisi nəzərdə tutur). Lütfən, müdaxilə edin və təcili tədbirlər görün. Xahiş edirəm, mənim adımı çəkməyəsiniz".

Lev Mexlis kim idi? O, SSRİ-nin siyasi elitasında mürəkkəb, bəzi siyasilərin fikrincə, dözülməz xarakteri ilə fərqlənirdi. L.Mexlis siyasi karyerasında sürətlə irəliləyir və yüksək vəzifələrə təyinatı həmişə Stalinin təşəbbüsü ilə baş tuturdu. Müharibə illərində Mexlis bir çox cəbhənin hərbu şuralarının üzvü olub. General-polkovnik rütbəsinə qədər yüksəlib. Neçə-neçə general Mexlisin Stalinə ünvanladığı məxfi arayışların qurbanı olub.

1942-ci il yanvar ayının sonunda Stalin L.Z.Mexlisi siyasi rəhbərliyin nümayəndəsi kimi Krım cəbhəsinə göndərir. O isə adətinə uyğun olaraq, kömək göstərmək əvəzinə rəhbər kadrları qatıb-qarışdırmağa başlayır. Hər şeydən əvvəl, cəbhənin qərargah rəisi Tolbuxini general-mayor Veçni ilə əvəz edir. Cəbhənin hazırladığı hücum dəfələrlə təxirə salınır, Mexlisin işi yalnız komandirlərlə mübahisə etmək idi. Mayın 7-də almanlar özləri hücuma keçirlər və bir gün sonra cəbhənin müdafiəsini yarırlar. Nəticədə Krım yarımadası Kerçlə birlikdə düşmən tərəfindən ələ keçirildi. ("Avropadakı son hüdudlarda")

Hərbi hissələrdə "Azərbaycanlıdan döyüşçü çıxmaz" söz-söhbəti yayılırdı. Bu, əlbəttə ki, əsgərlərin mənfi reaksiyasına səbəb olur, onları təhqir edirdi. Bununla bağlı M.C.Bağırov Stalinin qarşısında çıxış edir və hər şeydə, o cümlədən də Kerçdəki uğursuz əməliyyatda Mexlisi günahlandırır.

Mexlis Stalinə göndərdiyi hesabatda baş verənlərə görə cəbhə komandiri D.T.Kozlovu ittiham edirdi. Cavabında Stalin Mexlisə yazırdı: "Siz Krım cəbhəsinin işlərinə cavabdeh olmayan qəribə bir kənar müşahidəçi mövqeyi tutmaqdasınız. Bu mövqe əlverişli, amma tamamilə çürükdür... Siz Krım Cəbhəsinə Dövlət Nəzarətçisi (L.Z.Mexlis Dövlət Nəzarəti Xalq Komissarı vəzifəsini tuturdu - A.M.) kimi yox, Baş Komandanlığın məsul nümayəndəsi kimi göndərilmisiniz. Siz bizim Kozlovu Hindenburq tipli birisi ilə əvəzləməyimizi tələb edirsiniz. Amma bilməyə bilməzsiniz ki, bizim ehtiyatda hindenburqlarımız yoxdur. Krımdakı işləriniz mürəkkəb deyil və bunların öhdəsindən özünüz də gələ bilərsiniz. Əgər siz hücum aviasiyasından əlavə işlər üçün deyil, düşmənin tanklarına və canlı qüvvəsinə qarşı istifadə etsəydiniz, düşmən cəbhəni yara bilməz, tanklar müdafiə xəttini aşıb keçməzdi. İki ay Krım cəbhəsində heç bir nəticəsiz oturaraq belə bir sadə şeyi başa düşmək üçün Hindenburq olmaq lazım deyil".

İyin ayının 3-də Çadayev Stalinin qəbul otağında cəbhədən gəlmiş Mexlislə görüşür. Çadayev danışırdı ki, o, Mexlislə Kerç yarımadasındakı döyüşlərdə məğlubiyyətinin səbəbləri barədə söhbət edərkən "Stalin qapıda göründü. Mexlis oturduğu yerdən sıçradı: "Salam, yoldaş Stalin! İcazə verin, məruzə edim". Stalin yerişinə haram qatıb, bir anlıq yuxarıdan-aşağı Mexlisə baxdı, həyəcanlı səslə dedi: "Lənətə gələsiz Sizi!" Və dərhal da kabinetə girib qapını arxasınca çırpdı. Mexlis yavaş-yavaş əllərini yanlarına endirdi və pəncərəyə tərəf çevrildi...

Sonralar Poskrebışevdən öyrəndim ki, Mexlis həmin gündən bir müddət sonra nəhayət ki, Stalinin qəbulunda ola bilib. Krım fəlakətinin günahkarı sözün əsl mənasında rəhbərin ayaqlarına düşübmüş. (Tarixçi Yuri Yemelyanovun "Pravda" qəzetindəki "Ali Baş Komandan" məqaləsi )

Kitabda tarixi faktlar əsasında bildirilirdi ki, cəbhə komandanı D.T.Kozlov, Hərbi Şuranın üzvü, diviziya komissarı F.A.Şamanin, cəbhənin qərargah rəisi P.P.Veçni və bir sıra başqa komandirlər tutduqları vəzifələrdən uzaqlaşdırılır, Kozlov və Şamaninin rütbələri də aşağı salınır. L.Z.Mexlis Xalq Müdafiə Komissarının müavini və Qızıl Ordunun Baş Siyasi İdarəsinin rəisi vəzifələrindən kənarlaşdırılır və rütbəsi korpus komissarınadək endirilir. Qızıl Ordunun Siyasi İdarəsinin rəhbəri ÜK(b)P MK-nın katibi və Siyasi Büro üzvlüyünə namizəd A.S.Şerbakov olur.

Bundan sonra cəbhəyə göndərilən Azərbaycan əsgərləri də daxil olmaqla 416, 77, 223-cü hərbi hissələr təşkil olunur. Milli hissələrin yaradılmasında məqsəd həm də sovet xalqının Böyük Qələbəsinin beynəlmiləl səciyyəsini vurğulamaq idi.

"416-cı Taqanroq diviziyası" da daxil olmaqla dağlıların olduğu hərbi hissələrdə Dağıstan Vilayət Partiya Komitəsinin təşəbbüsü ilə respublika ziyalılarının müntəzəm tədbirləri təşkil edilir.

Bir fakt da xüsusi qeyd olunmalıdır ki, Əziz Əliyev başda olmaqla oraya göndərilən insanların fədakar əməyi sayəsində müharibə illərində və müharibədən sonra bu respublikada heç bir antisovet, antidövlət əleyhinə hər hansı bir fakt özünü biruzə verməmişdir. Dağıstanlılar bu illərdə onlara göstərilən etimadı layiqincə doğrultmuşdular. Təbii ki, bu nəticənin əldə olunmasında Dağıstan xalqının köməyinə arxalanan Əziz Əliyevin xidmətləri var idi.

Məhz bu ağır müharibə illərində Dağıstandakı fəaliyyətinə görə Əziz Əliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Lenin ordeni", SSRİ Ali Soveti Rəyasət Heyətinin 12 yanvar 1943-cü il tarixli Fərmanı ilə, "Qırmızı Əmək Bayrağı" ordeni, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1 may 1944-cü il tarixli fərmanı ilə "Qafqazın müdafiəsi uğrunda" medalı ilə, SSRİ Ali Soveti Rəyasət Heyətinin 9 iyun 1944-cü il tarixli fərmanı ilə o, ikinci dəfə "Lenin ordeni" ilə, SSRİ Ali Soveti Rəyasət Heyətinin 9 may 1945-ci il tarixli fərmanı ilə 1941-1945-ci illər Böyük Vətən müharibəsində "Almaniya üzərində qələbəyə görə" medalı ilə və 1945-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "I dərəcəli Vətən Müharibəsi Ordeni" ilə təltif edilmişdir.

Tədqiqatçı Adıgözəl Məmmədovun bu yeni əsəri geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

*İsmayıl MƏMMƏDOV,*
*Bakı Dövlət Universitetinin professoru,*
*tarix elmləri doktoru*

# O, iki faşizmə qarşı savaşmışdı

## 78 yaşında ermənilərin qurbanına çevrilən Kazım Məmmədovun həyat hekayəsi

**Azərbaycan xalqı faşizm təhlükəsinin dünyanın başını aldığı ilk zamanlardan mübarizəyə qalxıb. Sözün əsl mənasında İkinci Dünya müharibəsində yaşlısından gəncinə, qadınından uşağına qədər hər kəs müsəlləh əsgərə çevrilib.**

**İkinci Dünya müharibəsində xalqımız 600 min oğul və qızını ön cəbhəyə yola salıb, Azərbaycan diviziyaları Qafqazdan Berlinədək başdan-başa qəhrəmanlıqlarla dolu döyüş yolu keçiblər. Yüzlərlə həmyerlimiz partizan dəstələrinin tərkibində faşizmə qarşı uğurlu mübarizə aparıb. Həzi Aslanov, Mehdi Hüseynzadə, Aliyə Rüstəmbəyova kimi minlərlə igid Azərbaycan övladının şücaətləri bu gün də dillərdə dastandır.**

**Bu tarixi qələbənin qazanılması uğrunda düşmənlə çarpışan igid oğul və qızlarımızdan 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub.**

**Müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.**



### "Qırmızı bayraq" ordeni ilə təltif olunub

Alman faşizminə qarşı qəhrəmanlıqla savaşan igid azərbaycanlı oğullardan biri də 1915-ci ildə Kəlbəcər rayonunun Sınıqkilsə kəndində (indi Hacıkənd) doğulan Kazım Bağır oğlu Məmmədov olub. 16 may 1941-ci ildən etibarən ordu sıralarına qatılıb. İkinci Dünya müharibəsinin sonuna qədər döyüşlərdə iştirak edən baş serjant K.Məmmədov Əlahiddə Sahil Ordusunun 12-ci Qvardiya atıcı alayında, 166-cı atıcı diviziyasında kəşfiyyatçı vəzifəsində xidmət edib.

O, Tula, Qomel, Brest, Pskov,Vilnüs və digər şəhərlərin müdafiəsində iştirak edib. 1943-cü ilin iyununda ağır yaralansa da, müalicədən sonra döyüş bölgəsinə qayıdıb. 23 aprel 1945-ci ildən Qafqaz eskadronunun tərkibində xidmət etməyə başlayıb. Kazım Məmmədov döyüşlərdə şəxsi şücaəti ilə seçildiyinə görə "Qırmızı ulduz" ordeninə layiq görülüb. Eyni zamanda o, "İgidliyə görə", "Döyüş xidmətlərinə görə", "Stalinqradın müdafiəsinə görə", "Varşavanın azadlığına görə" "1941-1945-ci il müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilib. Müharibənin sonuna qədər igidliklə döyüşən Kazım Məmmədov qalib döyüşçü kimi Reyxstaqın divarına imzasını atıb.

Müharibə bitdikdən sonra - 1946-cı ildə 31 yaşında Kəlbəcərə qayıdan Kazım Məmmədov doğulduğu rayonda bir müddət müxtəlif vəzifələrdə, daha sonra isə kənd sovetinin sədri kimi fəaliyyət göstərməyə başlayıb.

Ürəyində alman faşizminə qalib gəlməyin böyük qürurunu daşıyan və köhnə Azərbaycan kişilərindən olan qədd-qamətli, zabitəli, hökmlü, sözün əsl mənasında yeriyəndə yer-yerindən silkələnən Kazım Məmmədov daha bilməyib ki, zalım fələk onu qarşıda daha amansız, daha qəddar faşizmlə qarşılaşmağa hazırlayır - erməni faşizmi ilə...

### Girov düşdüyü o məşum an...

Baxanda qəzəb və kədər hissindən az qala ürəyimizin partlayacağı bir videogörüntü var internet şəbəkələrində. Həmin görüntüdə 1993-cü ildə erməni quldurlarının kəlbəcərli mülki şəxsləri girov götürmə anları əks olunub. Terrorçu əsl xislətini əks etdirdiyi kimi, "tülkü" ləqəbli və artıq cəhənnəmə vasil edilmiş Monte Melkonyan da var həmin videoda. Təpədən-dırnağa silahlanmış erməni faşistləri səsucaldıcı ilə kəlbəcərlilərə rayonu tərk etmək üçün 10 saat vaxt verdiklərini deyərək, günahsız insanları düşürdükləri bu faciəvi vəziyyəti həyasızlıqla ələ salırlar. Videoda görünür ki, sonra erməni qatilləri əlində ağ bayraq qaldıraraq onlara yaxınlaşan azərbaycanlı yaşlı qadını, eyni zamanda macal tapıb rayonu zamanında tərk etməyi bacarmayan 78 yaşlı kişini - yuxarıda haqqında bəhs etdiyimiz və atamın əmisi olan Kazım Məmmədovu girov götürürlər.

Elə erməni vəhşilərinin əlinə keçdiyi həmin andan etibarən digər girovluqda olan soydaşlarımız kimi, Kazım Məmmədovun da bu dünyadakı cəhənnəm həyatı başlayır...

6 aylıq erməni girovluğundan sonra ölkəmizə qayıdanda Kazım əmini heç doğmaları da tanıya bilmədi. Zavallı yaşlını o qədər ac saxlamış, işgəncə, əzab vermişdilər ki, quruca sümükləri qalmışdı, nə yeriyə bilirdi, nə danışa... İki Dərin çuxura düşmüş gözləri isə şüşə kimi idi və boşluğa zillənmişdi. Sanki onlar canlı insana yox, ölüyə məxsus idilər...

Girovluqdan azad olunduğu 1993-cü ilin oktyabrından 1995-ci ilə - vəfatına qədər Kazım əmiyə gah Tərtərdəki, gah Qazaxdakı qardaşı uşaqları baxdılar.

Həmin dövrdə bir müddət də bizdə - Qobustan rayonunda müvəqqəti məskunlaşdığımız evdə qalan Kazım əminin necə dəhşətli əzablar çəkdiyinə uşaq yaşlarımda gözlərimlə şahid oldum.

### Dəhşətli işgəncələr, tükürpərdici xatirələr...

Qansız ermənilər ac saxladıqları, işgəncəyə məruz qoyduqları Kazım Məmmədovu girovluqdan azad edəndə də murdar xislətlərinə xas davranaraq onun qanına benzin vurmuşdular.

O, girovluqda gördüyü bütün bu zülmlərə görə ağlını da itirmişdi, gecə-gündüz qorxu ilə qışqırır, yatmaq nədir, bilmirdi. Arada 5-10 dəqiqəlik hafizəsi, huşu yerinə gələndə isə ermənilərin həm ona, həm də Kəlbəcərdən və digər işğal edilmiş rayonlarımızdan girov götürülmüş azərbaycanlılara verdikləri dəhşətli işgəncələrdən danışırdı: "Bir gün girovluqda olan say-seçmə gənc oğlanlarımızdan 10 nəfərini yığıb gözlərimizin qarşısında torpağa uzatdılar. Sonra isə tankla diri-diri üzərlərindən keçdilər..."

Həmin zaman onunla birgə girovluqda olmuş şəxslər sonradan danışırdılar ki, erməni qatillər girovlarımızı döyəndə, işgəncə verəndə, təhqir edəndə Kazım əmi onların bu vəhşiliyinə səssiz qalmamış, heç nədən çəkinməyərək bu qaniçənlərə layiq olduqları sözləri demiş, əsası ilə vururmuş. Buna görə də erməni vəhşiləri avtomatın qundağı ilə yaşlı kişinin başına vurub və ağzındakı qızıl dişləri də bu üsulla tökərək götürmüşdülər...

"İkinci Dünya müharibəsində alman faşizminin qəddar üzünü görmüşdüm, amma 6 aylıq erməni girovluğunda yaşadıqlarımdan, şahid olduqlarımdan anladım ki, dünyada erməni faşizmindən amansız, qansız faşizm yoxdur. Onlar faşist də deyillər, elə bil insan cildinə girmiş iblisdirlər..."

Bu ifadə də erməni faşizminin qurbanına çevrilərək ruhi və fiziki sağlamlığını itirən, ölüm həddinə çatdırılan Kazım əminin huşunun özünə qayıtdığı qiymətli dəqiqələrdə anlatdığı qandonduran gerçəkliklərdən biridir...

Erməni vəhşiliyi nəticəsində düçar olduğu xəstəliklərə, dəhşətli ağrı və əzablara tab gətirməyən Kazım əmi 1995-ci ildə bu həyata əbədi olaraq gözlərini yumdu.

Görünür, bu da amansız taleyin ironiyasıdır ki, 1941-1945-ci il müharibəsində dünyanın alman faşizmindən qurtulması uğrunda igidliklə döyüşən, "Qırmızı bayraq" ordeninə layiq görülən Kazım Bağır oğlu Məmmədov özü ömrünün ixtiyar çağında erməni faşizminin qurbanına çevrildi...

### "Dəmir yumruq" erməni faşizminin başını əzdi

Erməni qatillərin İkinci Dünya müharibəsində alman faşizminə qarşı vuruşmuş insanlarımıza xüsusi qəddarlıq nümayiş etdirmələri ilə bağlı çoxsaylı nümunə var. Onlardan biri də Kəlbəcərdə 18 aprel 1993-cü ildə törətdikləri Başlıbel qətliamı zamanı kahada yaxaladıqları əslən Laçından olan 70 yaşlı Hüseyn adlı kişini məhz II Dünya müharibəsi veteranı olduğunu eşitdikdən sonra aparıb kənddə diri-diri yandırmalarıdır...

Əslində, erməni faşist Qaregin Njdenin qanından olanlardan bundan artıq nə gözləyəsən ki...

O da təsadüfi deyil ki, faşist Njdeyə Ermənistanın paytaxtı İrəvanda abidə qoyulub, adı küçələrə verilib... Həmçinin ermənilər bu qaniçən haqqında filmlər çəkərək digər ölkələrdə yayımlamağa cəhd edirlər...

Bu gün faşizm üzərində çalınan tarixi Qələbədən 80 il ötür. 1941-1945-ci illər ərzində həm ön, həm də arxa cəbhədə misilsiz qəhrəmanlıq və fədakarlıq göstərərək faşizm üzərində qələbənin əldə olunmasına böyük töhfələr verən Azərbaycan xalqı da 9 May - Qələbə Gününü bayram kimi qeyd edir.

44 günlük Vətən müharibəsindəki parlaq qələbədən sonrakı 5 ildə isə biz 9 May Gününü həm də 2020-ci ildə qazandığımız parlaq Şuşa Zəfəri və 2023-cü ildə keçirilən 23 saatlıq antiterror tədbirləri sayəsində "dəmir yumruq"la erməni faşizminin başını əzməyimizin qürur hissi ilə böyük coşqu və təntənə ilə keçiririk.

Əminik ki, qisasları alındığı, qanları yerdə qalmadığı üçün torpaqlarımızın azadlığı uğrunda qurban getmiş bütün vətən övladlarımızın da ruhu artıq şaddır.

*Yasəmən QƏNAƏTQIZI,*
*"Azərbaycan"*

1945 Faşizm üzərində Qələbədən 80 il keçir 2025

# Alman faşizmini diz çökdürən Bakı nefti

İkinci Dünya müharibəsi ümumxalq xarakteri daşıyırdı. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı Sovet İttifaqı kimi ucsuz-bucaqsız bir ölkəni başdan-başa bürümüşdü. Azərbaycan da faşizmlə mübarizəyə qalxmışdı. Xalqımızın müharibədə iştirakı təkcə igid oğullarının odlu cəbhələrdə göstərdiyi qəhrəmanlıqla bitmirdi. Azərbaycanın özü də bir cəbhəyə çevrilmişdi - arxa cəbhəyə.



Azərbaycan həm birbaşa döyüş meydanında vuruşur, həm arxa cəbhədə işləyir, çalışır, əmək qələbələri qazanırdı. Cəbhəyə göndərilən Bakı neftinin əhəmiyyətinin isə qiyməti, misli-bərabəri yox idi. Marşal Georgi Jukov deyirdi ki, Bakı neftçiləri cəbhəyə və ölkəyə, düşmən üzərində qələbəyə kifayət qədər yüksək keyfiyyətli yanacaq vermişlər.

Müharibə Azərbaycandan uzaqlarda, SSRİ-nin şimal-qərb regionlarında başlansa da, dünya ağalığına can atan Hitlerin əsas məqsədlərindən biri neft Bakısını ələ keçirmək idi. Faşistlər Qafqaza hücuma başlayanda feldmarşal Manşteyn demişdi: "Biz mütləq Bakını tutmalıyıq. Əgər biz Bakı neftini ələ keçirməsək, müharibəni uduzacağıq".

Elə bu böyük iştaha ilə də Hitlerin ad günü üçün bişirilən tortun üstündə Bakı şəhəri və Xəzər dənizi təsvir edilmişdi. Qafqazın işğalı üçün tərtib edilmiş planın (Edelveys planı) həyata keçirilməsi faşistlərin "A" qrupu ordusuna həvalə olunmuşdu. Bu plana əsasən, Qafqaz beş işğal rayonuna bölünməli və bunların sırasında Azərbaycana xüsusi önəm verilməli idi. "Ost" planına görə, Bakının 1941-ci il sentyabr ayının sonuna qədər işğal olunması nəzərdə tutulmuşdu. Faşistlər Bakını işğal edib onun neftini alman şirkətlərinin sərəncamına vermək məqsədini qarşıya qoymuşdular. Onlar hətta əvvəlcədən Azərbaycandakı iri sənaye müəssisələrinə rəhbərlər də təyin etmişdilər. 16 iyul 1941-ci ildə Hitler hökumət üzvlərinin yığıncağında bildirmişdi ki, Bakı alındıqdan sonra hərbi məntəqəyə çevriləcək.

Faşistlər Bakını tuta bilmədilər. Çünki Hitlerin bu mənfur planının puç olması üçün Azərbaycan bütün varlığı ilə çalışdı, vuruşdu, mübarizə apardı. Tanınmış həmyerlimiz Nikolay Baybakovun dediyi kimi: "Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. 40-cı illərdə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü".

O illərdə Azərbaycanın bütün iqtisadiyyatı müharibənin tələblərinə uyğun qurulmuşdu. Fəhlə və qulluqçular üçün iş günü 11-12 saata qədər uzadılmışdı, məzuniyyətlər ləğv edilmişdi. Ərzaq və çoxişlənən sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq olunurdu. Cəbhələrdə döyüşən əsgərlərin yerini istehsalatda qadınlar və yeniyetmələr, hətta qocalar tutmuşdular. Müharibənin ilk ilində təkcə neft sənayesində işləməyə 11 min qadın gəlmişdi.

Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdı. O zaman SSRİ-nin əsas duru yanacaq - neft bazası olan Bakının rolu xeyli artmışdı. Belə ki, müharibə illərində Bakı ölkə neftinin 70-75 faizini, benzinin 80-90 faizini verirdi. Motorlu hərbi texnika, demək olar ki, Bakının verdiyi yanacaqla işləyirdi. Başqa sözlə, 1941-1945-ci illərdə Bakı ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin vermişdi. Ümumiyyətlə, bu şəhər döyüşən ordunun cəbbəxanalarından birinə çevrilmişdi. Bakıda "Katyuşa" raketi, "Şpakin" pulemyotu istehsal edilirdi. "Yak-3" qırıcı təyyarələri yığılırdı. Burada 130-dan çox silah və onların hissələri hazırlanırdı.

Marşal Andrey Qreçko yazmışdı: "Azərbaycandan cəbhəyə tükənməz axınla yüksəkkeyfiyyətli benzin, silah, döyüş sursatı və ərzaqla dolu yük qatarları gəlirdi".

O dövrdə SSRİ-nin yüksək oktanlı benzinə böyük ehtiyacı vardı. Bu cür benzin hava döyüşlərində üstünlük əldə etmək üçün vacib amil idi. Belə ki, belə benzin təyyarənin sürətini artırır, göyə qalxma müddətini azaldırdı. Azərbaycanın məşhur kimyaçı alimi Yusif Məmmədəliyevin tədqiqatları sayəsində qısa müddətdə belə yüksək oktanlı benzin alındı. Təsadüfi deyil ki, azərbaycanlı alim SSRİ Dövlət mükafatı aldı və onun adı döyüş maşınları və mühərrikləri icad edən İlyuşinlə, Yakovlevlə, Lavoçkinlə, Mikulinlə yanaşı çəkildi.

Marşal Konstantin Rokossovski demişdi: "Hər bir təyyarəmizin, tank ekipajının düşmənə zərbəsində Bakı neftçilərinin payı vardır".

Neft mədənləri əsl cəbhəyə çevrilmişdi. Azərbaycan neftçiləri gecə-gündüz işləyirdilər. "Pravda" qəzeti 28 iyul 1941-ci il tarixli nömrəsindəki "Azərbaycan bu gün" adlı məqaləsində Staxanov hərəkatının önündə gedən, iki növbə işləyən neftçilərin, kənd yerində çalışan kolxozçuların, iməciliklər keçirərək cəbhədəki əsgərlərə yardım göstərən insanların fədakarlığından bəhs edirdi.

Azərbaycan neftçiləri təkcə əmək meydanında hünər göstərməklə kifayətlənmirdilər. Onların qəlbi bütün ölkə ilə birlikdə döyünürdü. Məsələn, Leninqrad (indi Sankt-Peterburq) blokadasında qalan insanlara yazırdılar ki, Azərbaycan neftçiləri daim sizinlədir.

Azərbaycan xalqının müharibə illərindəki fədakarlığından danışarkən Ümummilli Lider Heydər Əliyev demişdir: "Bugünkü və gələcək tarix Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının xidmətlərini, rolunu unutmamalıdır. Bir daha təkrar edirəm, bizim mətin insanlarımız, neft sənayesində çalışan və tarixi xidmətlər göstərərək cəbhəni yanacaqla təmin edən neftçilər hər cür şərəfə layiqdirlər".

O illərdə Azərbaycan neftçiləri çətin şəraitdə işləyirdilər. Bununla belə, neft hasilatını əvvəlki illərə nisbətən qat-qat artırmağa nail olmuşdular. Müharibənin təkcə birinci ilində Bakı ölkəyə 23,5 milyon ton neft və 2,6 milyon kubmetr təbii qaz vermişdi. Bakı mədənlərində ovaxtadək belə göstəricilərə nail olunmamışdı.

Müharibə şəraiti ortaya yeni-yeni çətinliklər atırdı. 1942-ci ildə Qafqaz ərazisində döyüşlər getdiyindən Bakıda neft quyularının fəaliyyəti müvəqqəti olaraq dayandırıldı. Abşeron yarımadasında yeni yataqlar işə salınmadı. Bundan əlavə, istehsal olunmuş xammalı və neft məhsullarını Şimali Qafqaz və Volqa çayı ilə daşımaq mümkün deyildi. Çünki nəql infrastrukturu hərbi əməliyyatların getdiyi ərazilərdən keçirdi. Lakin tezliklə bu çətinlikdən də çıxış yolu tapıldı. Neft məhsullarını "yer anbarları"na və göllərə (Zığ, Masazır və s.) doldurmağa başladılar. Sonra onları Xəzər dənizi ilə nəql edirdilər. Müharibənin həlledici mərhələsi olan 1942-ci ildə Xəzər dənizi ilə cəbhəyə 505 min ton, Həştərxan vasitəsilə 336 min ton neft məhsulları daşınmışdır.

Təsadüfi deyil ki, 9 May günü hər il Azərbaycanda təntənə ilə qeyd edilir. O acı olaylar da yaddan çıxmır ki, 1990-cı illərin əvvəllərində AXC-Müsavat cütlüyü öz hakimiyyəti dövründə bu bayramı ləğv etmişdi. Yalnız Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu günə yenidən önəm verdi və indi rəsmi bayramlar sırasında qeyd olunur. İstər bayram günündə, istərsə digər vaxtlarda faşizm üzərində qələbə üçün Azərbaycan neftçilərinin verdiyi töhfə daim yada salınır.

Bakı nefti olmadan 1941-1945-ci illər müharibəsində SSRİ faşizmə qalib gələ birlərdimi? Cavab bütün dünyaya aydındır. Bu sualı dünyanın görkəmli şəxsiyyətləri öz güclü məntiqlərinin süzgəcindən keçirərək, demək olar ki, eyni cür cavablandırıblar. Məsələn, uzun illər SSRİ neft və qaz sənayesinə başçılıq etmiş Nikolay Baybakov təsdiq edib ki, SSRİ-nin neft balansında Azərbaycanın iştirakı olmasaydı, Sovetlər İttifaqının faşizm üzərində qələbəsi sual altında qala bilərdi.

Ulu Öndər 25 fevral 2003-cü ildə "Şərq-Qərb" enerji dəhlizi reallıqdır" mövzusunda Vaşinqtonda keçirilən beynəlxalq konfransdakı nitqində demişdi: "Çoxları indi də deyir ki, əgər Azərbaycan nefti olmasaydı, İkinci Dünya müharibəsində SSRİ-nin İngiltərə və Amerika koalisiyası ilə birlikdə alman faşizminə qalib gəlməsi mümkün olmazdı".

Digər bir çıxışında isə Ulu Öndər demişdir: "Əgər Bakının nefti olmasaydı, Sovet İttifaqının qələbəsi mümkün deyildi".

Prezident İlham Əliyev 11 oktyabr 2019-cu ildə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında Azərbaycanın İkinci Dünya müharibəsindəki qələbəyə töhfəsini bir daha vurğulamışdır: "Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi. Hərbi kinoxronikada məşhur kadrlar var: Hitlerə verilən tortun üzərində alman dilində "Xəzər dənizi" sözləri yazılmış bir oyuq, həmin oyuqda "Bakı" adlı qara rəngli maye şokolad var. Hitler şokoladı qaşıqla götürür və tortun üstünə süzür, sonra svastika şəklində şokoladı götürüb "Bakı" sözü yazılan yerə qoyur. Bu kadr faşistlərin Azərbaycanın neft yataqlarını, həmçinin hamımızın bildiyi kimi, Şimali Qafqazın neft yataqlarını tutmaq planlarını vurğulayır. Əgər faşistlər Bakını tutmağa müvəffəq olsaydılar, sovet ordusu Qələbə üçün çox zəruri olan yanacaqsız qalardı, Bakı şəhəri isə havaya sovrulardı. Çünki belə fövqəladə vəziyyətdə sovet hökuməti neft quyularının düşmən əlinə keçməməsi üçün onların hamısını minalamışdı. Yəni bu halda qurbanların sayı bəlkə yüz minlərlə olardı".

Ən yeni tariximizi də xatırlayaraq qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı igid oğullar döyüş meydanında hünər göstərərkən Azərbaycan xalqının arxa cəbhədə əli işdəngücdən soyumurdu. Hamı dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşmişdi. Hamı qəlbən, ruhən döyüşən ordunun yanında idi. Bir "dəmir yumruğ"a dönmüşdü Azərbaycan. Zəfərimizin hərəkətverici qüvvəsi, rəhni, səbəbi də bax, bu idi!

***Flora SADIQLI,***
***"Azərbaycan"***



**Qatar Rione çayı boyunca uzanan relslərin üstü ilə sürətlə Kutaisiyə doğru irəliləyirdi. İçərisi 18-20 yaşlı gənclərlə dolu olan vaqonlarda ağız deyəni qulaq eşitmirdi. Yol bitmirdi ki, bitmirdi... Əslində, bu qatarın sərnişinləri də yolun bitməsini heç o qədər də arzulamırdılar... Bəlkə də ürəklərində "kaş müharibə bitənədək qara tüstü buraxan bu parovoz fit çala-çala hərəkət edəydi" deyirdilər. Vaqonlardakı gənclərin arasında elələri vardı ki, indiyədək doğulduğu kənddən kənara belə çıxmamışdı. Evinin astanasından bayıra çıxmayan biri üçün "dünyanın o biri ucu"na müharibəyə, Hitlerin cavabını verməyə gedən, bığ yeri yenicə tərləmiş kənd uşaqlarının vəziyyətini təsəvvür etmək o qədər də çətin deyildi...**

# "Uzaq sahillərdə"ki azərbaycanlı Veselin



Gəncənin adlı-sanlı ziyalılarından, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncə şəhərində katib işləmiş Ağamir Həşimzadənin oğlu Mirdamət Seyidov da bu qatarda idi. Mirdamət Ağamir oğlu Seyidov 25 aprel 1922-ci ildə indiki Göygöl rayonunun Qızılca kəndində anadan olub. Dövrünün maarifpərvər ziyalılarından olan Ağamir Həşimov övladlarının kiçik yaşlarından onların təhsili ilə ciddi məşğul olmuşdu. Bunun nəticəsi olaraq, Gəncə şəhər 1 nömrəli beynəlmiləl orta məktəbin birinci sinfinə qəbul olunan uşaqların hazırlığını yoxlayan görkəmli ziyalı Mircəlal Paşayev Mirdamət Seyidovun birbaşa ikinci sinfə qəbul olunması haqqında göstəriş vermişdir. Mirdamət Seyidov müharibəyə Gəncə şəhər Tibb Texnikumunun Feldşer-mamalıq fakültəsinin məzunu kimi gedirdi.

Azərbaycanlılardan və gürcülərdən təşkil olunmuş 388-ci atıcı diviziyası Kutaisidə yerləşirdi. Burada çağırışçılar həkim nəzarətindən keçir, peyvənd olunub qısa hazırlıqdan sonra birbaşa döyüş bölgəsinə yola salınırdılar. Tibbi təhsili olduğu üçün Mirdamət Seyidov diviziyanın həkim nəzarəti üzrə rəisi təyin edilir. İki günə 350 nəfəri peyvənd edib döyüşə yola salmaq əmrini alan gənc tapşırığı uğurla icra edir.

İki gündən sonra əsgərlər Poti limanından yük gəmisi ilə Sevastopola yola salınırlar. Səhərisi gün hərbçiləri aparan gəmi Sevastopola çatır... Əhalinin köməyi ilə Sevastopol şəhəri səngərlə əhatə olunmuşdu. Əmrə müntəzir əsgərlər İnkerman dərəsi ətrafında toplaşmışdılar. Elə bu zaman alman aviasiyasının hava hücumu başlayır. Bombardman nəticəsində torpağın altı üstünə çevrilirdi. Bombardmançı təyyarələr uzaqlaşdıqdan sonra sağ qalan əsgərlər bir-bir səngərdən çıxıb yaralı yoldaşlarına yardım edirdilər. Mirdamət də səngərdən çıxmaq istəyəndə sol ayağının yaralandığını hiss edir...

Diviziyanın zenit batareyası Sevastopolun şimalında yerləşirdi. Ön cərgədə döyüşən əsgərlərin əksəriyyəti Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun məzunları idi. Düşmənin qarşısıalınmaz hücumuna məruz qalan əsgər və zabitlərin çoxu qəhrəmancasına həlak olmuşdu. Şəhəri düşmən tam mühasirəyə almışdı. Mühasirə zolağı daraldıqca sovet hərbçiləri Qara dəniz sahilinə tərəf çəkilir, hələ də onlara kömək gələcəyinə ümid edirdilər. Üç tərəfdən faşistlərlə - bir tərəfdən su ilə mühasirə olunan ordu ölümlə üz-üzə qalmışdı. Bombardmançı təyyarələr bombanı yağış kimi yağdırırdılar. Belə bir vəziyyətdə bombalardan qorunmaq üçün Mirdamət ştabın yerləşdiyi tunelə getmək istədi. Səsi ilə dəhşət gətirən, yeri, göyü lərzəyə salan bomba yaxınlıqdakı buxtaya düşdü. Bombanın zərbəsindən göyə qalxan Mirdamət Seyidov gözlərini açanda özünü tuneldə gördü. Bomba düşən zaman döyüş yoldaşları Mirdamətin onlara tərəf qaçdığını görüb onu huşsuz halda tunelə aparmışdılar. Tunel alman əsgərləri ilə əhatə olunmuşdu. Onlar bir-bir meyitləri yoxlayır, ağır yaralıları yerindəcə güllələyir, sağ qalanları əsir götürürdülər. Tuneldə gizlənən əsgərlər əsir düşmək üçün faşistlərin əmrini gözləyirdilər.

Mirdamət Seyidov komsomolçu idi. Hələ üstəlik komsomol bileti də cibində idi. Bu isə real ölüm demək idi. Faşistlər komsomolçuları və kommunistləri sorğu-sualsız güllədən keçirirdilər...

Mirdamət Seyidov onun haqqında çəkilən "Unudulmuş partizan" sənədli filmində o günləri belə xatırlayır: "Tunelin girəcəyindən səs gəldi: Raus! Raus! - Bayıra çıxın.

Bir əlim yaralı idi. Tez komsomol biletimi çıxarıb şəklimi dişimlə cırıb bileti daşların arasında gizlətdim. Qırx nəfərə yaxın döyüşçü bayıra çıxdıq. Faşistlər "Hende hox" bağıraraq əsgərlərə əllərini qaldırmağı əmr edir, silahlarımızı alıb bizi sıraya düzürdülər. Faşistlər Sevastopol ordusunun ştabı yerləşdiyi tunelə yaxınlaşdılar. Ən sonda komandir və komissar ştabı tərk etdilər. Faşistlərin əmrinə tabe olmayıb əlini qaldırmayan komandir və komissar yerindəcə güllələndi".

4 iyul 1942-ci il idi. Üç-dörd gün piyada yol gedən, ac-susuz, taqətsiz əsirləri Sevastopolun kənarında yerləşən Neoşili çayının kənarında bir təpənin ətrafına cəmləşdirdilər. Dərənin aşağı hissəsində onları alman SS-ləri gözləyirdi. Yerindəcə güllələnəcək əsirlərlə sağ saxlayacaqlarını iki qrupa bölürdülər. Orada SS-lərlə birlikdə uzun əbalı bir molla da var idi. Molla yəhudilərlə müsəlmanları ayırmaqda onlara kömək edirdi. Yəhudiləri elə yerindəcə güllələyirdlər.



Mirdamət hələ Qızılcada olanda atasının alman müəllimi Otto ona alman dilini xüsusi olaraq öyrətmişdi. Vəziyyəti görən Mirdamət tez mollaya yaxınlaşıb alman dilində yəhudi olmadığını, azərbaycanlı olduğunu deyir.

Molla onu sağ qalacaq əsirlərin sırasına keçirir. Canını ölümün pəncəsindən qurtaran Mirdamət sırada duran azərbaycanlıları da göstərib onların da sağ qalmalarına kömək göstərməsini molladan xahiş edir. Sağ qalan əsirlər Canköyə, oradan da vaqonlara doldurulub silahlı almanların nəzarəti altında Ukraynaya aparılır. Qatar Ukraynadan keçərək Lunnıy ilə Xorol şəhərlərinə doğru istiqamət alır...

## Əsirlik həyatının əzab-əziyyət dolu yeni səhifəsi

1942-ci il isti avqust günlərində əldən düşmüş əsirlər bombardman nəticəsində xarabalığa çevrilmiş Priyatin şəhərinə çatırlar. Xarabalıqlarda gecələyən əsirlər səhərisi gün Priruki şəhərinə yollanırlar. Prirukidə azərbaycanlılardan ibarət xüsusi legion var idi. Mirdamət də həmin legiona yerləşdirilir.

Legion həyatının üçüncü günündə əsirləri müşayiət edən alman zabiti "Kim alman dilində yazıb-oxuya bilir" soruşduqda Mirdamət Seyidov "mən" deyə cavab verir. Legionerlərin arasında bir neçə dil biləni seçib Mirqorod şəhərinə aparırlar. Mirqorod şəhərində Qafqaz, Orta Asiya və zaqafqaziyalılardan ibarət Türküstan diviziyası yaradılmışdı. Diviziyanın tərkibində gəncəli Teymur Niyazovun komandirlik etdiyi bölük var idi. Mirdaməti və alman dili bilən digər yoldaşlarını da həmin bölüyə yerləşdirdilər.

## Mehdi Hüseynzadə ilə ilk tanışlıq

Mirdamətlə Mehdi Hüseynzadə Ukraynanın Proskurov şəhərində tanış olmuşdular. Mehdi Kalç şəhəri ətrafında yaralanaraq əsir düşmüş, zabit olduğu üçün onu da digər zabitlərlə birlikdə Prsurov şəhərinə, oradan da Mirqoroda gətirmişdilər. Diviziyada Mehdi, Mirdamət, Cəmil və 15 nəfərə yaxın azərbaycanlı bir otağa yerləşdirilmişdi.

Bir neçə gün sonra əsirlər Almaniyanın Bunslau şəhərinə aparılmışdılar. İndi bu şəhər Polşanın Boleslavest şəhəridir. Mirdamət bir müddət burada hospitalda müalicə aldıqdan sonra batalyonda tərcüməçi işləməyə başladı. Türküstan diviziyasının ştab rəisi Berst fon Hammerştayn idi. O, alman ordusunda xidmət etsə də, faşistləri sevmirdi. Onun evindəki xidmətçi də Ağəli adlı azərbaycanlı gənc idi. Alman dilini mükəmməl bildiyi üçün Hammerştaynla Mirdamət Seyidov arasında isti bir münasibət yaranmışdı...

Onu da qeyd edək ki, alman faşistləri Türküstan diviziyasının əsgərlərinə loyal yanaşırdılar. Faşistlərin məqsədi diviziyanın əsgərlərindən İtaliya partizanlarına qarşı döyüşdə istifadə etmək idi. Elə bu məqsədlə də orduda yaranan pərakəndəliyi, dağınıqlığı aradan qaldırmaq üçün Türküstan diviziyasını İtaliyanın şimalına aparmışdılar. İtaliya ilə yanaşı, Yuqoslaviyada da güclü partizan hərəkatı başlamışdı. Yuqoslaviya partizan hərəkatına Yuqoslaviya Kommunistlər İttifaqının sədri İosip Bors Tito rəhbərlik edirdi. Hələ 1941-ci ildə Almaniya SSRİ-yə hücum edərkən Tito xalqını faşizmə qarşı mübarizəyə çağırmışdı.

Mirdamət Seyidovun fəaliyyəti haqqında bir neçə məqalə, sənədli roman yazılıb və sənədli film çəkilib. Yazını hazırlayarkən "Partizanın acı həqiqətləri" sənədli romanının müəllifi İradə Aytellə də görüşdük. Yazıçı dedi: "Mən Yuqoslaviyada və İtaliyada Xalq Müqavimət Hərəkatının iştirakçısı, əfsanəvi partizan Mirdamət Seyidovla tanış olanda o, polkovnik rütbəsində DİN-dən təqaüdə çıxıb Qızılca kəndində yaşayırdı. Bizi beli bükülmüş, əlindəki əsanın hesabına çətinliklə yeriyən Mirdamət Seyidov özü qarşıladı. Baxışları çox iti, danışığı sərrast, cümlələri akademik səviyyədə olan polkovnikin bütün hərəkətlərindən alicənablıq yağırdı.

Partizanın keçdiyi keşməkeşli həyat və döyüş yolları, qarşılaşdığı çətinliklər, işgəncələr, Dahauda yaşadığı ölümün hər günü barədə kiçik bir reportaj hazırladıq...

Həmin gündən sonra həftədə bir-iki dəfə Mirdamət babanın evinə gedir, söylədiklərini qələmə alırdım".

## Miliç Mario, İvan Russki...

Türküstan diviziyasının işçi batalyonunda almanlarla əsirlər arasında tərcüməçi kimi fəaliyyət göstərən Mirdamət Seyidovun azərbaycanlılar və başqa əsirlər arasında böyük hörməti var idi. O, 1943-cü il sentyabrın 23-dən başlayaraq faşizim əleyhinə gizli təbliğat aparırdı. İtaliyada partizan hərəkatının gücləndiyindən məlumatı olan Mirdamət Seyidov partizanlara qoşulmaq üçün yollar axtarırdı. Həm də bu yola tək çıxmaq istəmirdi. Fikrini ilk dəfə daha çox güvəndiyi, əslən Salyandan olan işçi batalyonunun mollası Miryaqub Mirsalah oğlu Ağalarova bildirirdi. Miryaqubla razılaşdıqdan sonra Türküstan diviziyasının içərisində yaratdığı partizan dəstəsinin sıralarını genişləndirməyə başlamışdı. Əsas məsələ indi partizan dəstəsinə qoşulmaq üçün yol tapmaq idi. Bu, əsirlər üçün çox müşkül bir iş idi. Amma mümkünsüz də deyildi. Arabir sloven qızları onlara yaxınlaşıb tanış olmaq istəyirdilər. Əslində, bu qızları da Sloveniyanın partizan dəstələrinin rəhbərləri əsirlərlə tanışlığa cəlb edirdilər. Onlar yaxşı bilirdilər ki, əsirlər də alman faşizminə nifrət edirlər.

## "Alman zabiti" Mehdi Hüseynzadə ilə hazırlanan qaçış planı

Elə bu ərəfədə alman hərbi zabiti geyimində, belində tapança, xüsusi zabit nişanı olan Mehdi Hüseynzadə Mirdamətə yaxınlaşır. Mirqorod şəhərində bir-birindən aralı düşən dostlar mehribancasına görüşürlər. Mehdiyə özü qədər etibar edən Mirdamət sirrini ona da açır. Onu dinləyən Mehdi Mirdamətdən ona da partizan dəstəsinə qoşulmaqda yardımçı olmasını xahiş edir...

7 fevral 1944-cü ildə qızlar xəbər gətirdilər ki, gecə Mirdaməti, Mehdini, Cavadı partizanlar ştabda gözləyəcəklər. Mehdi Hüseynzadə ilə Cavad Həkimini partizanlarla tanış edən Mirdamət Seyidov yenidən işlədiyi düşərgəyə qayıtmalı olur. Mehdigilin partizanlara qoşulması legionun alman zabitlərində ciddi şübhələr yaratmışdı. Onlar əsirlərin hər hərəkətinə diqqət edirdilər.

Azərbaycanlılardan ibarət legioner batalyonu Trest yaxınlığında Kontovello qəsəbəsində yerləşirdi. Batalyona əslən Dəvəçidən olan azərbaycanlı Sadıq Qasım oğlu Nadirli komandirlik edirdi. Onun müavini isə Məmmədağa Nəzərov idi. Mirdamət Seyidov uzun müddət idi ki, oradakı legionerlərin də partizanlara qoşulmaları üçün baş sındırırdı. Belə qərara gəldilər ki, "çağırış" vərəqələri çap edib, gecəykən batalyona gedib legionerlər arasında yaysınlar. Bu zaman Bozaoviçsa kəndində olan Cəmil də ora gələrək vərəqələri paylamağa getmək istədiyini bildirdi. Partizanlar birlikdə hərəkət etmək üçün razılığa gəldilər. Kəşfiyyatçı qızlar xəbər gətirmişdilər ki, almanlar kəndlərdə partizan dəstələrinin olmasından xəbər tutublar. Kəndi yoxlamağa gəlirlər. Kəndin üzərində almanların kəşfiyyatçı təyyarələri uçurdu. Partizanlar tez Skopye kəndini tərk edib meşəyə çəkildilər. Partizanları kənddə tapa bilməyən faşistlər Velikiy Dol və yaxınlıqda olan bir neçə kəndin yerli sakinlərini vəhşicəsinə qətlə yetirib ev-eşiklərini yandırdılar...



*(Ardı var)*

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Həştərxanda Ümummilli Lider Heydər Əliyevin xatirəsi yad olunub

Müasir Azərbaycanın qurucusu və memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü Azərbaycan nümayəndə heyətinin iştirakı ilə Rusiya Federasiyasının Həştərxan vilayətində qeyd edilib.



AZƏRTAC xəbər verir ki, Həştərxana səfər çərçivəsində mayın 5-də Azərbaycan nümayəndə heyəti ilə "Ümumrusiya Azərbaycan Gənclər Təşkilatının" (AMOR) Həştərxan bölməsinin üzvləri arasında görüş keçirilib. Görüşdə Azərbaycanın nailiyyətlərinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğu qeyd edilib, bundan sonra da daim dövlətimizin və Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli ideologiyamız üçün çalışmağın vacibliyi vurğulanıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, siyasi iradəsi və şanlı ordumuzun qəhrəmanlığı sayəsində işğaldan azad olunan yurdumuzun sürətli şəkildə bərpa olunduğu, soydaşlarımızın öz torpaqlarına geri döndüyü və Qarabağda həyatın yenidən canlandığı qeyd edilib.

Bildirilib ki, Heydər Əliyev Fondu tərəfindən bir çox ölkədə, o cümlədən Rusiya Federasiyasının müxtəlif regionlarında çoxsaylı layihələr həyata keçirilib.

Həştərxan vilayətinin rəsmiləri isə Heydər Əliyev Fondu tərəfindən vilayətdə həyata keçirilmiş layihələrə görə təşəkkürlərini bildirib, "Ümumrusiya Azərbaycan Gənclər Təşkilatının" (AMOR) üzvləri Heydər Əliyev Fondunun vitse-prezidenti və Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın Həştərxan şəhərinə səfərlərini böyük sevgi ilə xatırladıblar.

Mayın 6-da Azərbaycan nümayəndə heyəti, Həştərxan vilayətinin vitse-qubernatoru - hökumət sədri Denis Afanasyev və Həştərxan vilayətinin rəsmi şəxsləri, Azərbaycan diasporunun nümayəndələri Həştərxan şəhərində Ulu Öndərin adını daşıyan xiyabana gələrək onun abidəsini ziyarət edib. Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, əziz xatirəsi dərin ehtiramla yad olunub. Daha sonra nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyev adına olan parkda Ulu Öndərin xatirəsinə təşkil edilmiş ağacəkmə aksiyasında iştirak edərək, ağac və gül kolları əkiblər.

Sonra II Dünya müharibəsində həlak olanların xatirəsinə ucaldılmış "Qardaşlıq məzarlığı" ziyarət edilib, "Əbədi məşəl" önünə güllər qoyulub.

Həmin gün nümayəndə heyətinin Həştərxan vilayətinin qubernatoru İqor Yuryeviç Babuşkin ilə görüşü keçirilib. Görüşdə iki ölkə arasında mövcud əməkdaşlığın perspektivlərindən söz açılıb. Ölkələrimiz arasındakı münasibətlərin dostluq və qardaşlıq prinsiplərinə söykəndiyini vurğulayan İ.Babuşkin qeyd edib ki, qurulan iqtisadi əlaqələr və həyata keçirilən çoxsaylı layihələr müsbət nəticələr verməkdədir.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev səmimi qəbula görə Həştərxan vilayəti hökumətinə təşəkkürünü bildirib. Mayın 7-də Azərbaycan nümayəndə heyəti Heydər Əliyev adına 11 saylı orta ümumtəhsil məktəbini ziyarət edib, məktəbdə Ulu Öndərin büstü önünə gül dəstələri düzərək, dahi rəhbərin əziz xatirəsini ehtiramla anıb.

# "Küçə mühitində olan uşaqlarla iş sahəsində aidiyyəti qurumlar arasında fəaliyyət mexanizminin inkişafı" layihəsinin yekununa həsr edilmiş konfrans keçirilib

Mayın 8-də Nazirlər Kabineti yanında Uşaq hüquqlarının müdafiəsi üzrə Komissiyanın fəaliyyəti çərçivəsində "Regional İnkişaf" İctimai Birliyi (RİİB) və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tərəfdaşlığı ilə icra olunmuş "Küçə mühitində olan uşaqlarla iş sahəsində aidiyyəti qurumlar arasında fəaliyyət mexanizminin inkişafı" layihəsinin yekununa həsr edilmiş konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, konfransda Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirələri bir dəqiqəlik sükutla yad edilib. "Regional İnkişaf" İctimai Birliyinin şöbə müdiri Gülbağda Leysanova Hacıyeva layihə çərçivəsində görülən işlər barədə məlumat verib. Bildirib ki, layihənin icrası nəticəsində aidiyyəti qurumlar tərəfindən küçə mühitində olan uşaqlar və ailələri üçün göstərilən xidmətlər və resurslar xəritələşdirilib, Türkiyədən dəvət olunmuş ekspertin dəstəyi ilə hazırlanmış təlim proqramı əsasında layihəyə cəlb olunan sosial işçilər və digər iştirakçılara təlim keçirilib. Həmçinin sahə tədqiqatlarının aparılması üçün metodologiya və digər sənədlər hazırlanıb, 100 uşaqla bağlı tədqiqatlar aparılıb, məlumatlar toplanıb, onların və ailələrinin sosial-psixoloji reabilitasiya, təhsil, səhiyyə, fərdi inkişaf, məşğulluq, hüquqi dəstək, sənədlərin hazırlanması və s. ehtiyacları müəyyən edilib və onların həlli istiqamətində tədbirlər görülüb.

Nazirlər Kabinetinin Sosial məsələlər şöbəsinin böyük məsləhətçisi Gülnur Rzayeva, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatının Uşaq hüquqlarının müdafiəsi sektorunun müdiri Nigar Ağayeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq məsələləri şöbəsinin müdiri Cəmilə Bağırova, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin İdarə Heyəti sədrinin müşaviri Məftunə İsmayılova, Səhiyyə Nazirliyinin Ana və uşaq sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova, Elm və Təhsil Nazirliyinin Uşaq və gənclərin inkişafı şöbəsinin Tərbiyə məsələləri üzrə iş sektorunun müdiri Qeyrət Şirəliyev, Gənclər və İdman Nazirliyinin İctimai inkişaf sektorunun müdiri Elşən Qəhrəmanov və Türkiyədən olan beynəlxalq ekspert Mehmet Zafer Danış çıxış ediblər. Onlar layihənin dövlət siyasətindəki əhəmiyyətindən, mövcud çağırışlardan və hüquqi mexanizmlərdən danışıb, qurumlararası əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Konfrans daha sonra "Mövcud vəziyyət və problemlər" və "Yeni həll üsulları və innovativ yanaşmalar" mövzularında panel sessiyalarla işini davam etdirib.

# Məhkəmədə Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcərin işğalı zamanı əsir və girov götürülmüş azərbaycanlılara işgəncələr verilməsi ilə bağlı ifadələr dinlənilib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 8-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə əvvəlcə Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli Kəlbəcər işğal edilən zaman ermənilərin çəkdiyi videomaterialları təqdim edib. Nümayiş olunan videomaterialdan biri 1993-cü ilin mart və aprel aylarında lentə alınıb.

Həmin görüntülərdə Ermənistan hərbçiləri rabitə əlaqəsi ilə Monte Melkonyana keçirilmiş hərbi əməliyyatlar, Azərbaycanın hansı ərazilərini işğal etdiklərinə dair məlumat verir.

Kadrlarda Monte Melkonyan erməni hərbçilərdən bir neçə dəfə təkrar soruşur ki, "bu gün nə etmişik?", "bu gün indi haradayıq?", "dünən haradaydıq, nə etdik?"

Hərbçi cavab olaraq hazırda Kəlbəcərdən 20 kilometr məsafədə olduqlarını bildirir.

Videogörüntülərdə danışan Monte Melkonyan deyir ki, onlar Ağdərənin qərb hissəsindən, Ağdaban istiqamətindən hərəkətə başladılar, indi Kəlbəcərə çatıblar. "Kəlbəcəri Ermənistana birləşdirməklə bütün Qarabağ Ermənistana "birləşəcək", Ermənistana çox yollar açılacaq. Ümid edirəm azərilər (azərbaycanlılar - red.) başa düşəcək və qəbul edəcək ki, hər şey bitdi", - deyə videomaterialda "Avo" ləqəbli Monte Melkonyan bildirir.

Kadrlarda, həmçinin Monte Melkonyan azərbaycanlıların güclü müqavimət göstərib-göstərmədiyi barədə suala cavabında bildirir ki, "Bəli möhkəm xətt idi. Biz Laçın yolunu kəsib bura gəldik. Hər bir erməni başa düşsün ki, bu işdə onun iştirakı çox vacibdir. Bu ərazilər 1988-ci ildə qəbul edildiyi kimi Ermənistana "birləşəcək".

Videomaterialda danışan Monte Melkonyan döyüş zamanı təxminən 70 nəfər azərbaycanlının öldürüldüyünü deyir.

Kadrlarda qətlə yetirilmiş azərbaycanlıların nəşləri göstərilir.

Görüntülərdə Ermənistan qoşunlarının Kəlbəcərə və ətraf kəndlərə girdiyi də nümayiş etdirilir.

Bundan sonra məhkəmədə zərərçəkmiş şəxslər dindirilib.

Əvvəlcə çıxış edən zərərçəkmiş Zabil Səfərov ifadəsində 1993-cü il aprelin 4-də Ermənistan silahlı bölmələrinin Kəlbəcərə girdiyini, onları mühasirəyə aldığını deyib.

"Ermənilər məni tanka mindirib aparanda nənəm yalvardı ki, uşağı məndən ayırmayın. Amma onlar buna məhəl qoymadı. Bundan sonra nənəmi "nə vaxtsa bizim ordu bu torpaqları alacaq" sözünə görə orada öldürdülər. Nənəmi öldürəndən sonra məni Kəlbəcərin Vəng kəndinə gətirdilər. Orada da bizə işgəncə verib, sonra rayona gətirdilər", - deyə o bildirib.

Zərərçəkmiş şəxs xatırlayıb ki, Ermənistan silahlı qüvvələrinin hərbçiləri girov götürdükləri qadınları təhqir edir, qoca, uşaq demədən hamıya işgəncələr verir, onları qətlə yetirirdilər.

"Ermənilər şişi qızdırıb bizim əsgərin bədənini yandırdılar. Mən Şuşa "türmə"sində olarkən birinin bədənini yandırdıqlarının şahidi oldum. Ermənilərin bir neçə azərbaycanlını döyərək öldürdüklərini gördüm. Həmçinin onlar 23 nəfəri gözümün qarşısında diri-diri basdırdılar, sadəcə, başları çöldə qalmışdı. Ermənilər azərbaycanlılara o qədər işgəncə verirdilər ki, onlar dözə bilməyərək özlərini öldürürdülər. Ermənistan ordusunun hərbçiləri qəbiristanlıqlarımızı talan edir, nəşləri qəbirdən çıxarıb təhqir edirdilər. Mənə edilən işgəncələrə görə sağ qulağım yaxşı eşitmir, gözümdə zəiflik yaranıb. Dişlərimi qırdılar", - deyə Z.Səfərov diqqətə çatdırıb.

Dövlət ittihamçısı Təranə Məmmədovanın sualına cavabında Z.Səfərov deyib dedi ki, məhkəmədə nümayiş etdirilən videogörüntülər 1993-cü il aprelin 12-də lentə alınıb. Videodakı azyaşlı oğlan odur. Girovluqda qaldıqları zaman çəkilib. Həmin görüntüdə azərbaycanlı girovlar ermənilərə çörək bişirir. Videonu Svetlana adlı ukraynalı jurnalist çəkib. Ermənilər elə görüntü yaradır ki, guya girovlara yaxşı baxırlar və onları dəyişəcəklər. Əvvəlcədən də girovlara tapşırıblar ki, işgəncə barədə bir kəlmə də danışmasınlar.

Zabil Səfərov zərərçəkmişlərin nümayəndəsinin sualına cavabında deyib ki, o, 1995-ci ilin noyabrında girovluqdan azad edilib.

İfadə verən zərərçəkmiş şəxs Nəsimi Səfərov bildirib ki, Kəlbəcər rayonunun Ağdaban kəndində ata, ana, 3 qardaş, 2 bacı, həyat yoldaşı və oğlu ilə birlikdə yaşayıb. 1989-cu il iyulun 10-da Ermənistan silahlı bölmələrinin Ağdaban kəndinə ilk hücumları olub. Hücum edənlər Ağdərə rayonunun Çapar kəndinin sakinləri olublar. Onların başçıları Çapar kəndinin kolxoz sədri, Ermənistandan bu hadisələrə başçılıq etmək üçün göndərilən "Qaqo" adlı erməni olub. 1991-ci ilin oktyabr-noyabr aylarında Ermənistan silahlı bölmələri 2 dəfə Ağdaban kəndinə silahlı hücum edib, kəndin özünümüdafiə dəstəsi isə kəndi özlərində olan ov silahları ilə müdafiə edib və ermənilər kəndi işğal edə bilməyiblər.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran N.Səfərov qeyd edib ki, 1992-ci il aprelin 8-də səhər saatlarında Ermənistan ordusunun hərbçiləri çox böyük bir qüvvə ilə, təxminən 1000 nəfərə yaxın hərbçi və 6 zirehli texnika ilə kəndə hücuma keçdilər: "Hücum zamanı biz təxminən 30-35 nəfər şəxs idik. Ermənistan ordusunun bölmələrinin hücumu zamanı Ağdaban kəndinin 32 nəfər sakini şəhid oldu, 9 nəfər yaralandı, 5 nəfər isə girov götürüldü. Ermənilər kənddəki evlərin təxminən yarısını yandırdılar. Onlar kənd əhalisinə məxsus mal-qaranı, evlərdə olan müxtəlif məişət əşyalarını talayaraq apardılar. Kəndin qalan əhalisi isə məcburi şəkildə Kəlbəcərin Bağırlı kəndi istiqamətində qaçdılar. Onlar kəndi məcburi şəkildə, meşələr



vasitəsilə piyada olaraq tərk etdilər.

Ermənilər həm say, həm də silah-sursat baxımından dəfələrlə üstün olduğu üçün kəndi müdafiə edə bilmədik".

Zərərçəkmiş şəxsin hüquqi varisi Zamin Qurbanov Ermənistan silahlı qüvvələrinin hərbçilərinin 1992-ci il aprelin 8-də Kəlbəcər rayonunun Ağdaban və Çayqovuşan kəndlərinə silahlı hücum etdiyini bildirib.

"Həmin hücum zamanı atam Bakı Qocayev və anam Zeynəb Qocayeva yaşadıqları evdə yandırılaraq öldürülüblər.

Ermənistan silahlı bölmələrinin kəndə silahlı hücumu zamanı bibim qızı evdə olduğu zaman ev ermənilər tərəfindən yandırılıb. O da evin içində yanaraq qətlə yetirilib. Onların meyitləri demək olar ki, tamamən yanaraq kül olmuşdu. Həmin vaxt həyat yoldaşım və övladlarım ilə birlikdə Bərdə şəhərində yaşayırdım", - deyə o əlavə edib.

Zərərçəkmiş şəxslərin ifadələrindən sonra növbəti videomaterial nümayiş olunub. Həmin videoda sonradan qondarma rejimin "daxili işlər, milli təhlükəsizlik nazirləri" və "baş prokuroru" olmuş Arşavir Qaramyan hərbçilərin əhvali-ruhiyyəsinin yaxşı olduğunu deyir. Həmin videoda Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və təcavüzkar müharibəni davam etdirməkdə israrlı olduğu bir daha təsdiqini tapır.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında zərərçəkmiş şəxs deyib ki, həmin hücum nəticəsində əmisi Qara Qocayev yaşadığı evin yaxınlığında açılmış atəş nəticəsində güllə yaraları xəsarəti alaraq həlak olub.

"1988-ci ilin əvvəllərindən ermənilər tərəfindən Qarabağ bölgəsində yaşayan azərbaycanlılara qarşı nifrət təbliğ olunurdu, ermənilər Ağdərə-Kəlbəcər yolunu bağlayıb və oradan keçən azərbaycanlılara məxsus nəqliyyat vasitələrinə daş atırdı, əllərində olan dəyənəklərlə maşınları vuraraq sürücü və sərnişinləri təhqir edirdilər. Onların məqsədi azərbaycanlıları öz doğma yurdlarından qovmaqdan ibarət idi və bu hərəkətləri ilə onları qorxudub evlərindən çıxartmaq istəyirdilər", - deyə Z.Qurbanov deyib.

Zərərçəkmiş şəxs və zərərçəkmiş şəxsin hüquqi varisi İsgəndər Kərimov da ifadəsində bildirib ki, Kəlbəcər rayonu işğal olunanadək rayonda yerləşən "İstisu" sanatoriyasında həkim işləyib, Ağdaban kəndində yaşayıb.

O qeyd edib ki, Ağdaban kəndinin Ermənistan silahlı bölmələrinin hücumlarından müdafiə olunması üçün təşkil olunmuş özünümüdafiə dəstəsinə qoşulub.

Artıq 1990-cı ildən başlayaraq Ermənistan silahlı bölmələri mütəmadi şəkildə Ağdərə rayonunun Çapar kəndi istiqamətindən Ağdaban kəndini müxtəlif çaplı silahlardan atəşə tutub. 1992-ci ilin aprel ayında Ağdaban kəndində təxminən 137 ev olub, yəni kənddə 137 ailə olmaqla 700 nəfərə yaxın sakin yaşayıb.

"1992-ci il aprelin 8-də Ağdaban kəndi hər tərəfdən Ermənistan silahlı bölmələri tərəfindən müxtəlif odlu silahlardan atəşə tutuldu. Onlar Çapar kəndi tərəfdən gələrək, meşəlik və dağlıq ərazilərə keçib, kəndi tam mühasirəyə aldılar. Kəndi iriçaplı silahlardan, pulemyotlardan, digər meşəlik və dağlıq ərazidən isə avtomat silahlardan atəşə tuturdular", - deyə zərərçəkmiş şəxs bildirib.

Daha sonra ifadə verən zərərçəkmiş şəxs Müşfiq Əliyev bildirib ki, 1993-cü il martın 31-də Kəlbəcər rayonu ərazisində Ermənistan ordusunun hərbçiləri tərəfindən girov götürülüb. Sonra digər girovlar ilə birlikdə "Ural" markalı avtomobillə Xankəndi şəhərində yerləşən uşaq bağçasına aparılıb.

"1993-cü il aprelin 1-də Cəmilə Quliyeva ilə birlikdə Xankəndi şəhər uşaq xəstəxanasına aparıldım. Orada Stepanyan Edik adlı erməni həkim əvvəlcə güllə yarası almış ayağımı kəsmək istədi, sonradan isə kəsməyərək heç bir ağrıkəsici və keyidici dərman istifadə etmədən döyə-döyə əməliyyat etdi. Üç ay xəstəxanada qaldığım müddətdə həmin erməni həkimin mənim üzərimdə eksperiment apardığını başa düşdüm", - deyə zərərçəkmiş şəxs bildirib.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında zərərçəkmiş şəxs deyib ki, yaraları tam sağalmamış 5 nəfər girovla birlikdə Şuşa həbsxanasına aparılmaqla 1 il 7 ay saxlanılıb. "Bu müddətdə erməni nəzarətçiləri "Armo", "Ovik" və "Gena" qardaşları, "Slavik", "Artur", habelə adlarını xatırlamadığım digər erməni nəzarətçiləri tərəfindən mütəmadi olaraq yumruq-təpik, dəmir parçası, armatur, bel sapı, yoğun kabel və müxtəlif küt əşyalar ilə şiddətli şəkildə döyüldüm, eləcə də müxtəlif formada işgəncələrə məruz qaldım. Bəxtiyar Səfərov və adını xatırlamadığım bir azərbaycanlı girov ilə birlikdə Şuşa rayonu Malıbəyli kəndində yerləşən fermalarda zorla işlədilərək məcburi əməyə cəlb edilmişəm", - deyə M.Əliyev əlavə edib.

Zərərçəkmiş şəxs dövlət ittihamçısı Fuad Musayevin sualına cavabda bildirib ki, girovluqda saxlanılan bəzi azərbaycanlılar verilən işgəncələrə dözməyərək özlərinə qəsd edib. O da buna cəhd etsə də, başa çatdıra bilməyib. Hətta işgəncələrə dözməyərək özünü yandırmaq da istəyib.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Daha sonra Ermənistan ordusunun Kəlbəcər rayonunun Başlıbel kəndini işğal etməsi ilə bağlı videomaterial nümayiş olunub.

Kadrlarda hərbi formada olan ermənilərdən biri Ermənistan hərbçilərinin özlərini çox yaxşı apardıqlarını və ruhlarının yerində olduğunu deyib. O, sözünə davam edərək deyir: "Kirovabada çatacağıq, qaraçıların dediyi kimi Gəncəyə".

Daha sonra Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev Kəlbəcər rayonunun Başlıbel kəndində törədilmiş qətliamla bağlı protokolları elan edib.

Məhkəmənin növbəti iclası mayın 12-nə təyin olunub.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə ermənisilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# "Bizim həyət" layihəsi çərçivəsində Şirvanda növbəti abadlıq işləri görülüb











Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində Şirvan şəhərində növbəti abadlıq işləri görülüb.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyətlər Şirvan şəhərində Heydər Əliyev prospekti və H.Z.Tağıyev küçəsi, 1A, 2A ünvanlarında 700 nəfərdən çox sakinin yaşadığı binaları əhatə edir.

Abadlaşdırılan həyətlərdə bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və sistematik idmanla məşğulolmanın stimullaşdırılması məqsədilə müxtəlif idman qurğuları, uşaqlar üçün oyun meydançaları salınıb. Ümumi sahəsi 1.1 hektar olan hər iki ünvanda 6 söhbətgah, 2 turnik kompleksi, 6 uşaq oyun kompleksi, 2 ikili balans, 10 fitnes idman qurğusu, 12 oturacaq, 12 tullantılar üçün qutu, eləcə də quş yuvaları və pişik evləri quraşdırılıb.

Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq zeytun və sərv ağacları, 9200 dekorativ gül kolları və 200 ədəd həmişəyaşıl ivenus və oleandr kolları əkilib. Açılış vaxtı IDEA könüllüləri tərəfindən hər iki ünvanda 220-ə qədər şam ağacı və 100 ədəd həmişəyaşıl ivenus gül kolu əkilib.

Qeyd edək ki, IDEA İctimai Birliyinin təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində Şirvan şəhərində 2020-2025-ci illərdə ümumilikdə 7.8 hektar ərazidə 7 həyət abadlaşdırılaraq şəhər sakinlərinin istifadəsinə verilib.

"Bizim həyət" layihəsinin əsas məqsədi həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, eləcə də sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

# Yəhudiləri və müsəlmanları birləşdirən münasibət

## Bir sıra ölkələrdə antisemitizm və islamofobiya güclənib

Dünyanın yeddi ölkəsindəki ən böyük yəhudi diasporları antisemit hadisələrdə əhəmiyyətli artım olduğunu qeydə alıblar. Bu barədə Almaniya, Fransa, Böyük Britaniya, ABŞ, Kanada, Avstraliya və Argentinanın yəhudi icmalarının daxil olduğu J7 beynəlxalq işçi qrupunun təqdim etdiyi hesabatda deyilir.




Hesabata görə, ən çox antisemit hadisələri (1000 yəhudiyə 38 hadisə) Almaniyada aşkar edilib. Müqayisə üçün bildirilir ki, bu göstərici Böyük Britaniyada 13, Avstraliya, Argentina və Fransada hər birində 4, Kanadada 2, ABŞ-də 1-dir.

J7 qrupu narahatedici bir tendensiya barədə də xəbərdarlıq edib. Hesabatda 2021-ci ildən 2023-cü ilə qədər ABŞ-də antisemit hadisələrin ən kəskin - 227 faiz artdığı deyilib. Həmin rəqəm Fransada 185, Almaniyada isə 75 faizdir. Bunun əsas səbəbi kimi HƏMAS-ın 7 oktyabr 2023-cü ildə İsrailə hücumu və onun nəticələri göstərilib.

Almaniyadakı Yəhudilərin Mərkəzi Şurasının prezidenti Yozef Şuster antisemit cəbhənin formalaşdığını elan edib. Qeyd edilir ki, oxşar tendensiyalar J7 ölkələrinin hamısında müşahidə olunur. Xüsusilə zorakı hücumların sayı, internetdə yəhudilərə nifrət səviyyəsi artır. Bir çox yəhudinin özlərini getdikcə daha çox güvənsiz hiss etdiyi və qorxudan kimliklərini göstərən simvolları taxmaqdan imtina etdiyi deyilir. Eyni zamanda hesabatda antisemitizm zorakılığına qarşı kifayət qədər tədbir görmədiyinə görə hakimiyyət tənqid olunur.

Digər tərəfdən, müsəlmanlara hücumların və onlara qarşı ayrı-seçkilik hallarının sayı da artır. Bir müddət əvvəl İslam və Müsəlmanlar Düşmənliyinə Qarşı Alyans (Claim) Almaniyadakı vəziyyətlə bağlı öz təhlilini təqdim edib. Claim-in hesabatına görə, ölkədə müsəlmanlara qarşı hücumlar, təhdidlər və ayrı-seçkilik 2023-cü ildə əvvəlki illə müqayisədə iki dəfədən çox artıb. Bu cür hücumların sayı təqribən 900-dən 1926-ya yüksəlib. Alyansın rəhbəri Rima Hanano deyir ki, müsəlmanlara qarşı irqçilik indi həmişəkindən daha məqbul sayılır və bu, cəmiyyətin nüvəsindən qaynaqlanır.

Xatırladaq ki, BMT-nin baş katibi Antonio Quterreş bütün dünyada müsəlmanlara qarşı nifrət aktlarının artdığını bildirərək onlayn platformaları bununla bağlı nifrət çıxışlarının və təqiblərinin yayılmasına nəzarət etməyə çağırıb.

***Rizvan CƏFƏROV,*<br>*"Azərbaycan"***

# Ermənistanda dövlət borcu 7 ildə iki dəfə artıb

Bütün sahələrdə dərin böhran yaşayan Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır. Tərəflər bir-birilərini təhdidə davam edirlər. Artıq ölkənin müxtəlif şəhərlərində etirazlar keçirilir. Siyasi çəkişmələrdən yorulan əhali isə problemlərinin həllini istəyir. Ölkədə əhalinin 60 faizi işsizdir. Bu ilin ilk 4 ayında işsizliyin səviyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə orta hesabla 26 faiz artıb.

"4rd.am" saytı yazır ki, hazırda Ermənistanda rəsmi qeydiyyata alınan işsizlərin sayı 74 min nəfərdən çoxdur. Milli Statistika Xidmətinin Ermənistanda yoxsulluğun mənzərəsi və iş bazarının problemləri üzrə beş illik araşdırmalarının nəticələrinə görə, ölkədə hər 100 işsizdən 40-ı gəncdir. Ümumi işsizlər arasında 20-29 yaşlı insanlar üstünlük təşkil edirlər. Ermənistanda yeni iş yerlərinin yaradılması da mümkün deyil. Çünki ölkə iqtisadiyyatı iflasa uğrayır. Vəziyyət o həddə çatıb ki, hətta mövsümi iş tapmaq çox çətindir.

2018-ci il inqilabından 7 il sonra, Nikol Paşinyanın hakimiyyəti dövründə Ermənistanın dövlət borcu martın 31-nə 5 trilyon 318 milyard dram təşkil edib. Bu barədə Ermənistanın maliyyə naziri Vahe Hovhannisyan ötən gün keçirdiyi mətbuat konfransında bildirib. Məlum olur ki, dövlət borcu 13,6 milyard dollara yaxın olub. Bu da ötən ilin dekabrın 31-nə 4,4 faiz artım deməkdir. 2024-cü ilin yekunlarına görə, dövlət borcu ilə Ümumi Daxili Məhsul (ÜDM) nisbəti 0,1 faiz bəndi azalıb.

Hovhannisyan əmin edib ki, borcun cəlb edilməsi və həcmi Ermənistanın büdcəsi və ortamüddətli borc strategiyası ilə planlaşdırılır.

Erməni nazir onu da vurğulayıb ki, daxili borcun ümumi borcda xüsusi çəkisi artaraq, 50 faizə çatıb. Hovhannisyan bunu kifayət qədər yaxşı göstərici hesab edib.

"4rd.am" nəşri yazır ki, 2018-ci ilin sonunda Ermənistanın dövlət borcu təxminən 6,9 milyard dollar təşkil edib: "Borc göstəricilərini müsbət hesab edən nazirin ağlına da gəlməzdi ki, 2018-ci ilin dövlət borcu ilə bağlı məlumatları müqayisə etsək, 2018-ci ildən 2025-ci ilin martına qədər dövlət borcunun təxminən 6,7 milyard dollar artdığını, yəni iki dəfəyə yaxın artdığını qeydə alacağıq. Dövlət borcunun ÜDM-ə nisbəti də artıb, lakin orta səviyyədə, təxminən 2,5 faiz bəndi artıb".

Hazırda Ermənistanın xarici kreditlərinin ən böyük hissəsini Dünya Bankının kreditləri təşkil edir. Ötən il borc faizlərinə və əsas borcun ödənilməsinə təxminən 2 milyard dollar xərclənib. Rəsmi məlumatlara görə, 2024-cü ildə borc faizlərinə 314 milyard dram, əsas borclara isə 451 milyard dram ayrılıb.

İqtisadiyyat naziri Gevorq Papoyanın çirkin manipulyasiyasından sonra dövlət borcu ilə bağlı söhbətlər qızışıb. Nazir ictimaiyyəti aldatmaq qərarına gəlib, xarici borclarla bağlı məlumatları açıqlayıb, dövlət borcunun o qədər də böyük olmadığı təəssüratı yaradıb. Üstəlik, o, sosial şəbəkədə istifadəçinin sualına cavab olaraq bildirib ki, daxili borc bir cibdən pul çıxarıb digərinə qoymaqla eynidir.

Bunlar bir daha Ermənistanda bütün sahələrdə vəziyyətin qeyri-qənaətbəxş olduğunun, ölkə hakimiyyətinin hər keçən gün daha çıxılmaz vəziyyətə düşdüyünün sübutudur. Hadisələrin bu səpkidə inkişafı yaxın gələcəkdə Ermənistanda hakimiyyət böhranının yaşanacağını göstərir.

***Elçin CƏFƏROV,*<br>*"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Azərbaycan-Vyetnam əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəlir
Tarixin Böyük Şəxsiyyəti
Əziz Şuşa, sən azadsan!
Uzaq sahil, yaxın ölkə
Qarabağ və Şərqi Zəngəzur Orta dəhliz çərçivəsində strateji əhəmiyyətə malikdir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# DTX və DSX birgə əməliyyat-axtarış tədbirləri keçirib, saxlanılan var

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Dövlət Sərhəd Xidməti (DSX) birgə əməliyyat-axtarış tədbirləri keçirib, saxlanılan var.




AZƏRTAC-ın xəbərinə görə, narkotik vasitələrin qaçaqmalçılığına və qanunsuz dövriyyəsinə qarşı davam etdirilən tədbirlər çərçivəsində müəyyən edilib ki, Azərbaycan Respublikasının vətəndaşı, 1991-ci il təvəllüdlü Əliyev Şəhriyar Vaqif oğlu müvafiq xarici ölkədə yaşayan şəxslə cinayət əlaqəsinə girərək, qaçaqmalçılıq yolu ilə Azərbaycana satış məqsədilə gətiriləcək külli miqdarda narkotik vasitə sayılan qurudulmuş marixuananı Beyləqan rayonu ərazisində əldə etdikdən sonra Bakı şəhərinə apararaq gizlədəcəyi barədə əvvəlcədən razılığa gəlib.

Bundan sonra Şəhriyar Əliyev qarşılıqlı razılığa uyğun olaraq, həmin narkotik vasitəni Beyləqan rayonunun Əhmədli kəndi ərazisində gizlədilmiş yerdən götürərək Bakı şəhərinə aparmaq məqsədilə avtomobilinə daşıyarkən Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti tərəfindən birgə keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

Keçirilmiş baxış zamanı onun üzərindən ümumilikdə çəkisi 30 kiloqramdan artıq olan qurudulmuş marixuana aşkar edilərək götürülüb.

Faktla əlaqədar Əliyev Şəhriyar Vaqif oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2, 234.4.1 və 234.4.3-cü maddələri ilə cinayət məsuliyyətinə cəlb olunmuş və məhkəmənin qərarı ilə onun barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.


## Holcim (Azərbaycan) ASC-nin *səhmdarlarının nəzərinə*

Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının illik ümumi yığıncağı 30.06.2025-ci il tarixdə saat 10:00-da Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1065, İzmir küçəsi, 6 ünvanında yerləşən "Hyatt Regency" hotelinin Hyatt Hall Ballroom zalında keçiriləcəkdir. Səhmdarların qeydiyyatı zalın foyesində saat 09:00-dan 09:45-dək aparılacaqdır.

**Səhmdarların illik ümumi yığıncağının gündəliyi:**

1. Holcim (Azərbaycan) ASC-nin səhmdarlarının illik ümumi yığıncağının sədrinin seçilməsi.
2. Holcim (Azərbaycan) ASC-nin 2024-cü il üzrə audit olunmuş maliyyə hesabatlarının təsdiqlənməsi.
3. 2024-cü ilin nəticələri üzrə xalis mənfəətin bölüşdürülməsi.
4. Holcim (Azərbaycan) ASC-nin nizamnaməsində dəyişikliyin təsdiq edilməsi.
5. Müşahidə Şurasına üzvlərin və sədrin seçilməsi.
6. Təftiş Komissiyasına üzvün seçilməsi.
7. Holcim (Azərbaycan) ASC ilə Holcim International Finance LTD arasında imzalanmış borc müqaviləsinin müddətinin uzadılması.

***Holcim (Azərbaycan) ASC***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## "Bakı Dəmir Beton-8" Açıq Səhmdar Cəmiyyətinin *səhmdarlarının nəzərinə*

"Bakı Dəmir Beton-8" ASC-nin səhmdarlarının ümumi yığıncağının iclası 25 iyun 2025-ci il tarixdə, saat 11:00-da cəmiyyətin yerləşdiyi AZ1108, Bakı şəhəri, Əhməd Rəcəbli küçəsi, 11/33 ünvanında keçiriləcəkdir.

***Səhmdarların ümumi yığıncağının gündəliyi:***

1. "Bakı Dəmir Beton-8" ASC-nin illik hesabatının, maliyyə hesabatının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi.
2. "Bakı Dəmir Beton-8" ASC-nin fəaliyyətinin müvəqqəti dayandırılması. Cəmiyyətin fəaliyyətinin müvəqqəti dayandırılması barədə arayışın Dövlət Vergi Xidmətinə təqdim edilməsi.
3. "Bakı Dəmir Beton-8" ASC-nin fəaliyyətinin müvəqqəti dayandırılması ilə əlaqədar olaraq cəmiyyətin bütün işçiləri ilə olan əmək müqavilələrinə xitam verilməsi, cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) təftiş komissiyasının (müfəttişinin) icra orqanının (direktorunun) səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyi üzrə materiallarla cəmiyyətin yerləşdiyi inzibati binasında tanış ola bilərlər.

***"Bakı Dəmir Beton-8" ASC***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmilərdə gövdə və mexanizmlərin sığorta xidmətlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 may 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3570**
**Sifariş 927**

**Qiyməti 60 qəpik**